Xalqın qəzeti!

# Xalq qəzeti

№ 92 (30786) 7 may 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


*Heydər Əliyev:*

**“Mən siyasəti seçmədim, tale məni siyasətə gətirdi”**



Səhifə ⇨ 6

# Azərbaycanla Belarusun dostluğu qarşılıqlı etimada əsaslanır

## Azərbaycan Prezidenti İlham Əliyev Belarusun Baş nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Aleksandr Turçin, ilk növbədə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulandı. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparıldı. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verildi.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edildi. Belarusun Baş naziri ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirdi.

Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunuldu.

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Ortaq düşüncə platforması

**İran Prezidenti Məsud Pezeşkianın Bakıya rəsmi səfərindən sonra iki ölkə arasında əməkdaşlığın müxtəlif istiqamətlərində canlanmanın yaranacağı gözlənilən idi. Buraya regional və beynəlxalq münasibətlərin təhlili və araşdırılması ilə məşğul olan mərkəzlər, qeyri-hökumət təşkilatları arasında əlaqələrin qurulmasını və qarşılıqlı əməkdaşlığın intensivləşəcəyini də aid etmək olar.**



“Məsud Pezeşkianın Azərbaycana səfəri, həqiqətən də, ikitərəfli münasibətlərin yeni perspektivlərini açdı. Bunun yeni mərhələnin başlanğıcı olacağına ümidlər böyükdür. Bu baxımdan iki ölkənin düşüncə mərkəzləri səviyyəsində də müvafiq addımlar atılır”. Bu sözləri XQ-yə açıqlamasında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirdi. Qeyd etdi ki, rəhbərlik etdiyi mərkəzin İran Xarici İşlər Nazirliyinin məlum institutu ilə əvvəllər əlaqələr mövcud idi. 2021-ci ildə Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin (IRIS) əməkdaşlarının Bakıya gəlişini xatırladan F.Şəfiyev ondan sonrakı dövrdə məlum səbəblər üzündən təmasların kəsildiyini dedi. Artıq ikitərəfli təmasların bərpa edildiyini nəzərə çatdıran BMTM sədri Bakıda imzaladıqları anlaşma memorandumun dövlətlərarası müqavilə olmasa da, amma onu xoş niyyətlə bağlı sənəd kimi qiymətləndirdi: Təbii ki, birgə fəaliyyətimizin səmərəsi bu sənədi məzmunla nə dərəcədə dolduracağımızdan asılı olacaq. Başladığımız müzakirələr buna ümidlər verir”.

**(ardı 9-cu səhifədə)**

# Rusiyadan cavab gözləyirik!



Səhifə ⇨ 3

# Uzaq Vyetnamı ölkəmizlə yaxınlaşdıran əlaqələr

**Vyetnam xalqı uzun illər müstəmləkəçilik, istila, hərbi müdaxilə şəraitində yaşayıb. Nəhayət, məşəqqətli, əzab-əziyyətli həyat dost ölkələrin və xalqların hərtərəfli dəstəyi ilə başa çataraq inkişaf dövrü başlayıb. Vyetnamın müharibədən sonrakı bərpasında, xüsusən də neft-qaz sənayesinin qurulmasında Azərbaycanın çox böyük dəstəyi diqqət çəkib. Vyetnam xalqı ölkəsinin neft-qaz sənayesinin qurulmasında neftçilərimizin tarixi xidmətlərini yüksək dəyərləndirib.**



Vyetnamın neft yataqlarının kəşfiyyatı və işlənilməsi məqsədilə 1981-ci ildə “Vietsovpetro” Sovet – Vyetnam birgə müəssisəsi yaradılıb və bu ölkənin neft yataqlarının kəşfiyyatı, hasilatı üçün Azərbaycanın onlarla qabaqcıl neft mühəndisi, geoloqu, ixtisaslaşmış işçisi Vyetnama ezam olunub. Bundan başqa, Azərbaycandan Vyetnama neft sənayesinə aid xeyli sayda texnika və avadanlıq göndərilib. Şirkətin 1981–1984-cü illərdə ilk baş direktoru azərbaycanlı mütəxəssis Cəlal Məmmədov, geologiya bölməsinin ilk rəhbəri isə Müslüm Vəliyev olub.

*(ardı 10-cu səhifədə)*

# Qlobal güc paritetinin dəyişən koordinatları



Səhifə ⇨ 8

# Bakıdan Dəməşqə uzanan yol

Səhifə ⇨ 4



# Ələt Azad İqtisadi Zonasına hava qapısı açılır



Səhifə ⇨ 10

# İrəvanda “casus ovu” mövsümü

Səhifə ⇨ 9

# Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir:**



**– 2025-ci il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Respublikasına dövlət səfəri edəcək. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?**

– Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.

Mənim 2014-cü ildə ölkənizə dövlət səfərim və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açdı və onların gələcək inkişafına təkan verdi. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan–Vyetnam biznes forumu keçirildi.

Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır.

Xarici İşlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təmələ əsaslanır – çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar. Təsadüfi deyil ki, 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradılan "Veso Petrol" müştərək müəssisəsinin ilk baş direktoru azərbaycanlı Cəlal Məmmədov olub.

Mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığımızın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959–1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə mükafatlandırılıb.

Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi.

Ölkələrimiz arasında mədəni əlaqələrdən söz düşmüşkən qeyd etmək istərdim ki, onlar müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir. Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş "Əfsanə yaradanlar" filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi.

Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

**– İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?**

– Məlum olduğu kimi, cənab Lamın qarşıdakı səfəri onun Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi qismində ilk səfəri olacaq. Tərəflərin ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan–Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar.

Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq.

**– Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün hansı perspektivlər və potensial mövcuddur?**

– Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı – bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir.

Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər.

## Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin, apellyasiya məhkəmələrinin məhkəmə kollegiyaları sədrlərinin və bəzi birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə uyğun olaraq,

Azərbaycan Respublikasının Ali Məhkəməsi üzrə:

1.1. Çingiz İsgəndər oğlu Əsgərov Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Hafiz Qənbər oğlu Nəsibov Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.3. Xəqani Səyyad oğlu Məmmədov Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.4. Kəmalə Nəbi qızı Abiyeva Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.5. Sənan Firudin oğlu Hacıyev Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

apellyasiya məhkəmələri üzrə:

1.6. Elmar Eldar oğlu Rəhimov Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.7. Rəşad Ziyaviddin oğlu Mamedov Gəncə Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.8. Şamil Qəhrəman oğlu Rzaquliyev Gəncə Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.9. Hökümə Çingiz qızı Babayeva Sumqayıt Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.10. Rövşən Rafiq oğlu Rəfiyev Şəki Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.11. Elçin Şirin oğlu Hüseynov Şəki Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.12. Tale Suliddin oğlu Kərimov Şirvan Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

inzibati məhkəmələr üzrə:

1.13. Araz Firidun oğlu Hüseynov Bakı İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.14. Zəfər Arif oğlu Quliyev Gəncə İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.15. İmran Ramazan oğlu Burcayev Sumqayıt İnzibati Məhkəməsinin sədri təyin edilsin;

1.16. Fehruz Novruz oğlu Abbasov Şirvan İnzibati Məhkəməsinin sədri təyin edilsin;

kommersiya məhkəmələri üzrə:

1.17. İlham Bayram oğlu Əhmədov Bakı Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.18. Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.19. Mübariz Rahil oğlu Hüseynov Şəki Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

1.20. Namidar Əlöysət oğlu Misirzadə Şirvan Kommersiya Məhkəməsinin sədri təyin edilsin;

rayon (şəhər) məhkəmələri üzrə:

1.21. Nemət Əlimusa oğlu Musayev Qazax Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.22. Rəşad Rafiq oğlu Mustafayev Sumqayıt Şəhər Məhkəməsinin sədri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 may 2025-ci il**

## "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Gömrük Xidməti (Federal Gəlirlər Şurası) arasında ilkin elektron məlumat mübadiləsinin yaradılması haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 may 2025-ci il**

## "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 may 2025-ci il**

## Azərbaycan və İranın beynəlxalq təşkilatlarda əməkdaşlığı

**Mayın 6-da xarici işlər nazirinin müavini Yalçın Rəfiyev ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər nazirinin müavini, İran XİN-in Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Səid Xətibzadə ilə görüşüb.**

Görüş zamanı İranın Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfərindən sonra Azərbaycan-İran ikitərəfli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, eləcə də regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparılıb.

Tərəflər, həmçinin İran və Azərbaycanın araşdırma və beyin mərkəzləri arasında təmasların və əməkdaşlığın qurulmasının ikitərəfli əməkdaşlığa əlavə təkan verəcəyini, iki ölkənin ictimaiyyətləri arasında müxtəlif mövzular barədə məlumatlılığın artmasına xidmət edəcəyini qeyd ediblər.

***XQ***

# Rusiyadan cavab gözləyirik!

## “Torbadakı pişik” günahsız insanlardan artıq deyil

**“Azərbaycan Hava Yolları” aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” təyyarəsinin ötən il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasından altı aya yaxın vaxt keçib. Əslində, söhbət qəzadan yox, hava gəmimizin vurulmasından gedir. Özü də Rusiya səmasında, daha doğrusu, Qroznu yaxınlığında.**



“Qara qutu” təyyarənin yerə çırpılma səbəbinin kənar müdaxilə olduğunu təsdiqləyib. Füzelyajda olan dəliklər də “Embraer 190”nın məhz hava hücumundan müdafiə sisteminin raketinin partlaması nəticəsində hərəkətini itirdiyini söyləməyə əsas verir. Qalır, yumşaq desək, gərəksiz müdaxiləyə yol verənlərin məsuliyyətə cəlb edilmələri, ədalət mühakiməsi qarşısına çıxarılmaları. Amma görünür, işin ən çətin hissəsi elə budur. Çünki Rusiya tərəfi məsələni uzatmaqla məşğuldur, qəsdən yaratdığı bürokratik maneələrlə istintaqın aparılmasını əngəlləyir. Deməli, necə deyələr, torbada pişik var. Başqa sözlə desək, o “pişik” təyyarədə olan 40-dək insanın həyatını itirməsindən, 25-dən çoxunun yaralanmasından daha vacib statusdadır.

Əslində, pişik söhbətini elə-belədən açmadıq. Çünki Rusiya lap əvvəldən hadisəni adi qəza kimi təqdim etməyə çalışırdı. Əvvəl hava gəmimizi “quşla toqquşduranlar” tapıldı. Bu məsələdə ilk növbədə informasiya kirliliyi yaratmaq cəhdlərini gördük. Ardınca, Rusiyadakı anti-Azərbaycan sürüsü təmsilçilərinin “işə düşüb” ağızlarına gələni danışdıqlarına şahidlik etdik. Daha sonra ölkənin Xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında 2020-ci ilin 44 günlük müharibəsinin son günündə Rusiyanın hərbi helikopterinin Azərbaycan tərəfindən vurulmasını yada saldı. O, faktiki olaraq, hadisələri eyniləşdirdi. Nəhayət, Kremlin baş diplomatının sözlərindən belə çıxdı ki, Bakı Moskva ilə əlaqələrinin yaxşı olması səbəbi ilə təyyarənin vurulmasına görə məsuliyyəti unutmalıdır...

S.Lavrovun anlaşılmaz fikirləri ilə paralel olaraq, haqqında söz açdığımız sürü ölkəmizə söyüş və təhqirlər yağdırdı. Bu sərsəm təfəkkür sahibləri təyyarə olayı ilə bağlı boş və mənasız versiyalarını sırımaq üçün şantaja əl atdılar, iyrənc sovet təbliğatına xas nağıllar danışdılar. Ancaq cəhdləri heç bir fayda vermədi.

Azərbaycan ictimaiyyəti Rusiya tərəfinin məsuliyyətli davranmasını gözləyir və tələbində israrlıdır. Bunu Prezident İlham Əliyev də vurğulamışdı. Prinsipial mövqe tutan dövlətimizin başçısı Azərbaycan televiziyasına müsahibəsində günahkarların cəzalandırılmasını tələb etmişdi. Rəsmi Bakı yenə öz mövqeyində qalır.

Əlbəttə, Azərbaycan cəmiyyəti və dövləti heç nəyi unutmur və Rusiya tərəfdən cavab gözləyir. Cavab isə yoxdur. Məsələn, ölkəmizin prokurorluq orqanları hər ay bununla bağlı rusiyalı həmkraları ilə əlaqə saxlasalar da, nəticəsi olmur. Mövcud durum, əlbəttə ki, etimad mühitini zədələyir. Özü də söhbət təkcə iki ölkənin hüquq-mühafizə orqanları arasındakı deyil, bütövlükdə Bakı ilə Moskva arasındakı etimaddan gedir.

Bəli, qarşı tərəf məsələyə həssas yanaşma nümayiş etdirməlidir. Nəzərə almalıdır ki, Azərbaycan dövləti və xalqı mövqeyində haqlıdır. Bunun üçün isə əlavə heç bir sübuta ehtiyac yoxdur. Hər şey gün kimi aydındır. Rusiya tərəfinə təyyarəmizə atəş əmrini açmağı kimin verdiyi, atəşi kimlərin açdığı çox yaxşı bəllidir. Bunu gizlətmək mənasız, həmçinin Azərbaycan – Rusiya münasibətləri baxımından zərərlidir.

Əlbəttə, “Azərbaycan Hava Yolları” aviaşirkətinin “Embraer 190” təyyarəsinin atəşə tutulması ilə bağlı başqa məqamlardan da söz aça, bəzi digər nüansları diqqətə çatdıra bilərdik. Amma buna lüzum görmürük. Çünki Rusiya tərəfindən mehriban və səmimi qonşuluq münasibətlərinə sadiqlik, səmimiyyətə şübhə gətirən məqamların aradan qaldırılmasını gözləyirik.

***R.ƏVƏZ***
***XQ***

# Belarusun Baş naziri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib



**Belarus Respublikasının Baş naziri Aleksandr Turçin mayın 6-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.



*

Belarus Respublikasının Baş naziri Aleksandr Turçin həmim gün Bakıdakı Zəfər parkını da ziyarət edib.

Qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Belarusun Baş naziri parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Xatırladaq ki, 2024-cü il noyabrın 8-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə parkın açılışı olub.

***XQ***

Replika

# “Sərhədsiz reportyorlar” niyə susurlar?

## Yəqin, Ermənistan 34-cü “planetdir”

**“Sərhədsiz reportyorlar” təşkilatının diqqətinə çatdıraq ki, dünən Ermənistanda bir qrup jurnalist ölkə parlamentinin binası qarşısında etiraz aksiyası keçirib. Qurumun məsələ barədə bilməsini istəməyimizin səbəbi isə çox sadədir. Çünki “Sərhədsiz reportyorlar” Ermənistanı mətbuat azadlığı indeksinə görə, dünyada 34-cü yerə “çıxarıb”. Bu barədə ötən sayımızda bildirmişdik. İndi diqqətə çatdırdığımız məqam isə başqadır.**




1985-ci ildə Fransada yaradılmış və mərkəzi qərargahı Parisdə yerləşən “Sərhədsiz reportyorlar” təşkilatının hazırda prezident Emmanuel Makronun dirijor çubuğu ilə hərəkət etdiyi məlumdur. O da məlumdur ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotini bir neçə gün əvvəl diplomatik missiya həyata keçirdiyi ölkənin 34-cü pillədə qərarlaşması ilə bağlı sosial şəbəkə postu paylaşmış, az qalmışdı ki, sevincindən ağlasın. Dekotini Ermənistanı möhkəm tərifləməyi də yaddan çıxarmamışdı.

Görəsən, səfirin dünən Ermənistan parlamentinin binası qarşısındakı aksiyadan xəbəri olub? Olubsa, görəsən, məsələ haqqında “Sərhədsiz repartyorlar”ı və qurumun baş təlimatçısı Makronu məlumatlandırıbmı? Çünki nə erməni deputatlar, nə də hay jurnalistlər özlərini 34-cü yerı layiq aparırlar. Söhbət, konkret olaraq, deputat Andranik Koçaryandan gedir. O Koçaryandan ki, Ermənistan Milli Assambleyasının müdafiə və təhlükəsizlik daimi komissiyasının sədridir. Ən əsası isə o, hakim “Vətəndaş sazişi” partiyasının üzvüdür. Media isə cəmiyyətin güzgüsüdür. Yəni, obrazlı desək, o güzgüyə layiq deputat yoxdursa, 34-cü yer də olmamalıdır. Amma...

Bəli, baş nazir Nikol Paşinyanın əsas silahdaşlarından sayılan A.Koçaryanla jurnalist Hripsime Jebelyan arasında insident yaşanıb. Birinci ikinciyə qarşı kobud davranıb, ondan kənara çəkilib dodaqlarını silməsini tələb edib. Görünür, xanım jurnalist Koçaryana sual vermək üçün çox yaxınlaşanda ağzından söz ilə birlikdə tüpürcək də çıxıb, erməni komissiyası sədrinin sifəti müdafiəsiz qalıb, onun üz nayihəsinə təhlükə yaranıb.

Onu da bilirik ki, “Tribune.am” saytının əməkdaşı Jebelyanla Koçaryan arasında insident brifinq zamanı yaşanıb və bu səbəbdən Ermənistan Milli Assambleyasında etika üzrə müvəqqəti komissiyanın yaradılması təşəbbüsü müzakirə edilib. Deməli, Koçaryan jurnalistə qarşı etikasız olub. Parlamentdə bu etikasızlıqla əlaqədar müzakirə təşkili təşəbbüsünün müəllifi isə jurnalist ictimaiyyətinin tələblərinə dəstək ifadə edən müxalifətçi deputat qruplarıdır.

Beləliklə, Ermənistan parlamentinin müxalif deputatları bu il martın 20-də baş vermiş insident səbəbindən 161 jurnalistin hadisəyə dair parlamentə ünvanladıqları birgə bəyanatı nəzərə alaraq hərəkətə keçiblər. Yeri gəlmişkən, Koçaryan–Jebelyan qarşıdurması da Ermənistanın Milli Assambleyasının binasında baş verib. Deyilənə görə, birinci ikincini başqa təhqiramiz ifadələrə də “qonaq edib”. Məsələyə reaksiya verən ekspertlər və jurnalistlər bunu “həm peşəkar, həm də gender zəmində ayrı-seçkilik və alçaldıcı davranış” adlandırıblar. Media təmsilçilərinin birgə bəyanatında vurğulanan başlıca məqam isə budur: “Deputatın üzr istəməkdən imtinası və bunu etmək niyyətində olmadığını göstərməsi xüsusilə narahatedicidir”.

Onu da deyək ki, Koçaryanın özünə qarşı hərəkətindən qeyzlənən H.Jebelyan daha əvvəldən parlament fraksiyalarını işə baxmaq üçün müvəqqəti etika komitəsi yaratmağa çağıran petisiya təşəbbüsü ilə çıxış etmişdi. Təşəbbüs geniş əks-səda doğurmuş və parlamentin iclasının çağrılması da məhz bu səbəbdəndir. Qısaca jurnalist deputatı cəzalandırmaqda israrlıdır. Görünür, media nümayəndələrinin parlament binası önündəki aksiyası da ali qanunverici orqanın qərarına təsir göstərmək məramı daşıyıb.

A.Koçaryanın cəzalandırılıb-cəzalandırılmayacağı, habelə, parlament iclasının hansı qərarı çıxaracağı məlum olmasa da, aksiyaçılar əllərində “Ayıb olsun!”, “Jurnalistlərlə diqqətli olun!” yazılmış plakatlar qaldırıb, Koçaryanın davranışının qəbuledilməzliyini vurğulayan fotoşəkillər və kollajlar nümayiş etdiriblər. Bir məsələ də var: Nədəndirsə A.Koçaryan son zamanlar media təmsilçilərinə qarşı kobud davranışı ilə diqqət çəkməkdədir.

Əlbəttə, bütün bunları diqqətə çatdırmaqla insidenti birbaşa söz azadlığının pozulması, jurnalistə təzyiq kimi də qiymətləndirmək kimi niyyətimiz yoxdur. Jurnalist – məmur qarşıdurmaları, prinsipcə, dünyanın hər yerində yaşanır. Azərbaycanda da belə hal qeydə alınıb. Əlbəttə, heç bir halda, media təmsilçisinə münasibətdə xoşagəlməz, nəzakətdən uzaq rəftar normal qarşılanmamalıdır.

Sonda əsas məqsəd üzərinə gələk. Üzərində dayanmaq istədiyimiz məsələ ikili stardartlardır. Bir anlıq Azərbaycanda Ermənistandakına oxşar hadisənin baş verdiyini təsəvvürə gətirək. Yəni, düşünək ki, hansısa jurnalistlə hakim Yeni Azərbaycan Partiyasının təmsilçisinin sözləri çəp gəlib. Belə bir durum yaşansaydı, təkcə “Sərhədsiz reportyorlar” deyil, digər beynəlxalq media qurumları da həngamə qoparmış, bəyanatı bəyanat dalınca sıralamışdılar. İndi Koçaryanın hərəkəti Ermənistan parlamentində müzakirəyə çıxarılacaq dərəcədə mənfi qiymətləndirilir, amma “Sərhədsiz reportyorlar” və özlərinin söz azadlığının fədailəri kimi qələmə verən təşkilatlar, necə deyərlər, ağızlarına su alıb susurlar. Sanki, Ermənistan başqa başqa planetdir. Nə bilmək olar, yəqin 34-cü “planetdir”, xəbərimiz yoxdur...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Azərbaycan və Belarus Baş nazirləri Qarabağda




**Mayın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Aleksandr Turçini Füzuli Beynəlxalq Aeroportunda qarşılayıb.**

Nazirlər Kabinetindən bildirilib ki, sonra Ə.Əsədov və A.Turçin iki ölkənin nümayəndə heyətlərinin müşayiəti ilə Ağdam Sənaye Parkına gəliblər. Hökumət başçıları sənaye parkının ərazisinə baxış keçirib, bir sıra müəssisələrin fəaliyyəti ilə tanış olublar.

Azərbaycanın Baş naziri Əli Əsədov və Belarusun Baş naziri Aleksandr Turçin Füzuli və Ağdam rayonlarına səfər çərçivəsində, həmçinin Ağdamın Sarıcalı kəndində yenidənqurma işləri barədə məlumatlandırılıblar. Bildirilib ki, Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Kənd 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə, kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.

Baş nazirlər, həmçinin Ağdam rayonunun Qızıl Kəngərli kəndinə səfər ediblər. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini Dövlətxan Dövlətxanov hökumət başçılarına bu kənddə yaradılacaq aqrar şəhərcik haqqında məlumat veriblər.

***XQ***

# Belarus Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb



**Mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçinin Azərbaycana rəsmi səfəri başa çatıb.**

Belarusun Baş naziri Aleksandr Turçini Füzuli Beynəlxalq Hava Limanında Azərbaycanın Baş naziri Əli Əsədov yola saldı.

***XQ***

# "Amerikasayağı Megobari"

**"Megobari" gürcü dilindən tərcümədə dost deməkdir. Hətta, bu söz özündə dostluğa daha özəl münasibəti ifadə edir. Amma ABŞ Konqresinin Nümayəndələr Palatasının "Megobari aktı" adlandırılmış sənədində dostluqdan əsər-əlamət yoxdur. Elə Gürcüstan tərəfinin də yanaşması fikrimizin təsdiqidir. Sözügedən akt, mahiyyətcə, nə deməkdir, əvvəlcə bu barədə söz açaq.**

*

Beləliklə, tam adı Gürcüstanın hesabatlılıq, davamlılıq və müstəqilliyini qurmaq üçün seçimlərini səfərbər etmək və genişləndirmək Aktı ("Mobilizing and Enhancing Georgia's Options for Building Accountability, Resilience, and Independence Act") olan "Megobari aktı" ABŞ Konqresinin Nümayəndələr Palatasında ilk dəfə 2024-cü ilin mayında konqresmen Co Uilyams tərəfindən təqdim olunub, lakin qəbul edilməyib. Bu ilin yanvarında isə yenə həmin Uilyams həmkarları Stiven Koen, Riçard Hanson və Mark Vizi ilə birlikdə sənədi yenidən gündəmə gətirib. Akt Konqresin müvafiq komitələrində müzakirə olunub. Senatın Xarici Əlaqələr Komitəsi qanun layihəsini martın 27-də nəzərdən keçirib. İndi isə Nümayəndələr Palatası layihəni yenidən müzakirəyə çıxaracağını açıqlayıb.

Sözügedən qanun layihəsinin 2025-ci ilin martında ABŞ Konqresinin saytında yer almış mətnində bildirilir ki, sənəd Gürcüstan Prezidentindən ölkənin təhlükəsizliyini və ya sabitliyini pozan müəyyən xarici şəxslərə, o cümlədən hökumət rəsmilərinə qarşı sanksiyaların tətbiqini tələb edir. Bir qədər ətraflı yanaşsaq, layihə, həmçinin prezidentdən Gürcüstanın təhlükəsizliyini və sabitliyini pozmağa yönəlmiş hərəkətlərdə və ya siyasətdə iştirak edən istənilən xarici şəxsə qarşı viza məhdudiyyətinin (vizanın bloklanması) tətbiqini və dövlət başçısına həmin şəxsin əmlakını müsadirə səlahiyyəti verilməsini tələb edir. Sənədə görə, sanksiya tətbiq olunan vəzifəli şəxslərin ailə üzvləri də (əgər onların hərəkətindən faydalanıblarsa) məhdudiyyətlərə məruz qalırlar.

Bundan əlavə, qanun layihəsi ölkə prezidenti qarşısında Gürcüstanda Avro-Atlantik inteqrasiyanın qarşısını almaq məqsədilə korrupsiya, zorakılıq və ya hədə-qorxu kimi ciddi əməllərdə qəsdən iştirak etdiyi müəyyənləşdirilmiş şəxslərə qarşı da viza sanksiyalarının tətbiqi tələbini müəyənləşdirir.



Söhbət hansı şəxslərdən gedir. Hesab edirik ki, maraqlı məqam həm də budur. Layihədə onların təsnifatlandırılmasında üç meyar müəyyənləşdirilib: 1 yanvar 2014-cü il tarixdən sonra Gürcüstan parlamentinin üzvü və ya Gürcüstanın aparıcı siyasi partiyasının yüksək vəzifəli rəsmisi olmuş şəxslər, hazırda Gürcüstan hökumətində rəhbər vəzifə tutanlar və onların hərəkətindən faydalanmış ailə üzvləri.

Eyni zamanda, onu da bildirək ki, "Megobari aktı"ına əsasən, bu akt qüvvəyə mindikdən sonra Gürcüstan prezidenti Beynəlxalq Fövqəladə İqtisadi Səlahiyyətlər Aktı çərçivəsində sanksiyaların mümkün tətbiqi məqsədilə hansısa xarici şəxsin ölkədə ciddi korrupsiya əməlləri törədib-törətmədiyini, ölkənin təhlükəsizliyini və ya sabitliyini pozmağa yönəlmiş hərəkətlər edib-etmədiyini müəyyənləşdirməlidir.

Bəli, layihənin Gürcüstanda prezident üsul idarəsini möhkəmləndirməyə xidmət məramı ortadadır. Məsələ ondadır ki, akt hazırlananda qonşu ölkədə ikitirəlik hökm sürürdü. Qərb o zamankı prezident Salome Zurabişvilini müdafiə edirdi. Layihənin də belə bir müdafiə məqsədindən qaynaqlandığı aydındır. Lakin indi vəziyyət fərqlidir. Zurabişvili prezidentlikdən gedib. Mövcud durumda layihənin başqa məqsədləri haqqında söz açmağa ehtiyac yaranır. Bu baxımdan "Megobari"nin "Gürcüstanda son illərdə müşahidə olunan demokratik geriləməyə və Rusiyanın artan təsirinə qarşı ABŞ-ın siyasi mövqeyi" kazusu aktuallaşır.

Əsas məqsədlər kimi, Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləmək, ölkədə demokratiya və insan haqlarını qorumaq, Rusiyanın, Çinin və İranın Gürcüstandakı təsirinə qarşı mübarizə aparmaq, habelə sonuncunun Avropa İttifaqına və NATO-ya inteqrasiyasını təşviq etmək götürülür. Bir qədər konkret desək, "Megobari aktı"nda Gürcüstanın Qərb strukturlarına üvlük arzularını yaşatmaq, Rusiyanın təcavüzünə qarşı ölkənin suverenliyini və ərazi bütövlüyünü qorumaq, Gürcüstan hökumətinin Avropa İttifaqına üzvlük istiqamətində islahat planı həyata keçirməsinin təşviqi, rəsmi Tbilisiyə Rusiyaya qarşı sanksiyalarının tətbiqi və icrası istiqamətində yardım etmək öz əksini tapıb. Sənəddə, həmçinin Gürcüstanda demokratik dəyərlərin inkişafına kömək göstərmək və bu dəyərləri pozan şəxslərə qarşı tədbirlər görmək, gürcü xalqının və vətəndaş cəmiyyətinin demokratik təşəbbüslərini, dinc etiraz və öz gələcəyini sərbəst müəyyənləşdirmək hüququnu dəstəkləmək, habelə ölkənin Daxili İşlər Nazirliyi və digər qurumlarının ifadə azadlığına və qanunun aliliyinə hörmətlə yanaşmalarının təşviqi nəzərdə tutulur.

*

Ümumiləşdirmə aparsaq, belə rəyə gələ bilərik ki, "Megobari aktı" Gürcüstanın daxili işlərini qarışmaqdan başqa bir şey deyil. Sənəd həm daxili işlərə qarışmaq, həm də ölkəni qlobal konfrantasiyalar meydanına çevirmək məqsədi güdür. Açıq desək, belə bir əndazəsiz akt Birləşmiş Ştatların qanunvericilik sistemi üçün əsl rüsvayçılıqdır. Elə ona görə də Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili qanun layihəsini "nankorluq aktı" adlandırmış və bildirmişdi ki, sənəd Gürcüstanın ABŞ-a keçmişdəki dəstəyini nəzərə almır. O, ölkəsinin Birləşmiş Ştatların yanında olduğunu və bu cür sənədlərin gürcü xalqına zərər verəcəyini vurğulamışdı. Hazırda gürcü iqtidarının təmsilçilərinin də məsələyə münasibəti cənab Papuaşvilinin fikirlərindən bir o qədər fərqlənmir. Ancaq...

*

ABŞ Konqresi Nümayəndələr Palatasının məlumatını şərh edən hakim "Gürcü Arzusu" Partiyasının liderlərindən biri, Tbilisi meri Kaxa Kaladze bildirib ki, ABŞ-dakı dərin dövlət hələ də məğlub olmayıb və köklərə malikdir. Onun sözlərinə görə, Birləşmiş Ştatlar ötən illər ərzində Gürcüstan üzrə agentlər şəbəkəsinin yaradılmasına yüz milyonlarla vəsait xərcləyib ki, lazım gəldikdə Gürcüstanda dəfələrlə həyata keçirməyə cəhd göstərdikləri dövlət çevrilişi təşkil etsinlər. Bütün bunlar USAID və müxtəlif fondlar tərəfindən maliyyələşdirilib. Dərin dövlət məğlub olmayıb. Biz ölkəmizin maraqlarını qoruyuruq. Əgər Tramp onu (köhnə sistemi – red.) məğlub edə bilsə, biz bunu alqışlayacağıq. Böyük və ya kiçik ölkə olmasından asılı olmayaraq, heç kəsə maraqlarımızı tapdalamağa və onlardan, məsələn, Ukraynadakı kimi sui-istifadəyə imkan verməyəcəyik", – deyə K.Kaladze vurğulayıb. Tbilisi meri Gürcüstanın ABŞ-la münasibətlərdə yeni mərhələnin başlayacağına ümid bəslədiyini də diqqətə çatdırıb.

Qeyd edək ki, Gürcüstanın parlament çoxluğunun digər nümayəndəsi, gürcü parlamentinin təhsil komitəsinin sədri Givi Mikanadze deyib ki, sözügedən aktın adı onun təqdimat konteksti ilə qətiyyən uyğun deyil: "Bu, qərəz xarakterli aktdır. Ümid edirik ki, sənəd ya ümumiyyətlə qəbul edilməyəcək, ya da onda haqlı dəyişikliklər aparılacaq". O əlavə edib ki, Gürcüstan əhalisi parlament seçkilərində iradəsini azad şəkildə bildirib.

Sonda bildirək ki, biz də öz növbəmizdə bilavasitə K.Kaladzenin vurğuladığı məqamın üzərində dayanmaq istərdik. Çünki ABŞ-ın əvvəlki dövlət başçısının administrasiyası elə ağlagəlməz tədbirlərə, əndazəsiz gedişlərə baş vururdu ki, heyrətlənməyə bilmirdin. Əslində, adı dostluqla bağlı olsa da, qayəsində heç bir dostluq əməlinin dayanmadığı "Megobari aktı" da belə əndrəbadi yanaşmalardan biridir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Bakıdan Dəməşqə uzanan yol

## *Yeni geosiyasi istiqamət*

**Azərbaycanın yürütdüyü çoxvektorlu xarici siyasət çərçivəsində dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına xüsusi diqqət yetirilir. Yeganə istisna hal torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistanla bağlıdır. İşğal faktı aradan qaldırıldıqdan sonra da birinci addımı Bakı atıb. Ölkəmiz xoş məram nümayiş etdirərək, İrəvana barışıq əli uzadıb.**

Bununla belə qeyd etmək lazımdır ki, Azərbaycan digər ölkələrlə münasibət qurarkən bir-birinin daxili işlərinə qarışmamaq, suverenliyə, ərazi bütövlüyünə, milli qanunvericiliyə hörmət kimi başlıca prinsipləri, habelə özünün milli maraqlarını əsas götürür. Azərbaycanın milli maraqlarını nəzərə almayan, yaxud açıq-aşkar buna qarşı çıxan Fransaya, Avropanın bəzi dövlətlərinə və regional təşkilatlarına Bakı simmetrik münasibət sərgiləyir.

Ölkəmiz İslam dünyasına daxil olan dövlətlərlə də əlaqələrə xüsusi diqqət yetirir. Xüsusilə 57 dövləti öz sıralarında birləşdirən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında İƏT-ə üzv olmaq barədə birinci müraciət edib. Biz 1991-ci il dekabrın 8-də İƏT-in Seneqalın paytaxtı Dakarda keçirilmiş İƏT dövlət və hökumət başçılarının V konfransında təşkilata tamhüquqlu üzv qəbul edilmişik.

Ölkəmiz Suriya Ərəb Respublikası ilə münasibətlərə də hər zaman böyük önəm verib. İkitərəfli münasibətlərin tarixinə baxdıqda Suriyanın Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 16-da tanıdığını görmək mümkündür. Həmin ilin martın 28-də Bakı və Dəməşq arasında diplomatik əlaqələr yaradılıb. 2011-ci ildə Suriyada vətəndaş müharibəsinin başlanmasınadək Bakı və Dəməşq arasında BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq həyata keçirilirdi. Azərbaycan donor dövlət olaraq, Suriyadakı humanitar fəlakətdən əziyyət çəkən qaçqınlara humanitar yardım edirdi. Ancaq qeyd etdiyimiz tarixdən etibarən Suriyanın ölkəmizə münasibəti pisləşməyə başladı. Halbuki, Azərbaycan bu məsələyə rəsmi olaraq neytral mövqe sərgiləyirdi.

Güman etmək olar ki, Azərbaycanın Türkiyə ilə yaxın münasibətləri amili qarşılıqlı etimadsızlıq müşahidə olunmasının, daha doğrusu, Bəşər Əsədin ölkəmizə münasibətinin pisləşməsinin əsas səbəbi idi. Azərbaycanın Türkiyə ilə "Bir millət, iki dövlət" siyasəti çərçivəsində çox sıx münasibətləri mövcuddur. Türkiyə isə Suriya münaqişəsində açıq şəkildə Əsəd rejiminə qarşı çıxan əsas aktorlardan biri idi. Bu baxımdan Əsəd üçün Türkiyənin strateji müttəfiqləri avtomatik olaraq şübhəli tərəf kimi görünə bilərdi.



Bundan əlavə, Əsəd rejimi İranla çox yaxın, Ermənistanla isə tarixən dostyana əlaqələrə malik idi. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, İranın isə sözdə bizi, əməldə hayları dəstəkləməsi Əsədin Azərbaycana qarşı balanssız yanaşmalararına gətirib çıxarmışdı.

Ancaq Suriya müxalifətinin 2024-cü il noyabrın 27-dən başlanan və dekabrın 8-də Əsəd rejiminin devrilməsi ilə sona çatan hücumu, keçid hökumətinin yaradılması, bu hökumətin Türkiyəyə müsbət münasibəti Dəməşq–Bakı əlaqələrində də yeni səhifənin açılmasına səbəb oldu.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında dekabrın 10-da aparılan telefon danışığı zamanı Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulmuş, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunmuşdu. Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə etmişdilər.

Cənab İlham Əliyev bundan sonra Ankaranın yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlanacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd etmişdi. Prezident Ərdoğan isə bütün sahələrdə olduğu kimi, Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnunluqla vurğulamışdı.

Bundan az sonra Bakı əməli addım atdı. Azərbaycan Prezidentinin göstərişinə əsasən, Suriyada humanitar böhrandan əziyyət çəkən əhaliyə yardım məqsədilə 10 yük avtomobilindən ibarət, ümumilikdə, 200 tona yaxın ərzaq və qida məhsullarının olduğu yardım karvanı Dəməşqə göndərildi.

2024-cü il dekabrın 30-da isə Xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Suriyaya səfər etdi. Bu, son 13 il ərzində Bakıdan Dəməşqə edilən yüksək səviyyəli ilk səfər idi. Bu ilin fevralında isə Azərbaycan 13 illik fasilədən sonra Suriya paytaxtındakı səfirliyinin fəaliyyətini bərpa etdi.

Bu çərçivədə Prezident İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü xüsusi vurğulanmalıdır. Dövlətimizin başçısı görüş zamanı dedi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib. Görüşlə bağlı yayılan məlumatda bir məqam da diqqəti cəlb edir. Bu da söhbət zamanı Azərbaycan–Suriya–Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunulmasıdır. Ehtimal etmək olar ki, Suriya hökumətinin ardıcıl və prinsipal mövqeyi davam edərsə, bölgədə daha bir üçtərəfli əməkdaşlıq formatı qurula bilər.

Mayın 4-də isə Dəməşqə Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti yollanıb. Ölkənin keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan nümayəndə heyətini qəbul edib. S.Şərifov səfər çərçivəsində Suriyanın iqtisadiyyat və sənaye naziri Məhəmməd Nidal əl-Şaar ilə də geniş tərkibli görüş keçirib.

Bütün bunlar Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq, Suriyada davamlı sülhün və sabitliyin bərqərar olmasını dəstəklədiyini bir daha sübuta yetirir. Eyni zamanda, Azərbaycan və Suriya arasında dostluq və əməkdaşlıq əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, siyasi, iqtisadi, mədəni və digər sahələrdə tərəfdaşlığın inkişaf etdirilməsi üçün yeni imkanların yarandığından xəbər verir. Belə səfərlər Azərbaycanın Suriyadakı keçid hökuməti ilə yaxından əməkdaşlıq edərək ikitərəfli əlaqələrin inkişafına dəstək verəcəyini göstərir. Bu, Azərbaycanın regional siyasətindəki balanslı yanaşmanı və müxtəlif tərəfdaşlarla əməkdaşlıq etmək istəyini göstərir. Eyni zamanda, bu addım, Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə sadiqliyini və sülhün təşviqinə yönəlmiş siyasətini bir daha vurğulayır.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, Azərbaycan və Suriyanın yeni hökuməti arasında münasibətlərin yeni səhifəsi başlayıb.



Onun sözlərinə görə, Azərbaycan və Suriya xalqları tarixən bir-biri ilə qonşuluqda yaşayıb və müəyyən dövrlərdə vahid geosiyasi məkanın aparıcı aktorları olublar: "Bəşər Əsəd dövründə Suriyanın Türkiyə ilə münasibətlərinin soyuqluğu fonunda Dəməşq heç bir məntiqi əsası olmadan Azərbaycanla da münasibətləri korlamış, onlar üçün heç bir önəm daşımayan Ermənistana siyasi dəstək vermişdir. Hərçənd Suriyanın son 15 ildə dövlət kimi mövcudluğu sual altında idi. Əsədin ölkədən qaçmasından, Suriyada keçid hökumətinin yaradılmasından iki ölkə arasında əlaqələrinin bərpası və dərinləşdirilməsi gündəmdədir".

Z.Məmmədov qeyd etdi ki, tərəflər arasında münasibətlərdə bir neçə komponent üzrə işlər aparıla bilər:

**1.Diplomatik**

Səfirliklərin yenidən aktivləşdirilməsi və diplomatik missiyaların genişləndirilməsi. BMT, İƏT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq.

**2. İqtisadi**

Azərbaycan şirkətləri Suriyanın bərpasında iştirak edə bilər. Bura tikinti, infrastruktur və enerji sahələri aiddir. Kənd təsərrüfatı sektorunda da əməkdaşlığın perspektivləri var. Bu baxımdan yaxın gələcəkdə birgə biznes-forumların təşkili istisna deyil.

**3. Enerji və logistika**

Enerji infrastrukturunun bərpasına yardım (elektrik, qaz təchizatı). Azərbaycan–Türkiyə–Suriya nəqliyyat dəhlizinin yaradılması. Dəniz limanları vasitəsilə yüklərin tranziti (Bakı–Latakiya xətti).

**4. Humanitar və təhsil sahəsində**

Suriyalı tələbələrin Azərbaycan universitetlərində təhsil alması. Azərbaycanın Suriyada humanitar layihələrdə iştirakı (xüsusilə su, səhiyyə, təhsil sahələrində). Mədəniyyət və İslam həmrəyliyi kontekstində ortaq layihələr.

**5. Geosiyasi faktorlar, imkanlar və risklər.**

Azərbaycan–Suriya əlaqələri İsrail–Türkiyə və İsrail–İran gərginliyi fonunda xüsusi siyasi məna daşıyır. Bu kontekstdə tərəflərin maraqları, regional qüvvələr balansı, geosiyasi dinamika vacibdir. Azərbaycan–Suriya münasibətləri İsrail–Türkiyə və İsrail–İran gərginliyi kontekstində qlobal və regional siyasətin mürəkkəb şaxələrini əks etdirir. Bakı bu mürəkkəb geosiyasi mühitdə balanslı və praqmatik siyasət aparmaqla həm öz milli maraqlarını qoruyur, həm də yeni diplomatik və iqtisadi fürsətlər yaradır.

Z.Məmmədov bildirdi ki, bu gün münasibətlərin inkişafı üçün yaranan yeni fürsətin həm də tarixi və mənəvi əsasları var. Azərbaycan klassik ədəbiyyatının tanınmış simaları – Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və başqaları ərəb-İslam dünyasının, o cümlədən Suriyanın elmi-ədəbi dairələrində tanınırdılar və hazırda da tanınmaqdadırlar. Onların əsərləri Şam, Bağdad, Hələb və Qahirədə yayılmış, yaradıcılıqları elmi-fəlsəfi mühitə təsir göstərmişdir. Bütün bu məqamları ümumiləşdirərək deyə bilərik ki, bu gün də müasir Azərbaycan Suriyanın inkişafında özünəməxsus yer tuta bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Milli Məclisin Sədri Birləşmiş Ərəb Əmirliklərində



**Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində mayın 6-da bu ölkənin Federal Milli Şurasının sədri Saqr Qobaş ilə görüşüb.**

Görüşdə Saqr Qobaş bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə töhfə verəcəyinə inamını ifadə edib. O, ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına əhəmiyyət verdiyini qeyd edərək, xüsusilə iqtisadi əməkdaşlıq sahəsində əldə olunan nəticələrdən razılığını ifadə edib.

Bu səfərin onun Milli Məclisin Sədri kimi Birləşmiş Ərəb Əmirliklərinə ilk səfəri olduğunu deyən Sahibə Qafarova qeyd edib ki, ölkələrimizi tarixi, dini və mədəni köklər birləşdirir və ikitərəfli əlaqələrimiz qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək mühitində inkişaf edib. Görüşdə münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində ölkələrimizin liderlərinin birgə səylərinin, həmçinin yüksək səviyyəli qarşılıqlı səfərlərin xüsusi əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri barədə də fikirlər ifadə olunub. Milli Məclisin Sədri Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi barədə məlumat verib. O, BƏƏ parlamentinin təmsilçilərinin Parlament Şəbəkəsinin tədbirlərində iştirakından məmnunluğunu bildirib.

Görüşdə qanunverici orqanlarımız arasında da iki ölkə münasibətlərinin ruhuna uyğun uğurlu əlaqələrin qurulduğu qeyd olunaraq vurğulanıb ki, həm qarşılıqlı əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq bu sahədə müsbət nəticələrin əldə olunmasını şərtləndirib.

*

**Milli Məclisin Sədri Sahibə Qafarovanın Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri davam edir. Səfər çərçivəsində mayın 6-da bu ölkənin Federal Milli Şurasında keçirilən görüşdən sonra tərəflər arasında Anlaşma Memorandumu imzalanıb.**

Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında Anlaşma Memorandumunu iki ölkənin spikerləri – Sahibə Qafarova və Saqr Qobaş imzalayıblar.

Qeyd olunub ki, bu sənəd tərəflər arasında birgə işi – koordinasiya və parlament təcrübəsi mübadiləsini daha da artırmağa imkan verəcək, əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Əbu-Dabidə Şeyx Zayed məscid kompleksini ziyarət edib.**

Burada qonaqlara məlumat verilib ki, ölkənin ən böyük məscidi olan bu məscid Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Əl Nəhyanın təşəbbüsü ilə inşa edilib. Cümə və bayram namazlarında buraya gələnlərin sayı 40 min nəfərə çatır.

Məscidlə tanışlıqdan sonra Sahibə Qafarova məscidin xatirə kitabına ürək sözlərini yazıb.

***XQ***

# Hikmət Hacıyev media subyektlərinin rəhbərləri ilə görüşüb



**Mayın 6-da Medianın İnkişafı Agentliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi–Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin rəhbərliyi ilə görüş keçirilib.**

Agentlikdən bildiriblər ki, görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru, Müşahidə Şurasının üzvləri, televiziya kanallarının, informasiya agentliklərinin, bir sıra aparıcı çap və onlayn media subyektlərinin rəhbərləri iştirak ediblər.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində bu gün media Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. O medianın ictimai-siyasi və mədəni həyatdakı yerinə, mədəniyyətin, maarifçiliyin inkişafında roluna diqqət çəkərək bundan sonrakı mərhələdə də eyni funksiyaları yeni dövrün tələblərinə uyğun qurmalı olduğunu qeyd edib, rəqəmsal transformasiya şəraitində informasiya təhlükəsizliyinin əhəmiyyətini vurğulayıb, dövlət-media münasibətləri, medianın aktual məsələləri barədə fikirlərini bölüşüb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov isə Agentliyin fəaliyyət istiqamətlərindən, həyata keçirilən tədbirlərdən, media sahəsində aparılan islahatların nəticələrindən və sahənin inkişaf perspektivlərindən danışıb.

Müzakirələr zamanı qeyd olunub ki, Milli Mətbuatın 150 illiyi çərçivəsində müxtəlif beynəlxalq və yerli səviyyəli tədbirlərin təşkili, tanınmış xarici media subyektlərinin tərəfdaşlığı ilə inkişaf proqramlarının həyata keçirilməsi, habelə Azərbaycan mətbuatının tarixini və bu gününü təcəssüm etdirən, bu istiqamətdə cəmiyyətin məlumatlandırılmasına yönəlmiş digər layihələrin icrası planlaşdırılır.

Görüşdə media rəhbərlərinin təklifləri dinlənilib, media sahəsinin gələcək inkişafı və müasir çağırışlar barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

***XQ***

# Bakıda "Rabat xalça sənəti" sərgisi



**Azərbaycan Milli Xalça Muzeyində "Xalçaçı günü" peşə bayramı münasibətilə "Rabat xalça sənəti" immersiv sərgisi açılıb.**

Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi, Rabat Mədəni İrsinin Qorunması Fondunun prezidenti Lalla Hasnaa iştirak ediblər.



Tədbir Heydər Əliyev Fondu, Rabat Mədəni İrsinin Qorunması Fondu, Azərbaycanın Mədəniyyət Nazirliyi, Mərakeş Krallığının ölkəmizdəki səfirliyi, Azərbaycan Milli Xalça Muzeyi, Mərakeş Sənətkarlıq Evi və Mərakeş Milli Muzeylər Fondunun təşkilatçılığı ilə keçirilib.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova xalça sənətinin təkcə Azərbaycan üçün deyil, eyni zamanda, dünya mədəni irsinə böyük töhfə olduğunu deyib. 2016-cı ildən Prezident İlham Əliyevin Sərəncamı ilə mayın 5-nin ölkəmizdə "Xalçaçı günü" peşə bayramı kimi qeyd edildiyini vurğulayıb. "Azərbaycanın ənənəvi xalçaçılıq sənəti"nin 2010-cu ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildiyi qonaqların diqqətinə çatdırılıb.

Bədii hissədə "Pəri xanımın sehrli nağılı" animasiya filmi nümayiş olunub, Xalq artisti Faiq Sücəddinovun Xalq rəssamı Eldar Mikayılzadənin sözlərinə bəstələdiyi "Sevərək toxu!" adlı yeni mahnısı ifa edilib.

Sonra sərginin açılışı olub.

Burada Rabat xalçasının möhtəşəmliyi fiziki və rəqəmsal sərgi təcrübəsini birləşdirən immersiv və vizual cəhətdən maraqlı bir ssenari vasitəsilə təqdim edilib. Sərgidə bədii fotolar, qrafik illüstrasiyalar və XX əsrə aid orijinal Rabat xalçası, həmçinin Azərbaycanın XX əsrin əvvəllərində Qazax xalçaçılıq mərkəzinə aid xalça təqdim olunur. Bu eksponatlar iki qədim tekstil ənənəsi arasındakı əlaqəni nümayiş etdirir.

Tədbirdə muzeyin Ənənəvi texnologiya şöbəsində toxunan "Nəqşicahan" xalçasının qədim ənənələrə uyğun hanadan kəsimi mərasimi də keçirilib, xalçaçılara həsr edilmiş rəsm əsərlərindən ibarət videoçarx nümayiş olunub. Sərgi mayın 10-dək davam edəcək.



Daha sonra qonaqlar Azərbaycan Milli Xalça Muzeyi ilə tanış oldular.

***XQ***

**Xuntaçıların məhkəməsi**

# Şahid ifadələri ittihamları təsdiqləyir



**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi mayın 6-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesinə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib, onları məhkəmə tərkibi, tərcüməçilər, katiblər, dövlət ittihamçıları və digərləri ilə tanış edib.

Sonra təqsirləndirilən Ruben Vardanyanın vəkili Avraam Berman müraciət edərək 2025-ci il 6 fevral tarixli iclasın protokolu ilə tanış olduqları zaman məhkəmə kollegiyasına etiraz etmək üçün əsaslar müəyyənləşdirdiklərini bildirib. Müdafiəçi qeyd edib ki, məhkəmə iclas protokolunda müdafiə tərəfinin vəsatətlərinə münasibət bildirilməyib və bu, bizdə məhkəmə kollegiyasının iş üzrə obyektiv, qərəzsiz olmayacağı barədə əsaslı şübhələr doğurur. Ona görə də vəkil məhkəmə kollegiyasına etiraz edib.

Təqsirləndirilən Ruben Vardanyan etirazı müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev etiraza münasibət bildirərək deyib ki, müdafiə tərəfinin məhkəmə iclas protokollarında yazıların düzgünlüyü və tamlığı barədə qeydlərini vermək hüququ var. Məhkəmə iclas protokolunda hər hansı xüsusatın qeyd olunmaması məhkəmə kollegiyasına etiraz üçün əsas hesab edilmir. O, həmçinin vurğulayıb ki, müdafiə tərəfi eyni qaydadan, eyni üsuldan istifadə etməklə qeyri-müəyyən səbəbdən verdiyi etirazlarla məhkəmə prosesinin uzadılmasına nail olmaq istəyir.

Qeyd olunanlar nəzərə alınmaqla Vüsal Əliyev etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş edib.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər.

Məhkəmə vəsatətə baxmaq üçün müşavirəyə gedib.

Müşavirədən sonra müdafiə tərəfinin etirazına dair məhkəmə qərarı elan edilib. Qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

İclasa sədrlik edən Zeynal Ağayev qərarı əsaslandıran zaman vurğulayıb ki, müdafiə tərəfi Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə əsasən, işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret dəlillər təqdim etməyib.

Sonra zərərçəkənlər ifadə veriblər.

Zərərçəkmiş Mahir Hüseynov deyib ki, o, Ağdərə rayonunun Sırxavənd kəndi ərazisində yerləşən Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılan artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralanıb. Dövlət ittihamçıları Fuad Musayev və Təranə Məmmədovanın suallarına cavabında zərərçəkmiş şəxs bildirib ki, həmin vaxt erməni hərbçilər mövqelərimizi mütəmadi olaraq atəşə tutub, eyni zamanda, ərazilərimizi minalayıb. Ermənistanın Azərbaycana qarşı mina terroru davam edib. Bəzən həmin minalar təminat yollarında aşkarlanıb.

Digər zərərçəkmiş şəxs Mədət Rzayev Laçın rayonunda xidməti fəaliyyətini icra edən zaman ağır xəsarət aldığını diqqətə çatdırıb. "Biz yüksəkliyin arxasında olduğumuz üçün onları tam görə bilmirdik. Amma onlar ağır artilleriyadan istifadə edərək bizim təminat yollarımızı vururdular", - deyə o əlavə edib.

Zərərçəkmiş Mehman Həsənov Ağdamın Mollalar kəndində yaralandığını bildirib. O, ifadəsində qeyd edib ki, həmin gün kənd ərazisində yol inşasının həyata keçirilməsi məqsədilə qazıntı və quruculuq işləri ilə məşğul imiş. Bu zaman atəş səsləri eşidib. Təxminən 80 metr aralıya düşmüş mərmi nəticəsində sağ diz nahiyəsindən xəsarətlər alıb. Ətrafda olan insanların köməyi ilə Ağdam Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Zərərçəkmiş Seymur Qarayev deyib ki, Ağdamın Papravənd kəndi istiqamətindən Ağdərə rayonunun Canyataq kəndi istiqamətində gedən döyüş əməliyyatları zamanı Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan minaatan mərmisinin onun yaxınlığına düşərək partlaması nəticəsində kəllə-beyin travması alıb.



Zərərçəkmiş Sadiq Baxiyev ifadəsində Ermənistan hərbçilərinin növbəti təxribatı nəticəsində ağır xəsarət aldığını bildirib. Həmin hadisə nəticəsində onunla birlikdə olan hərbçi yoldaşları şəhid olub və ya yaralanıb. O deyib ki, özü düşmənin snayperlə açdığı atəş nəticəsində yaralanıb.

Zərərçəkmiş şəxs qismində tanınan Cəsarət Həsənzadə ifadəsində diqqətə çatdırıb ki, Ağdərə rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış "FAQOT" tipli tankəleyhinə idarəolunan raket mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və yanındakı xidmət yoldaşı - gizir Akif Koroğluyev xəsarətlər alıblar.

"Yaralandığım vaxt və həmin ərazidə, həmçinin digər xidmət yoldaşlarım - əsgərlər Hüseyn Babayev və Amin Ələsgərov xəsarətlər alıblar, qrup komandiri Füzuli Məmmədov isə şəhid olub", - deyə o əlavə edib.

Zərərçəkmiş Həsən Quliyev qeyd edib ki, Ağdamın Sırxavənd kəndi istiqamətində yaralanıb. O, kəllə-beyin travması və ayağından xəsarət alıb.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası mayın 13-nə təyin olunub.

***XQ***

# *Heydər Əliyev:*
# “Mən siyasəti seçmədim, tale məni siyasətə gətirdi”

## *Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə “Azerbaijan İnternational” jurnalına müsahibəsi*

**“Azerbaijan International” jurnalının baş redaktoru Betti Bleyerin 1994-cü ildə ümummilli lider Heydər Əliyevdən aldığı müsahibə elə həmin ildə jurnalda ingilis dilində oxuculara təqdim edilmişdir. Müsahibənin aktuallığını nəzərə alaraq ingiliscədən Azərbaycan dilinə tərcüməsini ilk dəfə qəzetimizdə dərc edirik.**

**Betti Bleyer: – Cənab Əliyev,** ***mümkünsə, sizin şəxsi həyatınızın bəzi tərəfləri ilə maraqlanmaq istəyirəm. Mən dövlətlə heç bir əlaqəsi olmayan, siyasi və iqtisadi məsələlərdən bəhs etməyən bir neçə sual vermək istərdim.***

**Heydər Əliyev**: – Əlbəttə, buyurun!

***– İş fəaliyyətinizin çox hissəsini Rusiyada keçiribsiniz, əksəriyyət – hamı sizin rus dilində son dərəcə yaxşı danışdığınızı düşünür. Bununla yanaşı, azərbaycanlıların əksəriyyəti sizin Azərbaycan dilində danışıq qabiliyyətinizlə onları necə heyrətləndirdiyinizi mənə deyiblər. Dilləri belə daha tez və mükəmməl öyrənmək təcrübələriniz hardandır?***

– Azərbaycan dili mənim doğma dilimdir. Naxçıvanda orta məktəb illərində rus dilini öyrəndim. O zaman rus dilini cəmi bir neçə nəfər bilirdi. On altı yaşımda Bakıya gəldim və memar olmaq istədim. Lakin universitetə gedəndə mənə dedilər ki, bütün mühazirələr rus dilində olacaq. Sonralar Moskvada və Sankt-Peterburqda təhsil aldım. Həyatımın qalan hissəsi rus dili ilə əlaqəli olmuşdur. Mənim həyat yoldaşım da rusca təhsil almışdı və biz evdə birlikdə rus dilində danışırdıq.

***– Bəs, Azərbaycan dili haqqında nə deyə bilərsiniz?***

– Xoşbəxtlikdən gəncliyimdə Azərbaycan ədəbi dilini öyrəndim. Azərbaycanca danışan kimsənin olmadığı Moskvada on il yaşamağıma baxmayaraq, Azərbaycan dilini heç vaxt unutmamışam. Azərbaycan dilini heç vaxt unutmadım. Burada – Azərbaycana 14 il rəhbərlik etdim, məhz buna görə də bəzən rusca fikirləşirəm və Azərbaycanca danışıram. Başqa vaxtlarda bu əksinə olur, mən Azərbaycanca fikirləşirəm, lakin rus dilində danışıram.

***– 1993-cü il oktyabrın 2-də Prezident seçkisi qabağı nitqinizi beynəlxalq müşahidəçilərə siz özünüz Azərbaycan və rus dilində tərcümə etdiniz. Hər ikisinin, Azərbaycan və rus dilinin ingiliscə tərcüməsi ideyaların ardıcıllığı və şərhi də daxil olmaqla bir-birinə son dərəcə çox yaxın idi.***

– Çıxışımın əvvəlində başa düşdüm ki, rus tərcüməçisi yaxşı tərcümə etmir, beləliklə, mən özüm tərcümə etməyə qərar verdim. Siz gördünüz ki, mən iki saat – bir saat Azərbaycan və bir saat rus dilində fasilə vermədən danışdım. Mən heç bir qeyddən istifadə etmədim və fikirlərimin ardıcıllığını itirmədim. Bu, mənim üçün o qədər qeyri-adi deyildir. Oğlum mənə dedi ki, çox az adam bunu edə bilər. Bu, onun fikridir.

Siz haqlısınız, kifayət qədər çox azərbaycanlı Azərbaycan dilində yaxşı danışmır. Çoxları ədəbi dildən necə istifadə etməyi bilmir, onlar çox sadə – pis tələffüzlə və düzgün olmayan ifadəylə danışırlar.

Mən Moskvada yaşayanda ruslar deyərdi: “Heydər Əliyev rus dilini ruslardan daha yaxşı danışır!” Mən Kremldə və televiziyada nitq söyləyirdim. Hər yerdə insanlar çıxışlarımı televiziyadan izləyirdi. Hətta 1983-cü ildə “Taym maqazin” (“Time Magazine”) şəklimi də dərc etməklə mənim haqqımda bir məqalə vermişdi. Məqalədə yazılmışdı: “Heydər Əliyev müsəlmandır, ancaq o, Rusiyada rusların çoxundan rus dilində daha yaxşı danışır”.

***– Mən bilirəm ki, Azərbaycan dilinin burada, Azərbaycanda ana dili kimi yaşadılmasında sizin, həqiqətən, xidmətiniz olub.***

– Bəli, 1978-ci ildə Azərbaycan yeni Konstitusiya qəbul etdi. Konstitusiyada Azərbaycan dili haqqında mühüm bir maddə vardı – Azərbaycanın rəsmi dövlət dili Azərbaycan dilidir. Mən bu maddənin yazıldığı Konstitusiyanın qəbul edilməsinə cavabdeh idim. Başqa respublikalarda bu kimi hal mövcud deyildi. Məsələn, Ukraynanı götürün, o vaxt belə bir maddəni yazmaq asan deyildi, ancaq mən buna nail oldum.



***– Naxçıvanda böyümüsünüz. Mən bilmək istəyirəm ki, Naxçıvan sizin inkişafınıza hansı töhfələr verib və sizin bir şəxsiyyət kimi formalaşmağınıza necə təsir göstərib?***

– Naxçıvanın mənim həyatıma böyük təsiri olmuşdur. Mən bütün gəncliyimi orada keçirdim. Orta məktəbi orada bitirdim. Mənim çox yaxşı müəllimlərim var idi. Ciddi müəllimlər idilər. Naxçıvanda çox yaxşı təhsil aldım. Mən orada teatra çox gedərdim – Naxçıvanda əla teatr vardı. Naxçıvan qədim sivilizasiyaya, çoxlu tarixi hadisələrə və tarixi ənənəyə malikdir. Bu mühitdə tərbiyə olundum və məni zənginləşdirən də, həmin mühit oldu. Digər tərəfdən, mən orada çox çətin həyat yaşadım. Atam dəmir yolu işçisi idi. Bizim ailəmiz böyük idi. Biz beş qardaş və üç bacı idik, atamın qazancı az idi. Biz çətinlik içərisində böyüdük. Ancaq mən çox yaxşı təhsil aldım. Mən həyatımdan məmnun və xoşbəxt idim. Atam 1942-ci ildə vəfat etdi. Anam çox ağıllı qadın idi, mən deyərdim ki, o, Tanrı tərəfindən verilmiş bir müdrikliyə malik idi və hamımızın çox yaxşı təhsil alması üçün gərgin işlədi. Biz hamımız alim və professor olduq. Bir qardaşım rəssam idi. Və ondan sonra mənəm. Professor olmayan təkcə mənəm.

Naxçıvan mənim həyatımda böyük rol oynadı. Moskvada yaşamaq mənim üçün mümkün olmadığı dövrdə, 1990-cı ildə ikinci dəfə Naxçıvana qayıtdım. Əvvəl Bakıya gəlmişdim, ancaq Bakıda yaşamağıma icazə vermədilər. Beləliklə, mən Naxçıvana qayıtdım və orada hamı məni doğma oğul kimi bağrına basdı.

***– Sizdən həyat yoldaşınız haqqında soruşmaq istəyirəm. O, necə insan idi və sizin həyatınıza necə təsir etdi?***

– Mən onu hədsiz dərəcədə çox sevirdim. O, ixtisasca göz həkimi, çox gözəl insan idi. O, yaxşı ailədə böyümüş çox ağıllı qadın idi. Onun atası da professor idi. O, gözəl xarakterə malik, ağıllı və mədəni idi. 1985-ci ildə Moskvada vəfat etdi. Bu, mənə böyük bir zərbə idi və çox dərindən təsirləndim. Onu itirmək mənim üçün böyük faciə idi.

***– Siz əksəriyyət üçün necə xatırlanmaq istəyərdiniz?***

– Mən hər iki sahəyə – mədəniyyətə və iqtisadiyyata verdiyim töhfələrin xatırlanmağını istəyərdim, nəyin xatırlanmasını xüsusi deyə bilmərəm. Mən burada – Bakıdakı müasir binaların çoxunu tikmək üçün icazə almağa cavabdeh idim. Məsələn, bu Prezident Aparatının binası və Parlament binası. Həmçinin o mehmanxanalar – Azərbaycan və Abşeron mehmanxanaları. Bakının fabriklərinin çoxu mənim hakimiyyətdə olduğum dövrdə tikildi.



***– Beləliklə, siz, nəhayət, memar olmağı həqiqətən bacardınız!***

– Bəli, memar kimi deyil, ancaq Respublikanın rəhbəri kimi.

***– Əgər siz siyasətlə məşğul olmasaydınız, hansı peşəni seçərdiniz?***

– Həqiqətən, mən memar olmağı planlaşdırırdım. Memar olmağı çox sevirdim. Mən özüm siyasəti seçmədim. Tale məni siyasətə gətirdi. Həyatda təkcə bir şeyi seçdim. Mən on altı yaşımda memar olmaq istədim. Baş vermiş qalan bütün hadisələrin hamısını tale müəyyən etdi. Mən heç vaxt işlədiyim vəzifələrin heç birini özüm seçmədim. Məsələn, Dövlət Təhlükəsizlik Komitəsində işlədim. General oldum. Mən bunu özüm seçmədim. Tale ora məni apardı. 1969-cu ildə mən Azərbaycanın rəhbəri olmağı düşünmürdüm, ancaq onlar məndən bunu xahiş etdi. O zaman mən hərbi general idim və sonra respublikanın rəhbəri oldum. Sonra məni Moskvaya Baş nazirin birinci müavini vəzifəsinə dəvət etdilər və oraya getdim. Sonra orada işləmək mümkün olmadı, mən işimdən imtina etdim. 1987-ci ildə istefaya çıxdım. Amma yenidən xalq məni prezident olmağa dəvət etdi. Mən prezident olmaq istəmirdim. Xalq məndən bunu xahiş etdi.

***– Ancaq tarixi baxımdan siz hər iki – Sovet sistemində və indiki müstəqillik dövründə ölkənizin dövlət başçısı məsuliyyətini öz üzərinə götürən dünyada çox nadir insanlardan birisiniz. Prezident nöqteyi-nəzərindən bu sistemlərin arasında hansı əsas fərqləri görürsünüz?***

– 70 il ərzində Azərbaycan Marksizm–Leninizm ideologiyasının çox yaxşı təbliğ olunduğu, hökumətin iqtisadiyyat, Kommunist Partiyası qaydaları, vətəndaşlar üzərində fərdi və toplum halda ciddi nəzarəti mərkəzləşdirilmiş qaydada həyata keçirən Kommunist rejiminin idarəçiliyi altında yaşamışdır. Azərbaycanda demokratiyaya və açıq cəmiyyətə doğru bugünkü keçid prosesi isə çox mürəkkəb və unikaldır.

İcazə verin, hökumətin və hakimiyyətin əvvəlki təcrübələrinin bəzilərini bizim indi üzərində işlədiyimiz, nailiyyət əldə etmək üçün cəhd etdiyimiz yeni üsullarla - demokratik cəmiyyət və azad bazar iqtisadiyyatı modeli ilə müqayisə edim. Təcrübə göstərir ki, belə bir dəyişiklik üçün əsas ünsürlər, hökumətə plüralist yanaşma olmalıdır. Demokratik təsisatlar və insan azadlığı gücləndirilməlidir və biz bazar iqtisadiyyatına keçməliyik.

İndiki dövrdə Azərbaycanda 40-dan çox fəal siyasi partiya var. Cürbəcür dövri mətbu orqanlar və 600-dən çox siyasi qəzet nəşr edilir. Özəl sektor və fərdi şəxslər ölkənin sosial-iqtisadi və siyasi gələcəyini formalaşdırmaqda daha böyük rol oynamağa başlayırlar. Mənim fikrimcə, bunların hamısı bizim cəmiyyətimiz üçün sağlam yeni modeli, düzgün yolla qurmağa töhfə verir.

***– Bu iki sistemin arasında keçid mərhələsini yaşayan Azərbaycan hansı ən böyük problemlərlə üzləşir?***

– Kommunist dövründən sonrakı yenidənqurma çox mürəkkəb prosesdir. Bizim resurslarımızın böyük bir hissəsinin müstəqiliyimizin qorunub saxlanılmasına və erməni təcavüzünə qarşı ərazi bütövlüyümüzün müdafiəsinə həsr olunması vəziyyətimizi daha da mürəkkəbləşdirmişdir. Keçid dövrü – zəruri təkamül prosesidir. Ancaq bizim ölkəmizə üstünlüklər verən çox unikal faktorlarımız var. Hər şeydən əvvəl, bizim coğrafiyamıza baxın. Allah bizim ölkəmizə hədsiz dərəcədə zəngin təbii ehtiyatlar bəxş edib. Bundan başqa, bizim güclü, texnologiyanı mənimsəmiş işçi qüvvəmiz var. Neftdən başqa, həmçinin bizim kənd təsərrüfatı sənayemiz demək olar ki, inkişaf etdirilir.

Tarixi nöqteyi-nəzərdən danışsaq, demokratiya ideyası bizim üçün yeni deyildir. Azərbaycanda demokratiyanın, parlamentarizmin ənənəvi tarixi var. Biz müsəlman dövlətlərinin tarixində ilk dəfə Azərbaycan Demokratik Respublikasını – Xalq Cumhuriyyətini (1918-1920) yaratmışıq. O zaman ilk parlamentdə 10-dan artıq siyasi partiya təmsil olunub.

Başqa sözlə, bizim siyasi tariximiz idarəetmənin sivil formalarına əsla yad olmamışdır. Bir halda ki, bizim bu modelimiz var, xüsusilə indiki şəraitdə xalqımızın ehtiyaclarına həssas yanaşaraq, siyasi plüralizm ilə müşayiət edilən, tarixən vətəndaş konsepsiyasına əsaslanmış bu dəyərləri bərpa etməyi əsas məqsədimiz və vəzifəmiz hesab edirik.

***– Hər kəs neft müqavilələrinin imzalanmasını səbirsizliklə gözləyir. Azərbaycan tərəfinin, ölkənin gələcəyinə böyük təsir göstərəcək bu sənədlərin layihəsinin hazırlanmasında qarşılaşdığı çətinliklər hansılardır?***

– Neft müqavilələri haqqında bizim mövqeyimiz belədir: biz bütün tərəflərə qarşılıqlı xeyir verən yanaşma tərzini dəstəkləyirik. Bütün tərəflərin maraqlarına zəmanət verəcək birgə yanaşma prinsipinə nail olmaq lazımdır. Bu müqavilələrə hamı üçün qarşılıqlı xeyir verən, düzgünlüyün və əməkdaşlığın əsasında nail olunmalıdır.

Azərbaycan hökuməti dünyanın nəhəng neft korporasiyaları ilə müqavilələrimizin nəticəsində ölkəmizin məqsədlərinə nail olmasını səbirsizliklə gözləyir. Biz ölkəmizin iqtisadi müstəqilliyini gücləndirmək istəyirik. Biz vətəndaşlarımızın həyat səviyyəsini yüksəltmək istəyirik. Biz insanlarımıza güclü özünümüdafiə, sərbəstlik və daha yaxşı ali təhsilə nail olmaları üçün şərait yaratmaq istəyirik. Mən Amerika Birləşmiş Ştatları və digər Qərb ölkələrinin neft şirkətləri ilə əməkdaşlığımızın siyasi, iqtisadi, elmi və mədəni sahələrdə də digər layihələrin reallaşdırılması və gələcəkdə yaxın əlaqələrimizin inkişafı ilə nəticələnəcəyinə ümid edirəm. Mənim hər iki tərəf üçün bu əməkdaşlığın xeyirli nəticə verəcəyinə böyük ümidlərim var.

***– Neft müqavilələrinin imzalanması regional problemlərə necə təsir göstərəcək?***

– Mən əminəm ki, bu müqavilələrin nəticəsi bizə iqtisadi müstəqilliyi gətirməklə bərabər, hər iki – həm regional, həm də beynəlxalq aləmdə bir daha siyasi vəziyyəti möhkəmləndirəcək, Azərbaycana kömək edəcək.

Şərq və Qərb arasındakı gərginliklər köhnə sovet sisteminin, “soyuq müharibə”nin sonu, “soyuq müharibə”nin və silahların son bazasının dağılması ilə xeyli zəifləşmişdir. Bu dəyişikliklər bəzi millətlərin yenidən müstəqillik əldə etməsinə gətirib çıxarmışdır. Baxmayaraq ki, bu dəyişikliklər ilə çoxlu köhnə problem və münaqişələr yox olmuşdur, indi dünyada sülh və sivilizasiyanın bərqərar olmasına, xüsusilə təsir baxımından köhnə problemlərdən heç də az əhəmiyyəti olmayan potensial təhlükəli problemlər var.

***– Azərbaycanın üzləşdiyi problemlə bağlı dünya ilə hansı məsələni paylaşmaq istəyirsiniz?***

– Biz minilliyin astanasındayıq, lakin təəssüf ki, biz hələ də təcavüzkar millətçiliyin, etnik təmizləmənin və dini konfliktlərin qorxunc problemləri ilə məşğul oluruq. Bizim yeni müstəqil respublikamız qonşu ölkənin (təcavüzkar Ermənistan Respublikasını nəzərdə tutur - S.A.) qeyri-insani təcavüzünün qurbanı olmuşdur.

Bu problemlər, həqiqətən, dünya birlikləri tərəfindən müzakirə edilməlidir. Nüfuzlu və güclü ölkələr – ABŞ və başqa sənayeləşdirilmiş Qərb dövlətləri bu münaqişələrin həll edilməsinə və regionda davamlı sülhə və sabitliyə nail olmağa kömək etməkdə gərək aparıcı rol oynasınlar.

Birləşmiş Millətlər Təşkilatının (BMT) çiyinlərində bütün tərəflərin maraqlarını nəzərə alan beynəlxalq hüquq normaları çərçivəsində təsdiq və qəbul etdiyi qərarın praktik həyata keçirilməsi kimi ağır yük var.

***– İndi çox gecdir, demək olar ki, gecə saat 2-dir. Sizinlə görüşmək üçün mənə şərait yaratdığınıza və vaxt ayırdığınıza görə minnətdarlıq edirəm. Mən, həqiqətən, bilmirəm ki, siz bu qədər gec, gecə yarısında bu cür gərgin iş qrafiki ilə necə işləyirsiniz?***

– Mən həmişə belə işləyirəm. Ötən 50 il ərzində, mən bu cür işləmişəm, təxminən səhər saat 10-11 arasında işə gəlir, bir dəfə axşam saat 7 ərəfəsində nahar fasiləsi götürür və yenidən gecə yarısına, saat 2, yaxud 3-ə qədər işləyirəm. Həqiqətən, bu iş qrafikini necə tənzimlədiyimi də bilmirəm. Görünür, hər halda bu həmişə belə də olmalıdı.

Ancaq mən də sizə Azərbaycana gəldiyiniz üçün təşəkkür edirəm. Azərbaycanın qapısı həmişə üzünüzə açıqdır. Mən ümid edirəm ki, siz burada müşahidə etdiklərinizi, özünüz üçün yazdığınız qeydlərinizi Amerikaya və bütün dünyaya çatdıracaqsınız.

**İngilis dilindən tərcümə etdi:**
**Süsənbər AĞAMALIYEVA,**
**Naxçıvan Dövlət Universiteti Tərcümə Mərkəzinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru**

# Heydər Əliyev: şəxsiyyət və lider



II MƏQALƏ

## Biliklərin balanslaşması

Liderlikdə bu mərhələ tarix, cəmiyyət, mənəviyyat, mədəniyyət, adət-ənənə haqqında dərin biliklərə malik olmaq və onu praktiki fəaliyyətdə nəzərə almaq mərhələsindən sonra başlayır. Politologiyada böyük liderliyin mühüm şərtlərindən biri bu özəlliklə bağlıdır. Onun siyasi mənası sadədir.

Çünki lider keçmiş haqqında malik olduğu bilikləri mütləq müasirlik və gələcəklə əlaqələndirməlidir. Əks halda lider daim keçmişdə qalmış olur. Keçmiş haqqında biliyin müasirlik konteksti isə mütləq şəkildə bilikləri məntiqi və məzmunca balanlaşdırmaqdan, yəni onlar arasında elə münasibət sistemi qurmaqdan ibarətdir ki, gələcək fəaliyyət üçün ideya müəyyən etmək mümkün olsun. Bu, o dərəcədə incə məqamdır ki, liderin böyüklüyünü belə ifadə edir. Siyasi liderlərin təcrübəsi göstərir ki, bu məsələdə düzgün nisbət tapılmasa, ən faydalı ideya belə reallaşa bilmir.

1991-ci ildən 1993-cü ilin iyun ayına qədər olan müddətdə Azərbaycan belə bir uğursuzluq məqamını yaşadı. O dönəmdə Azərbaycana başçılıq edənlər keçmiş haqqında bilikləri müasir dövrün tələblərinə uyğunlaşdıra bilmədilər və nəticədə gələcəyin nə ideyası, nə də obrazı siyasi şüurlarda yaranmadı. Heydər Əliyev isə keçmiş haqqında dərin və obyektiv biliklərə sahib idi və bu əsasda onları düzgün qiymətləndirə bildi. Eyni zamanda, həmin biliklərlə müasir dövrün özəllikləri arasında məntiqi bağlantı quraraq gələcəyin real obrazını yaratdı. Bunun üçün lazım olan keçid mexanizmini də dəqiq işləyə bildi. Bu tezisin fonunda biliklərin balanslaşmasında siyasi təcrübənin rolu məsələsi böyük liderlikdə ön plana çıxır.

## Siyasi təcrübə faktoru

Ümumiyyətlə, hər bir lider üçün siyasi təcrübənin əhəmiyyəti danılmazdır. Heydər Əliyev Azərbaycanın müstəqillik mərhələsinə çox zəngin liderlik təcrübəsi ilə qədəm qoymuşdu. Azərbaycanda və bəlkə də, SSRİ-də Ulu öndər qədər bu məsələdə böyük təcrübəsi olan lider yox idi. Söhbət sovet dönəmindən sonra müstəqillik əldə etmiş ölkələrə rəhbərlik edən şəxslərdən gedir. Doğrudur, E.Şevardnadze, L.Kuçma, İ.Kərimov və digərləri təcrübəli rəhbərlər idilər. Lakin onların heç biri Heydər Əliyev miqyasında təcrübə toplamamışdı və Ulu öndər səviyyəsində xalqa liderlik etməmişdi. Bundan başqa, Heydər Əliyev sovet dönəmində rəhbərliyi zamanı siyasi məharətlə Azərbaycanın milli maarqlarının hətta Mockvanın ciddi nəzarəti altında təmin edilməsi istiqamətində çox vacib addımlar atmışdı. Bu müddətdə Heydər Əliyevin müstəqillik mərhələsi üçün sistemli planı formalaşmışdı. Praktika göstərdi ki, Ümummilli lider bu istiqamətdə çox uğurlu olmuşdur.

Ulu öndərin təcrübəsi göstərdi ki, Azərbaycan kimi mürəkkəb geosiyasi məkanda yerləşən dövlətin müstəqilliyi qazanması qədər də onu qoruyub saxlamağı önəm daşıyır. Hətta müstəqilliyi qoruyub saxlamaq daha mürəkkəb və çətin vəzifədir. Bu məqamda əsas olaraq liderin şəxsi keyfiyyəti ilə siyasi təcrübəsinin bir-birini tamamlaması həlledici rol oynayır.

Burada liderin fəaliyyətində vurğulanan keyfiyyətlərin həmahəngliyinin mövcud mühitin özəllikləri ilə sıx bağlantısı mühüm xüsusyyətdir. Politoloji baxımdan bu məsələ xüsusi kəskinləşmiş geosiyasi mühit şəraitində bütövlükdə ən aktual mövqeyə çıxır. Azərbaycan təcrübəsində bu xüsusiyyət daha qabarıq özünü göstərdi. Cəmi bir neçə ilə Azərbaycan siyasi rəhbərliyi sui-qəsd və dövlət çevrilişi cəhdlərini yaşamalı oldu. O dövrdə vəziyyət o qədər mürəkkəb idi ki, bu proseslərin sonunun necə olacağını proqnozlaşdırmaq mümkün deyildi. Lakin Heydər Əliyev məhz liderliyinin gücü ilə o çətinlikləri aşdı. Ümummilli liderin bir çağırışı ilə milyonlarla insan dövlətini qorumaq üçün səfərbər oldu.

Bu faktor iki vacib məqamı aydınlaşdırırdı:

Birincisi, Heydər Əliyev xalq tərəfindən artıq böyük xilaskar lider kimi qəbul edilirdi.

İkincisi, bu yolda millət öz liderini qorumağa, ona dəstək verməyə tam hazır idi.

Onu da vurğulayaq ki, Heydər Əliyev çox qısa zamanda liderliyinin legitimliyini bütün cəmiyyətə qəbul etdirmişdi – 1993-1995-ci illər müddətində qarşıya çıxan bütün çətinliklərdə xalq Ulu öndəri müdafiə etdi. Öncə, Heydər Əliyevə səs verərək Prezident seçdi, sonra həyata keçirdiyi neft siyasətinə tam dəstək nümayiş etdirdi – "Əsrin müqaviləsi"ni böyük ruh yüksəkliyi ilə qarşıladı. Burada siyasi nəzəriyyədə indi də çox aktual sayılan bir faktor üzərində dayanmaq zəruridir.

## Güclü lider və güclü dövlət

Qərb politologiyası üçün XX əsrin son onilliyində "güclü dövlət" anlayışı az-çox aydın idi, lakin "güclü lider" və güclü liderliklə güclü dövlət quruculuğunun nəzəri əsasları o qədər də aydın deyildi. XXI əsrin üçüncü onilliyi başlamışdır, ancaq hələ də Qərb politoloji fikri bu məsələni nəzəri dərk edə bilməmişdir. Əlbəttə. güclü lider və güclü dövlətlə bağlı kifayət qədər yazırlar və dərin təhlillər aparırlar (məsələn, amerikalı politoloq A.Braun). Lakin nəzəri olaraq güclü lider – güclü dövlət münasibətlərinin obrazı formalaşmamışdır.

Nümunə kimi, Donald Trampın lider kimi obrazının hələ də yayğın olmasını göstərə bilərik. Özü də maraqlıdır ki, onun liderlik obrazı məhz "güclü Amerika" obrazı fonunda mübahisə doğurur. D.Trampın özü həmişə bəyan edir ki, "daha güclü Amrika" qurur və hətta ABŞ-ı yenidən dünya lideri edəcəkdir. Yəni onun güclü Amerika haqqında dəqiq təsəvvürü vardır.

Lakin məsələnin analitiklər, filosoflar, politoloqlar və bütövlükdə cəmiyyət miqyasında qavramı başqa mənzərə yaradır. Hətta ABŞ-ın bir neçə ştatı onun qəbul etdiyi qərarlara əməl etmək istəmirlər, D.Trampı məhkəməyə verməklə hədələyirlər. Bir sözlə, A.Braunun belə vurğulamadığı paramterlərə görə ABŞ prezidentinin güclü lider obrazını qəbul etmirlər.

Eyni zamanda, ABŞ cəmiyyətinin digər qismi tamam fərqli düşünür – onlar hesab edirlər ki, D.Tramp güclü liderdir və güclü Amerikanı yalnız o, yenidən dirçəldə bilər!

Bu ziddiyyətli siyasi məqamlar onu ifadə edir ki, müasir mərhələdə dünyanın ən güclü dövlətində belə güclü lider – güclü dövlət bağlantısının fəlsəfi və politoloji obrazı aydın deyildir. Buradan fəlsəfi və politoloji kontekstdə çox aktual bir sual meydana çıxır: güclü liderliklə güclü dövlət quruculuğu arasında adekvat fəlsəfi və siyasi-nəzəri əlaqənin elmi obrazını necə yaratmaq olar? Bu sualın prizmasında Ulu öndər Heydər Əliyevin liderlik təcrübəsi çox maraqlı və əhəmiyyətli aspektdə daha da aktuallaşır. Bunun səbəblərini izah etməyə çalışaq.

## Liderlik ənənəsi və "güclü Heydər Əliyev" obrazı

Çox maraqlı, aktual və əhəmiyyətli məsələdir, deyilmi? Doğrudan da, Azərbaycanda və dünyada liderlik ənənəsi fonunda "güclü Heydər Əliyev" obrazının başlıca "naxışları" nələrdən ibarətdir? Təəssüf ki, bu mövzu hələ nə fəlsəfi, nə də politoloji aspektlərdə araşdırılmamışdır və biz bu baxımdan tədqiqat təcrübəsindən məhrumuq. Əlbəttə, onu da unutmaq olmaz ki, qəzet formatında yazılan məqalədə bu mövzunu tam əhatə etmək imkansızdır. Eyni zamanda, bu, bir müəllifin tam apara biləcəyi tədqiqat deyildir – Ulu öndər çox zəngindir! Bundan başqa, dünya üzrə liderlik ənənəsinin tam mənzərəsini burada yaratmaq imkan xaricindədir. Ona görə də biz H.Kissincerin XX əsr üçün müəyyən etdiyi 6 "böyük liderlər"in liderlik xüsusiyyətlərinin əsas məqamları fonunda Heydər Əliyevin güclü lider obrazı haqqında müəyyən fikirlər ifadə etməyə çalışacağıq.

Öncə, Azərbaycanda liderlik ənənəsinin bir sıra məqamları üzərində qısa dayanaq. Azərbaycan tarixən siyasi obrazı dəyişən, lakin dərin dövlətçilik ənənəsi olan möhtəşəm bir ölkədir. Ona rəhbərlik etmiş liderlər uzun müddət dünyanın ən güclü imperiyaları ilə mübarizə aparmış və hətta müəyyən dönəmdə ərazisini genişləndirərək 2 milyon kvadrat kilometr miqyasına çatdırmışdır. Bununla yanaşı, Azərbaycan imperatorları qonşu dövlətlərə torpaq da "hədiyyə" etmişlər, çünki əmin idilər ki, bütün hallarda o torpaqlar da Azərbaycana məxsusdur. Başqa imperiyalarla savaşlarda məğlub olduğumuz dönəmlər də olmuşdur. Bir dövlətin ərazisinin bu cür kəskin dəyişməsi müsbət haldır, yaxud mənfi hadisədir? Əlbəttə, torpaq itkisi (səbəbi nə olursa-olsun) millət üçün müsbət hal sayıla bilməz. Buna görə də bizim dövlətçiliklə bağlı baş verən bu kimi hadisələr üzərində dönə-dönə düşünməyimiz lazımdır.

Başqa hadisələrə burada müraciət etmirik, lakin XXI əsrə Azərbaycan coğrafi olaraq parçalanmış və onun müstəqil olan şimal hissəsində cəmi 86,6 min kvadratkilometr ərazisi qalmış vəziyyətdə qədəm qoymuşdur. Buradan iki sual yaranır: birincisi, "Azərbaycana rəhbərlik edən və qanuni olaraq lider sayılan başçılarımız harada və hansı səhvləri etmişlər ki, nəhəng bir dövlət parçalanmış və yalnız kiçik bir hissəsi müstəqil olaraq qalmışdır?", ikincisi, "hansı liderlik nümunəsi Vətənimizin bir daha müstəqilliyini itirməməsi üçün daim inkişafını və güclənməsini təmin edə bilər?". Bu iki sualın işığında Heydər Əliyevin lider kimi böyük gücü tam detalları ilə aydın görünür, məntiqi təsəvvür edilir və emosional duyulur! Bu suallara cavab axtarışları müasir müstəqil Azərbaycanın qurucusunun güclü obrazının naxışlarını dəqiqləşdirməyə imkan verir.

Heydər Əliyev Azərbaycanda dövlətçiliyin keşməkeşli taleyini dərindən araşdıraraq, uğurlu liderliyin də nümunəsini yaratmağı bacarmışdır. Burada Ulu öndərin liderlik gücünün ilk əlaməti dövlətçilik ənənəsini dərindən mənimsəməsi təşkil edir. Tarixən liderlərimizin buraxdıqları səhvləri təhlil edərək, onlardan müasir dövrün tələbləri kontekstində mühüm nəticələr çıxarmışdır.

Burada ən əhəmiyyətli siyasi parametr kimi biz Heydər Əliyevin dövlət quruculuğu strategiyasında azərbaycançılığı ilk sıraya çıxarmasını vurğulamaq istərdik. Çünki Azərbaycanı saxlamaq, qorumaq və inkişaf etdirmək üçün dövlətçilik şüurunda məhz vətənçilik, yəni azərbaycançılıq önə çıxarılmalı idi. Azərbaycanlıların şüurlarında mükəmməl və bölünməz Vətən obrazı formalaşdırılmalı idi. Dövlətçilik şüurunun başqa bütün parametrlərinə uğurlu çıxış bu məsələ ilə bağlı idi.

Dövlət quruculuğu strategiyasnda əsas hədəf Azırbaycanı saxlamaq, qorumaq və inkişaf etdirmək olursa, insanların siyasi dövlətçilik şüurunun digər komponentləri tədricən yeniləşəcəkdir. Buna görə də ideya səviyyəsində Heydər Əliyev liderliyi gücünün əsas faktoru olan azərbaycançılığı ciddi siyasi məfkurə səviyyəsinə məhz vətənçilik kontekstində və nəzəriyyənin bütün normalarına uyğun "yenidən formatlaşdırması" ilə bağlıdır.

Heydər Əliyev liderliyinin gücünün digər əsas faktoru multikultural dəyərlərin azərbaycançılıq kontekstində dövlətçilik şüurunun birləşdirici parametri kimi qəbul edilməsinə nail olması ilə əlaqəlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

## Mərakeşin xanım Şahzadəsi Beynəlxalq Muğam Mərkəzində



**Ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa mayın 6-da Beynəlxalq Muğam Mərkəzi ilə tanış olub.**

Qonağa mərkəz haqqında ətraflı məlumat verilib.

Bildirilib ki, Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə inşa edilib.

Qeyd olunub ki, Prezident İlham Əliyev 2005-ci il aprelin 6-da Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında Sərəncam imzalayıb. Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. 2008-ci il dekabrın 27-də istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzində 350 yerlik konsert salonu, klub, 80 nəfərlik restoran, dərs otaqları, səsyazma studiyası var.

Mərakeşin xanım Şahzadəsinə Beynəlxalq Muğam Mərkəzinin foyesində nümayiş olunan ekspozisiyada yer alan milli musiqi alətləri barədə də məlumat verilib.

Sonra konsert proqramı təqdim olunub. Konsertdə Azərbaycan muğam sənətinin nadir nümunələri səsləndirilib, milli musiqimizin zənginliyi və bədii-estetik dəyərləri nümayiş etdirilib. Mərkəzlə tanışlıq qonaqda xoş təəssürat yaradıb.

Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaanı mədəniyyət naziri Adil Kərimli müşayiət edib.

***XQ***

## Ümummilli liderin mədəniyyət siyasəti



**Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Mingəçevir şəhərində ölkəmizdəki Heydər Əliyev mərkəzlərinin respublika müşavirəsi keçirilib. Toplantı Ümummilli liderin anadan olmasının 102-ci ildönümünə həsr edilib.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb. Sonra müşavirə iştirakçıları və qonaqlar Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı fotosərgi və Ulu öndərə həsr edilən kitablardan ibarət ekspozisiya ilə tanış olublar.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov və Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov Ulu öndərin zəngin dövlətçilik irsindən söz açıb, dahi siyasətçinin mədəniyyətimizi milli kimliyimizin təməl daşı kimi dəyərləndirdiyini vurğulayıblar. Qeyd olunub ki, Heydər Əliyevin mədəniyyət sahəsinin inkişafı ilə bağlı uzaqgörən siyasəti nəticəsində Azərbaycanın mədəni irsi beynəlxalq təşkilatlarda tanınıb, ölkəmiz mədəniyyətlərarası dialoq və əməkdaşlıq məkanına çevrilib.

Heydər Əliyev Mərkəzində Ümummilli liderin irsinin tədqiqi və təbliği departamentinin direktoru Rəna Məmmədova qurumun fəaliyyəti ilə bağlı geniş təqdimatla çıxış edib.

Əməkdar incəsənət xadimi, filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Mehdiyeva Ulu öndərlə görüşləri ilə bağlı xatirələrini bölüşüb. Sonra səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mərkəzlərinin bir qrup əməkdaşı nazirliyin təşəkkürnaməsi ilə təltif olunub.

Məclisdə Heydər Əliyev Fondu tərəfindən hazırlanan və Ümummilli liderə həsr olunan "İz" sənədli filmi nümayiş etdirilib, musiqili proqram təqdim olunub.

## Ulu öndərin irsi şagirdlərin gözü ilə



**Zaqatalada "Heydər Əliyev məktəblilərin gözü ilə" mövzusunda inşa müsabiqəsinin qalibləri təltif olunublar**

Ulu öndərin anadan olmasının 102-ci ildönümünə həsr edilən müsabiqəni Azərbaycan Yazıçılar Birliyinin Şimal–Qərb bölməsi artıq 3 ildir ki, keçirir. Müsabiqədə Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarında təhsil alan məktəblilər iştirak ediblər.

Heydər Əliyev Mərkəzində müsabiqəyə yekun vurulub. Mərkəzin rəhbəri Famil Rəhimov inşa yazı müsabiqəsinin keçirilməsinin artıq ənənə halı aldığını bildirib. AYB Şimal–Qərb bölməsinin sədri Əlmaniz Ələkbərli belə tədbirlərin keçirilməsinin şagirdlərin Heydər Əliyev irsinin dərindən öyrənilməsində rolu olduğunu deyib. İnşa yazı müsabiqəsinin təşkilində Şəki–Zaqatala Regional Təhsil İdarəsinin, sahə həmkarlar komitəsinin komitəsinin, YAP rayon təşkilatının dəstək göstərdiklərini vurğulayıb.

Sonra Qax şəhər 5 nömrəli məktəbin şagirdi Elcan Abbaslı Zaqatala şəhər 1 nömrəli tam orta məktəbin şagirdi İslam Qazi "Heydər Əliyev" haqqında yazdıqları şeirləri, Zaqatala şəhər 3 nömrəli məktəbin şagirdi Rasin Əkbərli "Yaşa Azərbaycan" mahnısını səsləndiriblər. Zona qalibləri – səhnəyə dəvət ediliblər.

Əliabad qəsəbə 3 nömrəli tam orta məktəbin şagirdi Mələk Gülməmmədova 1-ci, Balakən Şəhər A. Novruzov adına humanitar və texniki fənnlər təmayüllü liseyin 10-cu sinif şagirdi Aylin Abduxaliqova 2-ci, Qax şəhər 2 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Aydan Məmmədova isə 3-cü yerə layiq görülüb. Zona qaliblərinə hədiyyələri şəhid ailələri təqdim ediblər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

(II MƏQALƏ)

# Qlobal güc paritetinin dəyişən koordinatları

## Posttransatlantik münasibətlər müstəvisində baxış

**XXI əsrin geosiyasi mənzərəsi dəyişdikcə ənənəvi ittifaqlar da öz mahiyyətini itirməkdədir. “Posttransatlantik dövr” –yalnız ABŞ və Avropa arasında deyil, həm də Qərbin öz daxilində yaranan strateji çatların, maraq fərqlərinin və güvən böhranının adıdır; çoxqütblü dünyanın konturları məhz bu çatların arasından görünür.**

Müasir beynəlxalq münasibətlərdə "posttransatlantik dövr" anlayışı getdikcə daha çox aktuallıq qazanmaqdadır. Bu anlayışla nəzərdə tutulan əsas məqam İkinci dünya müharibəsindən sonrakı onilliklərdə qlobal sistemin təməl dayaqlarından birini təşkil edən ABŞ – Avropa strateji ittifaqının artıq əvvəlki qədər möhkəm, yekdil və koordinasiyalı olmamasıdır. Başqa sözlə, bu mərhələ Transatlantik münasibətlərin təkamülündə yeni bir mərhələnin başlan-



ğıcını, çoxqütblü dünyanın konturlarının daha da dəqiqləşdiyi bir konteksti əks etdirir. Qlobal nizamda Çin, Hindistan, Rusiya, həmçinin regional güclərin yüksəlişi, beynəlxalq hüquq və institutların zəifləməsi və qlobal çağırışların mürəkkəbləşməsi fonunda ABŞ və Avropa arasındakı münasibətlər getdikcə daha çox daxili ziddiyyətlər, strateji fərqliliklər və qarşılıqlı etimadsızlıqla müşayiət olunur.

Posttransatlantik dövrün təşəkkül tapmasında bir sıra faktorlar mühüm rol oynayır ki, bunlardan ən birincisi ABŞ-ın xarici siyasətindəki prioritet dəyişikliklərdir. Son iki onillikdə ABŞ-ın strateji diqqəti və resursları tədricən Avropadan Asiya – Sakit Okean regionuna yönəlmişdir. “Asiyaya yönəlmə” adı ilə tanınan bu geosiyasi yönləndirmə əsasən Çinlə rəqabətin idarə olunması, regional təhlükəsizlik balansının saxlanılması və ticarət marşrutlarına nəzarətin təmin olunması məqsədini güdür. Bu yanaşma nəticəsində Avropanın ABŞ üçün əvvəlki kimi birinci dərəcəli strateji prioritet olmaması Transatlantik münasibətlərdə soyuqluğun artmasına səbəb olmuşdur.

“Asiyaya yönəlmə” — bu, ABŞ-ın yeni əsrin geopolitik reallıqlarına uyğun olaraq formalaşdırdığı strateji sıçrayışıdır. İlk dəfə 2011-ci ildə Hillari Klintonun “Amerikanın Sakit okean əsri” məqaləsində səslənən bu ideya Obama administrasiyası dönəmində ABŞ-ın diqqətini tədricən Avropadan Asiya – Sakit okean regionuna yönəldilməsi ilə reallığa çevrildi. Nəticədə Vaşinqton ticarət marşrutlarını, hərbi bazalarını və diplomatik resurslarını bu yüksələn bazar və rəqabət meydanında gücləndirməyə başladı.

Realist yanaşmaya əsasən, beynəlxalq münasibətlər anarxik sistemdə güc balansı üzərində qurulduğundan, hegemon dövlətlər potensial rəqiblərinin artan gücünü nəzarət altına almağa çalışır. Bu baxımdan Çin Xalq Respublikasının iqtisadi, texnoloji və hərbi potensialının sürətli artımı ABŞ üçün struktur səviyyəsində bir çağırış kimi qiymətləndirilir. Neo-realizmin “güc keçidi” nəzəriyyəsinə görə isə hegemon güc və yüksələn güc arasında ziddiyyət qaçılmazdır. Bu baxımdan, “Asiyaya yönəlmə” strategiyası Çinlə rəqabəti sistemli şəkildə idarə etməyə yönəlmiş qabaqlayıcı addım kimi qəbul edilir.

Strategiyanın əsas məqsədləri sırasına ilk olaraq qeyd edə bilərik ki, ÇXR Cənubi Çin dənizində hərbi gücünü artıraraq qonşu ölkələrlə ərazi iddialarını genişləndirir və bu, bölgədə təhlükəsizlik balansını pozur. ABŞ bu balansı bərpa etmək üçün Yaponiyadan Avstraliyaya qədər uzanan müttəfiq şəbəkəsini gücləndirməyə çalışır. İkincisi, ABŞ öz hərbi mövcudluğunu Sakit okean hövzəsində artırmaqla Çinlə mümkün toqquşma risklərini minimuma endirmək və bölgədəki müttəfiqlərinə təhlükəsizlik zəmanəti vermək istəyir. Bununla yanaşı, ABŞ Trans-Sakit okean Tərəfdaşlığı kimi iqtisadi təşəbbüslərlə bölgədə Çinə alternativ liderlik modeli yaratmağa çalışmışdır. Hərçənd Donald Tramp Administrasiyası bu tərəfdaşlıqdan çıxdı, strateji məqsəd – Çinlə ticarət üstünlüyü uğrunda rəqabət isə aktuallığını saxladı.

Bu strateji yönləndirmənin Avropa ilə münasibətlərə təsiri isə çoxsəviyyəlidir. Əvvəla, Avropa İttifaqı (Aİ) və ümumən Avropa qitəsi uzun onilliklər ərzində ABŞ-ın xarici siyasətində prioritet mövqe tutmuşdur. Transatlantik münasibətlər təkcə NATO çərçivəsindəki təhlükəsizlik müttəfiqliyinə deyil, həm də liberal beynəlxalq nizamın dayaqlarına söykənirdi: demokratiya, insan hüquqları, açıq iqtisadiyyat və



beynəlxalq hüququn aliliyi. Lakin “Asiyaya yönəlmə” bu münasibətlər sistemində nisbətən “soyuqlaşma“ yaradaraq Avropanı ABŞ-ın strateji diqqətindən kənarda qoymuşdur.

Bu amil Avropada müəyyən səviyyədə strateji narahatlıq yaratdı. Avropalı liderlər, xüsusən də Fransa prezidenti Emmanuel Makron bu vəziyyəti “strateji yetkinlik” və “müstəqillik” çağırışları ilə cavablandırmağa başladı. “Avropa ordusu” ideyasının gündəmə gəlməsi, “strateji muxtariyyət” konsepsiyasının irəli sürülməsi və enerji sahəsində alternativ tərəfdaşlarla əməkdaşlıq bu kontekstdə dəyərləndirilə bilər.

Nəzəri baxımdan liberal institusionalistlər bu vəziyyəti Transatlantik əməkdaşlığın zəifləməsi və liberal beynəlxalq nizamın təməl prinsiplərinin eroziyası kimi qiymətləndirirlər. Onların fikrincə, ABŞ-ın Asiyaya yönəlməsi təkcə güc balansına deyil, həm də beynəlxalq əməkdaşlıq rejimlərinə zərbə vurur. Transatlantik münasibətlərdəki bu nisbi "boşluq" Avropanı daha çevik, bəzən isə daha praqmatik xarici siyasət yürütməyə sövq edir ki, bu da öz növbəsində Transatlantik koordinasiyanı zəiflədir və çoxqütblü bir düzənin təşəkkül tapmasına şərait yaradır.

Nəticə etibarilə, “Asiyaya yönəlmə” strategiyası təkcə ABŞ-ın geosiyasi prioritetlərinin dəyişməsini ifadə etmir. O, həm də qlobal güc strukturunda çoxqütblü nizamın təşəkkül tapmasına təkan verir və Transatlantik münasibətləri yeni reallıqlara uyğunlaşmağa məcbur edir. Bu reallıqda Avropa İttifaqı enerji təhlükəsizliyi, müdafiə strategiyası və beynəlxalq ticarət məsələlərində daha çox muxtariyyət və suveren qərarvermə qabiliyyəti qazanmağa çalışır.

Prosesin ən radikal təzahürlərindən biri isə 2016–2020-ci illərdə ABŞ-da Donald Tramp Administrasiyası dövründə müşahidə olundu. Trampın “Amerika Birinci” doktrinası beynəlxalq institutlara qarşı skeptik yanaşması, çoxtərəfli diplomatiyaya olan etinasızlığı və xüsusən NATO-ya qarşı sərt tənqidləri Transatlantik münasibətlərdə ciddi sarsıntılar yaratdı. Trampın NATO-nun “köhnəlmiş” olduğunu bildirməsi, Avropa ölkələrinin müdafiə xərclərini artırmaq üçün təzyiqləri və ABŞ-ın bəzi beynəlxalq sazişlərdən birtərəfli şəkildə çıxması (Paris İqlim Sazişi, İran Nüvə Sazişi) Avropa müttəfiqləri arasında dərin narahatlıq yaratdı və Vaşinqton-Brüssel oxunu ciddi şəkildə zədələdi. Bu dövrdə Transatlantik ittifaqın yalnız strateji deyil, həm də dəyərlər və normativ əsaslar üzərində qurulmuş bir birlik olmasına dair təsəvvürlər zəiflədi.

Baydenin prezidentliyə gəlişi ilə birlikdə ABŞ bu münasibətləri bərpa etmək üçün diplomatik səylər göstərsə də, əvvəlki dövrdə yaranmış psixoloji uçurum və institusional etimad böhranı tam şəkildə aradan qalxmadı. Bayden administrasiyası Atlantik tərəfdaşlığına dəyər verdiyini açıq şəkildə bəyan etsə də, Avropada artıq ABŞ-ın xarici siyasətində uzunmüddətli sabitliyin olmaması ilə bağlı narahatlıq daha struktur xarakter almışdır. Bu narahatlıq xüsusilə 2024-cü il prezident seçkilərində Donald Trampın yenidən qalib gəlməsi ilə reallaşdı və Transatlantik münasibətlərin gələcəyinə dair sualları yenidən gündəmə gətirdi.

Trampın ikinci dəfə Ağ evə qayıdışı artıq ABŞ-ın dərin daxili dönüşünün simvoluna çevrilib. Vaşinqtonun liberal beynəlxalq nizama sədaqəti ilə bağlı Avropada son ümidlər də solarkən, Transatlantik ittifaqın bünövrəsindəki çatlar daha da genişlənir.

Yeni Tramp Administrasiyasının dörd aydır davam edən radikal islahatları göstərir ki, bu qayıdışın kökündə sadəcə, keçici populist dalğa yox, ABŞ-da dərinləşmiş struktur dəyişiklikləri dayanır. “Milli maraqların üstünlüyü” prinsipi yenidən siyasətin mərkəzinə çəkilir: ticarət müharibələri çərçivəsində Aİ-yə qarşı proteksionist tədbirlər güclənir, sərt gömrük tarifləri və yeni idxal məhdudiyyətləri Brüssel ilə münasibətləri kəskinləşdirir.

NATO-da isə Vaşinqtonun tələbləri daha aqressiv tona boyanıb: yük paylaşımının yenidən hesablanması, müdafiə xərclərinə konkret faiz məcburiyyəti və müttəfiqlərin məsuliyyətlərinin dəqiqləşdirilməsi – bütün bunlar Avropa hökumətlərini siyasi və maliyyə çətinlikləri çərçivəsində yeni tərəfdaş axtarışına sövq edir. Beləcə, Transatlantik koordinasiyanın ənənəvi mexanizmləri zəifləyir, qərarvermə prosesinin mərkəzindəki təcridçilik siyasəti isə ittifaq daxilində mənəvi və strateji böhranı şaxələndirir.

Nəticədə, posttransatlantik dövr, sadəcə olaraq, bir geosiyasi reallıq deyil, həm də normativ və institusional bir parçalanma prosesidir. Bu dövrdə Avropa öz təhlükəsizlik və xarici siyasətində daha çox muxtariyyət axtarışına çıxır, ABŞ isə öz gücünü Asiya-Sakit okean teatrına yönəldir. Eyni zamanda, qlobal səviyyədə artan qeyri-müəyyənlik və çoxqütblü sistemin formalaşması, Transatlantik əməkdaşlığın əvvəlki kimi universal model kimi təqdim olunmasını çətinləşdirir. Yeni dövr tərəfdaşlıq anlayışını yenidən düşünməyi, çevik, məqsədyönlü və çoxsəviyyəli əməkdaşlıq modellərinə keçidi zəruri edir. Transatlantik münasibətlər varlığını qorusa da, artıq əvvəlki dönəmin yekdil, liderlik edən güc oxu deyil, bir sıra ziddiyyətlərin, yeni reallıqların və strateji dilemmanın əhatə etdiyi daha mürəkkəb bir formatda təzahür edir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# BMT Azərbaycanın davamlı inkişafını yüksək qiymətləndirir

**BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyinin fəaliyyəti başa çatıb. Bu barədə təşkilat rəsmi saytında məlumat yayıb. Qeyd edilib ki, BMT-nin Əhali Fondu reproduktiv sağlamlıq və hüquqlar üzrə ixtisaslaşan aparıcı BMT agentliyidir. Azərbaycanda fəaliyyət göstərdiyi 30 il ərzində əhalinin cinsi və reproduktiv sağlamlıq və hüquqların təmin edilməsi, ailə planlaşdırılması, gender zorakılığı və gender əsaslı cinsi ayrı-seçkiliyin aradan qaldırılması, demoqrafik inkişaf və s. sahələr üzrə hökumət, özəl və ictimai sektordan olan tərəfdaşları ilə birgə müxtəlif layihə və kampaniyalar həyata keçirib. Bu tədbirlərdə gender əsaslı zorakılıqla mübarizədən bəhs edilib.**



Qadınlara və qızlara qarşı zorakılıq problemlərinə ictimaiyyətin diqqətini yönəltmək, internetdən təhlükəsiz istifadə qaydalarını təşviq etmək, habelə geniş əhali kütləsinə zorakılıqdan müdafiə mexanizmləri haqqında məlumat verilib. Həmçinin təhqir, təqib, şantaja məruz qalma və şəxsi məlumatların icazəsiz paylaşılması hallarından müdafiə yolları göstərilib. Uşaqların doğulanadək cins seçiminə məruz qalmasının məişət zorakılığının bir növü olduğu, bu sahədə qabaqlayıcı tədbirlərin əhəmiyyətindən danışılıb. Məişət zorakılığı və gender əsaslı zorakılıqla üzləşmiş şəxslərə müvafiq dəstək xətləri, sığınacaqlar və digər xidmətlər barədə köməklik göstərilib.

Əhali Fondunun Azərbaycandakı nümayəndəliyi reproduktiv sağlamlıq və tibbi ləvazimatlardan ibarət dəst tədarük edərək ölkəmizə verib. Nümayəndəlik münaqişə nəticəsində zərər çəkmiş bölgələrdə yaşayan mülki əhalinin humanitar ehtiyaclarının təmin edilməsi istiqamətində Azərbaycan hökumətinə dəstək olub.

Bundan sonra UNFPA-nın Azərbaycanla əlaqələri Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi və qərargahı vasitəsilə davam edəcək, ölkəmizdəki ofis isə bağlanacaq. Bu, yeni reallıqların üzə çıxması, artıq bir sıra təşkilatlarla əməkdaşlığın səmərəsiz olması ilə bağlıdır. Əməkdaşlıq formatına yenidən baxılacaq təşkilatlar arasında isə BMT qurumları üstünlük təşkil edir. Yəni Azərbaycan yeni reallıqları nəzərə alaraq BMT ilə əməkdaşlığın prioritetlərinə yenidən baxır. Bu məsələni Xarici işlər naziri Ceyhun Bayramov martın 3-də ölkəmizdə səfərdə olan BMT-nin İnkişaf Əlaqələndirmə Ofisinin Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Kvi-Yeop Son ilə görüşündə də qaldırıb.

Nazir 2 mart 2025-ci il tarixinin Azərbaycanın BMT-yə üzv olaraq qəbul edilməsinin 33-cü ildönümünə təsadüf etdiyini və ötən 33 il ərzində Azərbaycanla BMT sisteminə daxil olan qurumlar arasında əməkdaşlığın səmərəli və konstruktiv şəkildə qurulduğundan məmnunluq duyduğunu bildirib.

Xatırladaq ki, Azərbaycanın müstəqilliyinin ilk illərində ərazilərinin işğalı və 1 milyona yaxın qaçqın və məcburi köçkün problemlərinin həlli üçün kənar yardımlara ehtiyacı vardı. Qaçqın düşərgələrini həmin dövrdə yerli imkanlarla saxlamaq qeyri-mümkün idi. O vaxtlar ölkəmizdə fəaliyyətə başlayan bəzi BMT qurumları ilə həyata keçirilmiş əməkdaşlıq Azərbaycanda institusional inkişaf və qabiliyyət quruculuğuna mühüm töhfələr vermişdi.

Eyni zamanda, ərazilərimizin işğaldan azad edilməsi və son illərdə Azərbaycanın sosial–iqtisadi tərəqqisi ölkəmizin öz daxili resurs və imkanlarına arxalanmağa şərait yaradıb. Hazırda Azərbaycan bir sıra BMT qurumları vasitəsilə bir çox ölkələrə donorluq fəaliyyəti göstərir.

Bununla əlaqədar, Azərbaycan BMT ilə əməkdaşlıqdakı prioritetlərini yeni dövrün reallıqlarına uyğun və BMT-nin resurslarından daha səmərəli istifadə edəcək şəkildə yenidən nəzərdən keçirir. Bu xüsusda, bəzi BMT qurumları ilə bundan sonrakı tərəfdaşlığın milli prioritetlərə uyğun şəkildə layihə əsaslı əməkdaşlıq mexanizmi vasitəsilə davam etdiriləcək. Birbaşa mənzil qərargahları ilə əlaqə qurulacaq. Ona görə də hesab olunur ki, bəzi beynəlxalq təşkilatların, xüsusən də beynəlxalq humanitar təşkilatların fəaliyyəti Azərbaycanda öz əhəmiyyətini itirib. Daha əvvəl həll etdikləri problemlər artıq yoxdur.

Bu strukturun Azərbaycanda işi qalmayıbsa, deməli, onun ofisininn fəaliyyət göstərməsinin də mənası yoxdur. Artıq BMT bu resursları konkret böhran zonalarına, onlara ən çox ehtiyacı olan ölkələrə yönəldə bilər.

Milli Məclisin deputatı Fatma Yıldırım bildirdi ki, son illər Azərbaycanın inkişafı beynəlxalq aləmin, xüsusilə böyük iqtisadi-siyasi güc mərkəzlərinin diqqətindədir: “Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallıqlar və bu reallıqların nəticə etibarı ilə yeni nizama verdiyi töhfələr təqdir edilir. Təsadüfi deyil ki, dünyanın aparıcı siyasi-iqtisadi mərkəzləri, dövlətləri və təşkilatları Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını həm əyani surətdə bildirir, həm də apardıqları siyasətlə nümayiş etdirirlər. Azərbaycan isə regional təhlükəsizliyə verdiyi töhfələrlə gələcək iqtisadi-siyasi nizamın dayaqlarını daha da möhkəmləndirir. Ən mühüm logistik mərkəz olaraq qlobal ticarətin inkişafına, siyasi inteqrasiyanın keyfiyyətinə xüsusi rəng qatır. İqtisadiyyatı dinamik inkişaf edir, gəlirləri artır”.

Aparılan uğurlu siyasət nəticəsində ötən il iqtisadi artım 4 faizi keçib. Real ümumi daxili məhsulun (ÜDM) 2025-ci ildə 3,4, 2026-cı ildə isə 3,3 faiz artacağı gözlənilir. Bu rəqəmlər əvvəlki qiymətləndirmədən 0,8 faiz yüksəkdir. 2025–2026-cı illər üzrə orta illik iqtisadi artım 3,35 faiz təşkil edəcəkdir.

2024-cü ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 180 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər. Pərakəndə ticarət dövriyyəsi 62,2 milyard manat təşkil edib. Ölkəmizin strateji valyuta ehtiyatları da artıb. Cari ilin aprelin 1-nə strateji valyuta ehtiyatları 73,8 milyard dolları məbləğində olmaqla xarici dövlət borcunu təqribən 14,6 dəfə üstələyir. Bu, kifayət qədər böyük rəqəmdir. Yoxsulluğun səviyyəsi də aşağı düşüb. Qısa müddət ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən 10 dəfə azalıb. Bir zamanlar əgər ölkədə yoxsulluğun səviyyəsi 50 faiz idisə, indi 5 faizdən də aşağıdır.

Maliyyə imkanlarının genişlənməsi isə Azərbaycanın bir vaxtlar yardım alan ölkədən donor dövlətə çevrilməsini təmin edib və respublikamızın manevr imkanlarını genişləndirib. Hazırda Azərbaycan böhranlı vəziyyətlərlə üzləşən ölkələrə mütəmadi olaraq yardım edir. Bu cür yardımlar Asiya, Afrika, Latın Amerikası ölkələrinin bir çoxuna göstərilib. Avropa ölkələri arasında da humanitar yardım göstərdiyimiz ölkələr var. Azərbaycan ukraynalı qaçqınların ehtiyaclarının qarşılanması üçün dərman və ərzaq məhsullarından ibarət humanitar yardımlar göndərir. Eyni zamanda, SOCAR Ukraynada təcili tibbi yardım və yanğınsöndürən xidmətinin avtomobillərinə pulsuz yanacaqla dəstək verib.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Ortaq düşüncə platforması

## Azərbaycan və İranın beyin mərkəzlərinin yeni əməkdaşlıq xətti




(əvvəli 1-ci səhifədə)

Memoranduma əsasən, İranda keçiriləcək tədbirlərdə iştirak etmək üçün Tehrana gedəcəyini söyləyən F.Şəfiyev qonşu ölkədən də nümayəndələrin Bakıya tez-tez gələcəkləri barədə razılığın əldə olunduğunu bildirdi. “Ola bilsin ki, əməkdaşlığımızın bəhrəsi kimi bir kitab, yaxud təhlil-hesabat çap elədik” – deyən BMTM sədri artıq belə təcrübənin olduğunu və bu yaxınlarda qazaxıstanlı mütəxəssislərlə birgə araşdırmanın işıq üzü gördüyünü qeyd etdi. F.Şəfiyev həm ikitərəfli münasibətlərin, həm də regional vəziyyətin təhlilinin yer alacağı belə bir araşdırmanın iranlı həmkarlarla birgə hazırlanması barədə ilkin razılığa gəlindiyini də nəzərə çatdırdı.

*

Qeyd edək ki, dünən Bakıda BMTM ilə İranın Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzi (IRIS) arasında imzlanan anlaşma memorandumunu məhz bu istiqamətdə atılan ilk addımlardan biri hesab etmək olar. Sənəd “Regional proseslər kontekstində Azərbaycan–İran münasibətləri” mövzusunda keçirilən tədbir çərçivəsində imzalanıb. Memorandumu BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev və İranın Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri (IRIS), xarici işlər nazirinin müavini Səid Xətibzadə imzalayıblar. Sənədə əsasən, BMTM və IPIS arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan akademik mübadilənin reallaşdırılması, ortaq layihələrin icrası nəzərdə tutulub.

Daha sonra qəzetimizə açıqlamasında BMTM İdarə Heyətinin sədri bildirdi ki, o, bundan sonra İranla Azərbaycan arasında təmasların daimi olacağına inanır: “Çünki iki ölkə arasında möhkəm əlaqələr var. Amma sirr deyil ki, vaxtaşırı müəyyən problemlər də ortaya çıxır. Bundan ən düzgün çıxış yolu isə qarşılıqlı səmimi qonşuluq siyasətinin olmasıdır”.

İran Prezidentinin Azərbaycana rəsmi səfəri ilə bağlı fikirlərini davam etdirən F.Şəfiyev bu səfəri hər iki tərəf üçün son dərəcə vacib saydığını və uğurlu olduğunu qeyd etdi: “Biz düşüncə mərkəzləri səviyyəsində müzakirələr aparmaq, fikir müübadiləsi etmək üçün bir araya gəlmişik. Bakıda və Tehranda düzənlənəcək görüşlərimizdə müzakirələri həm iki ölkə arasında, həm regiondakı mövcud durum, həm də beynəlxalq münasibətlər kontekstində prosesləri akademik fikir mübadiləsi formasında keçirəcəyik”.

*

Bakıda təşkil olunan “Regional proseslər kontekstində Azərbaycan–İran münasibətləri” mövzusunda tədbirin əsas məqsədinin Cənubi Qafqaz regionunda dəyişən geosiyasi konfiqurasiya fonunda Azərbaycan–İran münasibətlərinin cari vəziyyətini və gələcək inkişaf istiqamətlərini qiymətləndirmək olduğunu diqqətə çatdıran F.Şəfiyev müzakirələrdə həm özünün, həm də İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri, Xarici işlər nazirinin müavini Səid Xətibzadənin çıxış etdiklərini bildirdi. O çıxışında iki ölkənin münasibətlərində müşahidə olunan pozitiv dinamikanın əlaməti olaraq, Prezident Məsud Pezeşkianın Azərbaycana rəsmi səfərinə diqqət çəkdiyini, bu səfərin strateji dialoqun bərpası, etimadın möhkəmləndirilməsi və praktiki əməkdaşlıq formatlarının genişləndirilməsi baxımından mühüm dönüş nöqtəsi olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırdığını vurğuladı.

F.Şəfiyev, həmçinin imzaladıqları anlaşma memorandumuna uyğun olaraq, Azərbaycan–İran münasibətlərinin regional proseslər kontekstində müzakirəsi və gələcək inkişafın prioritetlərini müəyyənləşdirməkdən ötrü mütəmadi görüşlərin keçiriləcəyini diqqətə çatdırdı.

*

Yeri gəlmişkən, Səid Xətibzadə tədbirdəki çıxışında İranın qonşuluq siyasətində Azərbaycanın mühüm yer tutduğunu qeyd edərək, Prezident Məsud Pezeşkianın Bakıya ilk səfərinin bu siyasətin əməldə təzahürü olduğunu bildirib. O, həmçinin iki qonşu xalq arasındakı yaxın münasibətlərə də diqqət çəkib: “Süni maneələr aradan qaldırılmalı, təbii əlaqələr maksimum səviyyəyə çatdırılmalıdır. Bölgədə baş verən geosiyasi, geoiqtisadi dəyişikliklər onu tələb edir ki, yanaşmalar da bu tendensiyalara uyğunlaşdırılsın”.

Daha sonra işini ekspertlər arasında panel müzakirələrlə davam etdirən “Regional proseslər kontekstində Azərbaycan–İran münasibətləri” tədbirində regiondakı yeni reallıqlar fonunda ikitərəfli münasibətlər, İran Prezidentinin Azərbaycana səfərinin yekunları, regional enerji və nəqliyyat layihələri, təhlükəsizlik və sərhəd idarəçiliyi, eləcə də mədəni-humanitar əməkdaşlıq məsələləri ilə bağlı çıxışlar oldu. BMTM İdarə Heyətinin üzvü Cavid Vəliyevin, IRIS-in Avrasiya araşdırmaları qrupunun rəhbəri Əlibeman Eğbali Zarçın, mərkəzin baş elmi işçisi Mənuçehr Muradinin, eləcə də BMTM-in baş məsləhətçisi Məsiağa Məhəmmədinin çıxışları dinlənildi.

*İmran BƏDİRXANLI*
*XQ*

REPLİKA

# İrəvanda “casus ovu” mövsümü

**...Ümumi qaydaya əsasən, ov mövsümü payız, qış aylarında başlayır. Bunun çox sadə səbəbi ondan ibarətdir ki, canlı təbiətdə – faunada populyasiya prosesi məhz soyuq mövsümdə gedir. Amma ana təbiətdən fərqli olaraq, bəzi cəmiyyətlərdə ov mövsümünə dövrdən, fəsillərdən asılı olmayaraq, qaydaların tam əksinə gedərək start verildiyi müşahidə edilir. Bu zaman prosesin hərəkətverici amili kimi cəmiyyətdə siyasi atmosfer təzyiqinin kəllə-çarxa çıxması göstərilir. “Siyasi qızdırmaya” düşmüş belə azsaylı cəmiyyətlərdən biri də Ermənistandır.**



Hayastanda siyasi ehtirasların qızışmasının əsas səbəbi parlament seçkiləri öncəsi siyasi qüvvələr arasında mübarizənin sivil qaydalar çərçivəsini aşaraq, partiyalararası, qruplararası, klanlararası, bəzən də fərdlərarası savaş müstəvisinə keçməsidir. Qarşıdakı seçkilərdə hazırkı baş nazir Nikol Paşinyana qarşı vahid müxalif cəbhədən çıxış etməyi planlaşdıran iki eks-prezidentin – Koçaryan və Sarkisyanın daxildən daha çox xarici dəstəyə ümid etdiklərini hamı bilir. Çünki, “Qarabağ klanı”nın 20 il hakimiyyətdə olduğu dövrü İrəvan ermənilərinin “qara dövr” adlandırdıqlarını və bu münasibətin bir ildən sonra da dəyişməyəcəyini yaxşı anlayan həmin “eks”lərin kənar güclərə söykənməkdən başqa yolu yoxdur.

Mübarizə açıq müstəviyə keçdiyindən tərəflər diplomatik etiket, siyasi ritorika anlayışlarını yaddan çıxarıblar. Əgər belə olmasaydı, Ermənistan parlamentinin sədri Alen Simonyan cəmiyyətin üzləşdiyi bütün problemlərdə iqtidar partiyasını ittiham edən ölkəsinin ikinci prezidenti Robert Koçaryana “Rusiyanın ştatlı casusu” deməzdi. Qarşı tərəf ona borclu qalmadı və operativ reaksiya nümayiş etdirərək, spikeri “Türkiyənin agenti”, “Azərbaycanın casusu” kimi epitetlərə “qonaq” elədi. Bu bəyanatın müəllifi Ermənistanın ikinci prezidentinin ofisinin rəhbəri postunda işləmiş Baqrat Mikoyandır. Simonyanın siyasi qiymətini “düşünürəm ki, Alen Simonyan azərbaycanlı onbaşı casusu və türk agenti statusuna malikdir və onun sözlərinə istinad etmək istənilən erməni üçün təhqirdir” formasında izhar edib. Bununla da kifayətlənməyən Mikoyan spikerin ünvanına, onun düşüncəsinə görə, bu təhqiri də yağdırıb: “Ona (Alen Simonyana – red.) Ərdoğanın kitabını verin, onu qucaqlayıb sakitləşsin”.

Müharibədə uduzmağın bir aqibəti də günahkarı daxildə axtarmaq, “casus ovu”na çıxmaq kimi acı fəsadla üzləşməkdir. Azərbaycanla savaşda təslimolma sənədini imzalamağa məcbur edilmiş Hayastanın hərbi-siyasi düşərgəsində hamının bir-birinə casus gözü ilə baxması başadüşüləndir. Axı, 2020-ci ilin sentyabrınadək “Qarabağı dirçəldirik” kampaniyası adı ilə xaricdən aldıqları milyardlarla dollar ianəni basıb yeyən, xirtdəyə qədər korrupsiyaya bulaşmış keçmiş hakimiyyətlərin bu gün bir-birinin boğazını gəmirməsinin səbəbi təkcə hakimiyyət davası deyil. Onlar cinayət əməllərinə görə bir gün cəmiyyət və Femida qarşısında cavab verməli olacaqlarını bildiklərinə, yəni son aqibətlərini gözlərinin qabağına gətirdiklərinə görə bir-birinə qarşı bu dərəcədə hirslidirlər.

Bəli, Ermənistanda “casus isterikası” başadüşüləndir. Bu ictimai-siyasi ovqat oradakı revanşist qüvvələrə də sərf edir. Axı, onlar sülh sazişinin bağlanmasına qarşıdırlar. Daxildə hakimiyyət davasının bu həddə gəlib çatması daşnak-lobbistlər üçün həm də Azərbaycana qarşı təbliğat aparmaq, sülh sazişinin bağlanmasına əngəl törətmək üçün bir fürsətdir. Revanşistlərdən ötrü sülh sazişinin imzalanmasını ləngitməyin bir üsulu da daxildə casus axtarışına çıxmaqdır. Onlar bu yolla bir yandan Paşinyanı gözdən salmağa, digər tərəfdən daxili auditoriyanı azdırmağa, ictimaiyyətə sülhün mümkünsüzlüyünü təlqin etməyə cəhd göstərirlər.

Yəqin, yazdıqlarımızın fonunda oxucu Hayastandakı siyasi mənzərəni gözü önünə gətirə bildi. Onun indiki durumdan çıxış edərək haylarla bağlı belə bir qənaətə gəlməsini də güman edə bilərik: – Qırın bir-birinizi!

Amma biz onlara heç daxildə də vətəndaş müharibəsi arzulamırıq. Təki anlasınlar ki, daxili-xarici bütün problemlərinin yeganə həll yolu Azərbaycanla sülhə gəlməkdir. İndi onlar üçün bunu anlamağın da mövsümüdür...

*İ.HƏSƏNQALA*
*XQ*

**Ermənistanda daxili siyasi qütbləşmə yeni mərhələyə qədəm qoyur. Ölkənin sabiq prezidentləri Robert Koçaryan və Serj Sarkisyan “inqilab dalğasında” hakimiyyətə gəlmiş Nikol Paşinyana qarşı daha açıq və aqressiv ritorikaya keçiblər. Onlar Paşinyanı Ermənistanın məğlubiyyətinin səbəbkarı kimi təqdim etməyə çalışır, öz keçmişlərini “alternativ uğur nümunəsi” kimi təqdim edirlər. Lakin bu cəhdlərin fonunda həm Ermənistan, həm də beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı olduğu bir sıra əsasları daha aydın şəkildə görməyə başlayır.**

### Keçmişin redaktəsi: Sarkisyanın ziddiyyətli bəyanatları

Serj Sarkisyan bu günlərdə çıxışında 2018-ci ildə “çox yaxşı danışıqlar vəziyyəti” olduğunu iddia etdi. Halbuki elə həmin ilin aprelində – kütləvi narazılıqlar fonunda parlamentdə etdiyi çıxışında danışıqların dalana dirəndiyini, optimizm üçün əsas olmadığını açıq şəkildə bəyan etmişdi. Bu ziddiyyət siyasi yaddaşın zəifləməsi deyil, tarixi məqsədli şəkildə təhrif etmək cəhdidir.

2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycanın cəbhədə əldə etdiyi üstünlük danışıqlara da təsir etmişdi. Ermənistan tərəfi beynəlxalq vasitəçilərin (xüsusilə Rusiya və ATƏT-in Minsk qrupu həmsədrlərinin) təqdim etdiyi mərhələli həll planlarına qarşı sərt və qeyri-konstruktiv mövqe sərgilədi. Məhz həmin dövrdə “Lavrov planı” adı ilə tanınan təkliflər gündəmə gəlmişdi. Bu plan, Azərbaycanın uzun illər təkid etdiyi “əvvəl ərazilər, sonra status” prinsipinə yaxın idi. Ermənistan isə “status-kvo”nun dəyişməzliyində israr edir, dondurulmuş münaqişənin davam etməsində maraqlı görünürdü.

# Süni tarix, saxta ittihamlar

*Ermənistan siyasətində Koçaryan–Sarkisyan revanşizmi və Azərbaycanın haqlı mövqeyi*



Aralarında fərq yalnız siyasi ambisiyada deyil – geosiyasi baxışlarında da özünü göstərir. Koçaryan Rusiya ilə daha açıq ittifaq tərəfdarı kimi çıxış edir. Onun Kreml dairələrində müəyyən əlaqələri və Rusiya mediasında (xüsusən də “Rossiya-1”) tez-tez görünməsi bunun sübutudur. Sarkisyan isə Qərbə nisbətən daha praqmatik yanaşsa da, son açıqlamalarında yenidən Rusiyayönlü ritorikaya qayıdır.

### “Status-kvo”nun Hayastan üçün nəticələri

Sarkisyanın onillik hakimiyyəti Ermənistanı təkcə diplomatik deyil, iqtisadi və demoqrafik dalana da saldı. Korrupsiya, monolit siyasi sistem, köç və işsizlik Ermənistanda etiraz enerjisinin toplanmasına səbəb oldu. Ermənistan cəmiyyətinin narazılığı yalnız daxili səbəblərlə bağlı deyildi – sərhəddə mütəmadi baş verən insidentlər, gənclərin müharibəyə cəlb olunması və “qeyri-müəyyən gələcək” hissi də vəziyyəti pisləşdirirdi. Azərbaycanla danışıqların süni şəkildə saxlanması, Ermənistan üçün vaxt qazandırmır, əksinə, beynəlxalq dəstəyi zəiflədir və real həll imkanlarını itirirdi.

Azərbaycan isə bu dövrdə həm hərbi, həm diplomatik cəbhədə fəallığını artırırdı. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayırdı ki, Azərbaycan heç vaxt status-kvo ilə barışmayacaq və işğal faktı beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır. Azərbaycanın haqlı mövqeyi BMT Təhlükəsizlik Şurasının qətnamələrində, Avropa Şurası və Qoşulmama Hərəkatı kimi beynəlxalq platformalarda öz əksini tapırdı. 2016-cı ildən sonra Azərbaycan diplomatik hücuma keçdi – iqtisadi sabitlik və beynəlxalq əməkdaşlıq imkanları onu regional güc olaraq möhkəmləndirdi.

### Müttəfiq, yoxsa rəqib?

Paşinyana qarşı çıxış edən Koçaryan və Sarkisyan formal olaraq bir cəbhədə görünür. Lakin reallıqda bu cütlük arasındakı rəqabət artıq Ermənistan ictimaiyyətinə də bəllidir. 2021-ci və 2023-cü il parlament seçkilərində onların partiyaları bir-birini açıq şəkildə dəstəkləmədi. Koçaryan “Hayastan” blokunun lideri kimi özünü “alternativ güc” kimi təqdim edərkən, Sarkisyan “Respublikaçılar” Partiyası ilə siyasi səhnəyə qayıtmaq istədi.

### Paşinyanın sülh gündəmi və Ermənistan cəmiyyətində parçalanma

Paşinyan isə bu qüvvələri “keçmişin kölgələri” adlandırır. Onun əsas arqumenti budur: Ermənistan uzun illər boyunca real sülh deyil, saxta balans üzərində siyasət aparıb. Bu siyasətin nəticəsi isə 2020-ci ildəki hərbi məğlubiyyət oldu. Paşinyan bu gün Azərbaycanla sülh müqaviləsi, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılmasının tərəfdarıdır. Lakin Ermənistan cəmiyyəti bu məsələdə parçalanıb – bir qisim bunu sülh fürsəti, digər qisim isə güzəşt və “xəyanət” kimi qiymətləndirir.

Burada Azərbaycanın yürütdüyü ardıcıl siyasət yenidən diqqət çəkir. Azərbaycan bölgədə davamlı sülh üçün Zəngəzur dəhlizinin açılmasını, sərhədlərin beynəlxalq hüquq çərçivəsində müəyyən olunması və regionda əməkdaşlıq mexanizmlərinin qurulmasını təklif edir. Bu təkliflər artıq beynəlxalq təşkilatlar tərəfindən də real və müsbət addım kimi qarşılanır.

### Daxildən səslənən realist səslər

Bütün bunlara rəğmən, Ermənistanda da Azərbaycanın mövqeyini anlayan və onunla əməkdaşlığın alternativsiz olduğunu dərk edən intellektual çevrələr formalaşır. Məsələn, bir sıra erməni politoloqlar, keçmiş diplomatlar və analitiklər açıq şəkildə bildirirlər ki, 30 illik qeyri-sabitlik və müharibə vəziyyəti Ermənistanın inkişafına əngəl olub. Onların fikrincə, Azərbaycanla real dialoq və kompromis Ermənistanın gələcəyi üçün həyati zərurətdir.

Bu, Ermənistanın yeni siyasi nəsli üçün ciddi siqnaldır. Əgər keçmiş liderlər – Koçaryan və Sarkisyan – manipulyasiya və tarixi təhriflə cəmiyyəti keçmişə sürükləmək istəyirlərsə, Paşinyanın qarşısında bu keçmişi arqumentlərlə darmadağın etmək və gələcəyə açılan qapını qorumaq vəzifəsi durur.

### Yekun: Tarix yalanı sevmir

Koçaryan və Sarkisyanın cəhdləri bir həqiqəti dəyişmir: onların dövründə Ermənistan nə sülhə, nə də inkişafa yaxın idi. Bu gün isə Azərbaycan beynəlxalq hüquqa söykənən mövqeyi, siyasi və diplomatik təşəbbüsləri ilə təkcə öz haqqını deyil, regionun gələcəyini də müdafiə edir. Tarixi saxtalaşdırmaq mümkün deyil. Ermənistanda hansı liderin hakimiyyətdə olmasına baxmayaraq, Azərbaycanın haqqı dəyişmir. Ədalət zamanla tanınır və bu proses artıq başlayıb.

*Oğuz ARİF,*
*politoloq*

# Uzaq Vyetnamı ölkəmizlə yaxınlaşdıran əlaqələr

(əvvəli 1-ci səhifədə)

"Vietsovpetro" şirkətinin səmərəli fəaliyyəti nəticəsində neft yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində əldə edilən uğurlar ölkələrimizi daha da yaxınlaşdırıb. Bu, eyni zamanda, iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsini şərtləndirib.

Azərbaycan ilə Vyetnama bir-birinin maraqlarına hörmətlə yanaşan dost və tərəfdaş ölkələr, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafını yüksək dəyərləndirən respublikalar kimi münasibət bəslənilib. Xalqlarımız arasındakı münasibətlərin təməli hələ SSRİ dövründə qoyulub. Vyetnam xalqının öndəri Ho Şi Min 1959-cu ildə Azərbaycana, xalqımızın ümummilli lideri Heydər Əliyev isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama tarixi səfərdə olub. Bu səfər keçmiş SSRİ-nin, eləcə də Azərbaycanın Vyetnamla münasibətlərinin inkişafını sürətləndirib, sovet rəhbərliyini Vyetnama iqtisadi və elmi-texniki kömək göstərmək barədə inandıra bilib.

Vyetnama sözügedən tarixi səfər çərçivəsində rəsmi görüşlər keçirən, bir neçə istehsal müəssisəsi və infrastruktur obyekti ilə tanış olan dahi şəxsiyyət Heydər Əliyev Vyetnam və sovet, o cümlədən Azərbaycan neft mütəxəssisləri ilə görüşmək üçün Vyetnamın neft sənayesinin mərkəzi olan Vunq Tau şəhərinə də baş çəkir. Ulu öndərin səyləri, Bakıdan gətirilən əlavə azərbaycanlı mütəxəssislərin və texnikanın cəlb edilməsi nəticəsində Vyetnamda ilk neft proqnozlaşdırıldığından xeyli əvvəl –1986-cı ilin iyununda hasil edilir.

"Vietsovpetro" Sovet – Vyetnam birgə müəssisəsinin Vunq Tau şəhərindəki baş ofisində şirkətin fəaliyyətinə və Vyetnamın neft-qaz sənayesinə dair muzeydəki eksponatlar arasında ulu öndər Heydər Əliyevin bu şəhərə səfərinə, neftçilərlə görüşlərinə, eyni zamanda, Azərbaycan mütəxəssislərinin bu ölkədəki fəaliyyətinə dair fotolara da rast gəlmək mümkündür. Muzeyin girişində isə Ho Şi Minin Bakıda neft mədənlərinə səfərinə aid iri fotoşəkli və Bakı haqqında məşhur kəlamı diqqət çəkir.

Beləliklə, dahi şəxsiyyət Heydər Əliyevin 42 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri təkcə keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin dərinləşməsi baxımından deyil, həm də Vyetnam xalqının Azərbaycana isti münasibətinin formalaşmasında xüsusi rol oynayıb. Azərbaycanın Vyetnamla dostluğu yalnız enerji sahəsində olmayıb. SSRİ dövründə minlərlə vyetnamlı tələbə, xüsusilə Bakıdakı Dövlət Neft və Sənaye Universitetində təhsil alıb. Onların bir çoxu sonradan öz ölkələrində yüksək vəzifələrə yüksəlib, Azərbaycana isə "ikinci Vətən" kimi qayıdıb. 2014-cü ildə Prezident İlham Əliyevin Hanoya səfəri zamanı həmin məzunlar Prezidentlə görüşdə "Tələbə" mahnısını oxuyaraq keçmiş illəri yad ediblər. Bu səfər yeni əməkdaşlıq mərhələsinin əsasını qoyub, ardınca Vyetnam Prezidentinin Bakıya rəsmi səfəri reallaşıb.



Azərbaycan – Vyetnam əlaqələri humanitar sahədə də genişlənməkdədir. Heydər Əliyev Fondunun Vyetnamdakı xeyriyyə fəaliyyəti – məktəb binalarının tikintisi, görmə qabiliyyəti məhdud şəxslər üçün dəstək layihələri – bu dostluğun canlı təzahürüdür. Leyla Əliyevanın bu yaxınlardakı səfəri də iki xalq arasında mənəvi bağların möhkəmləndirilməsi istiqamətində növbəti addım kimi diqqət çəkir.

İki ölkə arasında dostluq həm də şəhərlərin adlarında yaşayır. Bakıdakı "Vunqtau küçəsi", 1988-ci ildə çəkilmiş "Ağ pələnglə görüş" sənədli filmi bu yaxınlığı simvollaşdırır. 2019-cu ildə Hanoyda Nəsiminin yubiley tədbiri Azərbaycanın mədəniyyətini tanıtmaq baxımından əlamətdar olub.

Bu gün də Azərbaycan və Vyetnam arasında əlaqələr qarşılıqlı hörmət, bərabərlik və mədəni yaxınlıq prinsipləri üzərində inkişaf edir. Enerji, təhsil, humanitar kimi sahələrdə ortaq irs, ədəbiyyat və sənət vasitəsilə yaşadılan bu dostluq xalqlar arasında möhkəm körpüyə çevrilib.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra qarşılıqlı səfərlərin əhəmiyyəti nəzərə alınaraq 2014-cü ildə Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasına dövlət səfəri, 2015-ci ildə isə Vyetnam Prezidenti Truonq Tan Sanqın Azərbaycana rəsmi səfəri ölkələr arasında siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələlərdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaradıb. Bu gün iki dövlət liderlərinin siyasi iradələri sayəsində ölkələrimiz arasında fəal siyasi dialoq və beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq yüksək dəyərləndirilib.

Milli maraqlara və müasir çağırışlara əsaslanan siyasət həyata keçirməklə davamlı sosial-iqtisadi inkişafı təmin edən və beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirən Azərbaycan ilə Vyetnamın iqtisadi-ticari, mədəni-humanitar, təhsil, turizm, enerji və digər sahələrdə işbirliyinin genişləndirilməsi müsbət nəticələrlə müşahidə edilib.

İki ölkə arasında əməkdaşlığın inkişafında iqtisadi-ticari və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan – Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti əhəmiyyətli rol oynayır. Ölkələrimizin iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, humanitar, turizm, təhsil və digət sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var.

İki ölkə arasında mövcud siyasi dialoqun saxlanılması və inkişaf etdirilməsində qarşılıqlı səfər və təmaslar, o cümlədən siyasi məsləhətləşmələr mexanizmi mühüm önəm daşıyır. İqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, humanitar, turizm, təhsil və s. sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin mövcudluğu da xüsusi diqqət çəkir. Mövcud imkanlardan istifadə olunmasının, habelə bu istiqamətdə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti böyük əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, Hökumətlərarası Komissiyanın 2017-ci il yanvarın 16-da Hanoy şəhərində keçirilmiş 1-ci iclasının protokolunda qeyd olunan müvafiq sahələr üzrə prioritet istiqamətlər ötən müddətdə diqqətdə saxlanılıb, icrasına xüsusi önəm verilib. Azərbaycanla Vyetnam arasında əməkdaşlığın istiqamətlərindən biri kimi enerji sektoru da diqqətdə saxlanılıb. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Vyetnamın Neft və Qaz Qrupu (PVN), eləcə də digər şirkətləri arasında əməkdaşlıq yüksək qiymətləndirilib. Neft-qaz sahəsində yeni texnologiyaların tətbiqi, enerji səmərəliliyi və bərpa olunan enerji mənbələri üzrə əməkdaşlıq imkanları daim nəzərdən keçirilib.



Bundan başqa, mütəmadi olaraq iki ölkə arasında əməkdaşlığın müqavilə-hüquq bazasının genişləndirilməsi və təkmilləşdirilməsi, investisiya, nəqliyyat, kənd təsərrüfatı, ətraf mühit, təhsil və digər sahələrdə əməkdaşlıq məsələləri, əlaqələrin inkişafı istiqamətləri barədə müzakirələr aparılıb.

Sonda bir məqamı da qeyd etmək istərdik. Azərbaycan ilə Vyetnam arasında ticarət dövriyyəsinin hazırkı vəziyyəti təəssüf ki, yüksək potensial imkanlara malik bu ölkələri qane edə bilməz. Başqa sözlə, müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, sənaye, energetika, turizm sahələrində əməkdaşlığın inkişafı üçün geniş potensialın olmasına baxmayaraq, iki dövlət arasında ticarət dövriyyəsi ölkələrimizin potensialını əks etdirmir.

# Azərbaycan beynəlxalq aqrar sərgilər mərkəzidir




**Gələn həftə Bakı Ekspo Mərkəzində Xəzər regionunun ən böyük 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" və 30-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgiləri keçiriləcək. Bununla bağlı dünən Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələrinin, eləcə də sərgi təşkilatçılarının iştirakı ilə mətbuat konfransı keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Toğrul Qafarbəyli bildirib ki, builki sərgilərdə ilk dəfə fermerlər üçün kənd təsərrüfatı sahəsində süni intellekt əsaslı yeniliklər təqdim olunacaq. Təmsil etdiyi qurumun bu il süni intellektin tətbiqi ilə bağlı bir neçə layihəni sərgi iştirakçılarına təqdim edəcəyini bildirən nazirlik rəsmisinin sözlərinə görə, Azərbaycanda yerləşən universitetlərdə süni intellekt istiqamətində yetişdirilən tələbələr və bazarda olan böyük aqroparklar arasında sinerji yaratmaq istiqamətində tədbirlər həyata keçiriləcək. O deyib ki, sərgi həm universitetlərdə təhsil alan tələbələr, həm də iri aqroparklar arasında sinerji formalaşdırmaq və onlara süni intellektin kənd təsərrüfatında tətbiqinə imkan yaratmaq baxımından mühüm rol oynayacaq.

"Caspian Event Organizers" şirkətinin icraçı direktoru Bəhruz Hidayətzadə isə media nümayəndələrinin diqqətinə çatdırıb ki, mayın 13-dən 16-dək davam edəcək sərgilərdə 30-dan artıq ölkədən 450-dək şirkətin iştirakı təsdiqlənib. O qeyd edib ki, ötən müddətdə "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri etibarlı və tanınan milli brend olmaqla yanaşı, dünyanın aparıcı beynəlxalq tədbirləri sırasına daxil olaraq qlobal sərgi təqvimində layiqli yerini tutub. Bildirilib ki, Prezident İlham Əliyevin "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərini ziyarət etməsi, burada nümayiş etdirilən sərgi ekspozisiyaları və iştirakçılarla tanış olması tədbirin ölkəmiz üçün əhəmiyyətini təsdiqləyir.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi, eləcə də Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyasının fəal dəstəkləri ilə keçirilən "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərinin coğrafiyası getdikcə genişlənir. Builki sərgilər Azərbaycanla yanaşı, Almaniya, ABŞ, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Cənubi Koreya, Fələstin, Finlandiya, Gürcüstan, Hindistan, İordaniya, İran, İspaniya, İsrail, İsveç, İtaliya, Kanada, Latviya, Misir, Niderland, Özbəkistan, Qazaxıstan, Rusiya, Serbiya, Şri Lanka, Türkiyə, Türkmənistan və Yunanıstanı əhatə edəcək. Bununla yanaşı, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri Lanka və ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində iştirak edəcəklər.

İştirakçı və ziyarətçilərin istəkləri nəzərə alınaraq bu il sərgilərin 4 gün ərzində keçiriləcəyini vurğulayan B. Hidayətzadə bildirib ki, bu, sərgi iştirakçılarında və ziyarətçilərdə qarşılıqlı əlaqə üçün yeni imkanlar yaradacağına və əlavə impuls verəcəyinə inamı artırır.

Mətbuat konfransında 30 illik yubileyini qeyd edən "InterFood Azerbaijan" sərgisi barədə ətraflı məlumat verilib. Bildirilib ki, ötən müddətdə 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən çox ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayəsi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, "InterFood Azerbaijan" sərgisi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək onun möhkəmləndirilməsində vacib rol oynayır.

Xatırladaq ki, regionun ən böyük kənd təsərrüfatı sərgisi olan "Caspian Agro" kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edəcək. Sərgi kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçılarını, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, kənd təsərrüfatı məhsullarının distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar auditoriyasını yenidən bir məkana toplayaraq təcrübə, bilik və innovasiyalar mübadiləsi üçün unikal imkanlar yaradacaq. Eyni zamanda, sərgidə "Smart Agro" istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, IT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və "green agro" bölmələri yer alacaq.

"InterFood Azerbaijan" sərgisində isə qida sənayesi, içkilər, şirniyyat, süd məhsulları, qənnadı və un məmulatları, meyvə-tərəvəz, qablaşdırma, qida texnologiyaları, eləcə də, halal qida və digər bölmələr üzrə məhsul və xidmətlər təqdim olunacaq.

Bundan əlavə, ikitərəfli işgüzar görüşlər çərçivəsində özəl şirkətlərin nümayəndələri dövlət qurumlarının təmsilçiləri ilə görüş imkanı əldə edəcəklər. Eyni zamanda, sərgilərdə iştirakçı şirkətlər tərəfindən seminarlar və təqdimatlar keçiriləcək. Almaniya Milli Pavilyonunda bu ölkəni təmsil edən şirkətlərin məhsullarının təqdimatı bu baxımdan maraqla gözlənilir.

# Ələt Azad İqtisadi Zonasına HAVA QAPISI AÇILIR

**Ələt Azad İqtisadi Azad Zonası Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov "Azərbaycan əczaçılıq sənayesi: dünən, bu gün və sabah" mövzusunda keçirilən beynəlxalq tədbirdə bildirib ki, əvvəl fəaliyyəti yük daşınması üçün nəzərdə tutulan, lakin sonradan beynəlxalq hava limanı olmasına qərar verilən Ələt Azad İqtisadi Zonasında tikilən aeroport 750 hektar ərazini əhatə edəcək.**



Onun sözlərinə görə, Ələt Azad İqtisadi Zonası beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşir. Burada hava limanı tikiləndən sonra investorlar üçün bütün nəqliyyat-logistika məsələləri çox sadə və əlverişli şəraitdə həll olunacaq.

Xatırladaq ki, Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimi 2021-ci il iyulun 1-də keçirilib. Həmin vaxtdan indiyədək bu mühüm infrastrukturun qurulması ilə bağlı genişmiqyaslı layihələrin reallaşdırılması istiqamətində zəruri addımlar atılıb. Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etmək olub. İnnovativ texnologiyalar əsasında xidmətlər göstərən investorları cəlb etmək, bu yöndə səmərəli fəaliyyət üstünlüyünü diqqətdə saxlayan beynəlxalq qurumların Azərbaycan şirkətləri ilə birgə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, eləcə də on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflər sırasında yer alıb.

# Sənaye və nəqliyyat kreditləri çoxalıb

**Azərbaycan Mərkəzi Bankı 2025-ci ilin birinci rübündə ölkədə fəaliyyət göstərən banklar tərəfindən sənaye və nəqliyyat sektorlarına verilmiş biznes kreditlərinin həcmini açıqlayıb. Bildirilib ki, cari ilin birinci rübündə banklar ölkənin sənaye sektoruna 2 milyard 689 milyon manat kredit ayırıblar ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 30 milyon manat və ya 1,1 faiz çoxdur.**




Hesabat dövründə yerli banklar tərəfindən nəqliyyat sektoruna verilmiş biznes kreditlərinin həcmi isə 1 milyard 478 milon manat təşkil edib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 203 milyon manat və ya 15,9 faiz artıqdır.

Xatırladaq ki, bu il aprelin 1-nə Azərbaycanda fəaliyyət göstərən bankların biznes kredit portfelinin həcmi 14 milyard 935 milyon manat təşkil edib. Kredit portfeli əvvəlki ilin eyni dövrünə olan göstərici ilə müqayisədə 1 milyard 700 milyon manat və ya 13,1 faiz artıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**“Azərbaycanda buraxılıb” brendi altında təqdim olunan sənaye məhsullarının Cənubi Afrika, Yəmən və Argentinaya ixrac olunmasına başlanılıb. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən məlumat verilib.**

# “Azərbaycanda buraxılıb” brendinin coğrafiyası genişlənir




Qurumun məlumatında deyilir: “Sənaye zonalarında inşa edilən müəssisələr, ilk növbədə, daxili bazarın tələbatını ödəmək məqsədilə məhsul istehsal edir. Əsas diqqət yerli bazarın ehtiyaclarına yönəlib. Sənaye zonalarının ən böyük üstünlüklərindən biri isə ölkənin idxaldan asılılığını azaltmaq, yeni ixrac imkanları yaratmaq və yerli sənaye məhsullarını milli brend altında xarici bazarlara çıxarmaqdır. Hazırda bu brend adı altında istehsal olunan məhsullara dünyanın 70-dən artıq ölkəsində rast gəlmək mümkündür”.

Agentlikdən o da bildirilib ki, sənaye zonalarının fəaliyyəti nəticəsində valyutanın ölkədən çıxmasının qarşısı alınmaqla yanaşı, ölkəyə valyuta axını artır. Azərbaycanın idxalçı ölkədən ixracatçı ölkəyə çevrilməsini hədəfləyən agentlik ötən müddətdə bu istiqamətdə əhəmiyyətli nailiyyətlər əldə edib. Belə ki, sənaye parklarında fəaliyyət göstərən müəssisələrin 50 faizindən çoxu məhsullarını xarici bazarlara çıxarır: “Hazırda, təqribən, 50-dən çox çeşiddə məhsul ixrac olunur. Yaxın vaxtlarda isə “Azərbaycanda buraxlıb” brendi altında təqdim olunan məhsulların çeşidinin daha da genişlənəcəyi gözlənilir. Bu istiqamətdə atılan addımlardan biri sənaye zonalarında yeni müəssisələrin, o cümlədən avtomobil sənayesinə aid istehsal zavodlarının (məsələn, İVECO markasının yeni zavodu) fəaliyyətə başlamasıdır” – deyə məlumatda qeyd olunur.

**Azərbaycanda 445 meqavat gücündə “Biləsuvar” Günəş Elektrik Stansiyasının və 315 meqavat gücündə “Neftçala” Elektrik Stansiyasının işə salınması gələn ilə nəzərdə tutulub. Bunu “Masdar” şirkətinin MDB üzrə biznesin və investisiyaların inkişafı departamentinin rəhbəri Məryəm Rəşid Əl-Mazrui Asiya İnkişaf Bankının Milanda keçirilən 58-ci illik iclasında bildirib.**

# Gələn il 2 günəş elektrik stansiyası işə salınacaq



O deyib: “Hər iki stansiya inşa mərhələsindədir və onların işə salınması gələn ilə planlaşdırılır. Biz Bakıda COP29 zamanı elan etdiyimiz maliyyə bağlanmasına nail olduq. Onların tamamlanması, təxminən, bir il və ya bir il yarım çəkəcək. Buna görə də buraxılış gələn ilin əvvəlində baş tuta bilər. Onlar tam gücü ilə istifadəyə veriləcək”.

Məryəm Raşid Əl-Məzrui çıxışında “Masdar” şirkətinin Azərbaycanda yüksək fəallıq nümayiş etdirdiyini də vurğulayıb.

# Yerli dərman istehsalı artır

**Bu ilin yanvar-mart aylarında Azərbaycanda 3 milyon 396 min manat dəyərində dərman istehsal edilib. Bu barədə məlumat Dövlət Statistika Komitəsinin hesabatında yer alıb.**



Komitənin məlumatına görə, dərman istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 106 milyon manat və ya 3,2 faiz çoxdur. Belə ki, 2024-cü ilin birinci rübündə Azərbaycanda 3 milyon 290 min manat dəyərində dərman istehsal edilib.

Cari ilin aprelin biri tarixinə ölkədə 705,8 milyon manatlıq hazır dərman ehtiyatı var. Bununla yanaşı, hesabat dövründə Azərbaycanda 900 min ədəd maska istehsal edilib. Bu da illik müqayisədə dəyişməsə də, son iki ildə 700 min ədəd və ya 4,5 dəfə artım deməkdir.

# Belarusla ölkəmizin əməkdaşlığının miqyas və hədəfləri böyüyür

**Əlverişli geosiyasi mövqeyi ilə fərqlənən Azərbaycan Respublikasının bu gün beynəlxalq enerji və nəqliyyat infrastrukturu layihələrinin mərkəzinə çevrilməsi ölkəmizə marağı artırır. Son illər Azərbaycanın postsovet məkanına daxil olan dost ölkələrlə də əlaqələrinin səviyyəsi yüksələn xətlə inkişaf edir. Bu baxımdan Azərbaycanın Belarusla mövcud əməkdaşlıq əlaqələri diqqəti daha çox çəkir. Respublikamızla adı çəkilən ölkə arasında mədəniyyət və humanitar sahələrlə yanaşı, ticarət və iqtisadi əməkdaşlıq istiqamətində də ildən-ilə irəliləyişlər nəzərə çarpır.**



Onu da deyək ki, rəqabət, antiinhisar siyasəti, dövlət satınalmaları və istehlakçı hüquqlarının müdafiəsi sahələrində iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsinə, eləcə də müvafiq istiqamətlər üzrə qarşılıqlı təcrübə mübadiləsi imkanlarına xüsusi önəm verilib. Ötən il iyulun 1-dən respublikamızda qüvvəyə minən Rəqabət Məcəlləsi, o cümlədən ilin əvvəlindən etibarən tətbiqinə başlanılan “Dövlət satınalmaları haqqında” yeni Qanun və rəqabət sahəsində xidmətlərin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar nəticəsində dost ölkə ilə iqtisadi əməkdaşlıq daha da sürətlənib.

Belarusun Ticarət-Sənaye Palatasının sədri Mixail Myatlikov Bakıda keçirilən biznes-forumda bu barədə ətraflı danışıb, ölkəsinin Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin uğurla inkişaf etdiyini, ötən il Belarusda gerçəkləşən belə bir görüşün uğurlu nəticələrlə diqqət çəkdiyini, hesabat dövründə dövlətlər arasındakı ticarət dövriyyəsi həcminin 46 faizə yüksəldiyini bildirib.

Mixail Myatlikov qeyd edib ki, Azərbaycan Belarusa əsasən meyvə, tərəvəz, neft və neft məhsulları ixrac edir. Bu ölkə isə respublikamıza süd, süd məhsulları, ağac və başqa tikinti materialları satır. Azərbaycan Belarusun ticarət tərəfdaşları sırasında 11-ci pillədən 7-yə yüksəlməsi də ticarət əlaqələrinin sürətli inkişafının nəticəsidir.

Palata sədri daha sonra bildirib ki, Bakıda reallaşan biznes-forumda Belarusdan gələn çox sayda iş adamının iştirak etməsi döst ölkələrin biznes qurumları arasında yeni əməkdaşlıq və iş adamlarının əlaqələri üçün böyük zəmin yaranacaq. Həmişə qarşılıqlı etimada və xoş münasibətə söykənən Azərbaycan ilə Belarusun iqtisadi və ticarət əlaqələri xalqların rifahını və dövlətlərin qüdrətini daha da artıracaq.

Biznes-forumda hər iki ölkənin ticari-iqtisadi əlaqələrdə dinamik artım nümayiş etdirildiyi, 2025-ci ilin birinci rübündə ticarət dövriyyəsinin 100 milyon dolları ötdüyü, Azərbaycan məhsullarının Belarusa ixracının 82 faizi keçdiyi və 18 milyon dollar olduğu da diqqətə çatdırılıb. Eyni zamanda, Azərbaycanın alkoqollu məhsullarının Belarus paytaxtında fəal şəkildə təşviq edildiyi vurğulanıb.

Bildirilib ki, İki ölkə arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə müsbət təsir göstərən məsələlərdən biri də Gəncə Avtomobil Zavodunun Minsk Traktor Zavodu ilə uğurlu əməkdaşlığıdır. 2007-ci ildən bəri əməkdaşlıq çərçivəsində 14 mindən çox traktor və 3 mindən artıq yük avtomobilinin istehsal edilməsi də bu fikrin bariz ifadəsidir.

Belarus digər texnikaların – tikinti, kommunal, dəmir yolu, qəza-xilasetmə və müxtəlif növ xüsusi texnikanın Azərbaycana tədarükünün təşkilində perspektiv görür. Bundan başqa, Azərbaycanda aqrar sektorun, o cümlədən heyvandarlığın inkişafı proqramlarının birgə həyata keçirilməsində ciddi potensial nəzərə çarpır. Heyvandarlıq komplekslərinin yaradılması, həmçinin damazlıq tələbatının ödənilməsi sahəsində zəngin qabaqcıl təcrübəmizi tətbiqi, Azərbaycan ərazisində baytarlıq preparatlarının birgə istehsalının yaradılması layihəsi yüksək aktuallıq kəsb edir.

Forumda Azərbaycan-Belarus birgə lift yığımı müəssisəsində bu il ərzində birinci mərhələdə 200 ədəd liftin yığılmasının planlaşdırıldığı qeyd edilib. İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayevin sözlərinə görə, Belarusun “Mogilevliftmash” Səhmdar Cəmiyyəti (SC) ilə Azərbaycanın “Vertus Engineering Co” şirkəti arasında ötən il birgə istehsalla bağlı müqavilə imzalanıb. Lift avadanlıqları sahəsində birgə əməkdaşlıq artıq praktiki mərhələyə daxil olub.

Qeyd edək ki, 50 illik təcrübəyə malik olan bir zavod – “Mogilevliftmash” SC sərnişin və yük liftlərinin layihələndirilməsi və istehsalı üzrə ixtisaslaşıb. İllik 13 min ədəd lift istehsal edən müəssisə bazarda böyük nüfuz qazanıb. Bu əməkdaşlıq Azərbaycanın sənaye təhlükəsizliyi sahəsində beynəlxalq standartlara uyğun liftlərin istehsalı və ixracına yönəlmiş strateji addımların tərkib hissəsi kimi qiymətləndirilib.

Qeyd edək ki, Bakıda keçirilən Azərbaycan-Belarus biznes forumunun yekunları üzrə 18,9 milyon dollar dəyərində müqavilələr imzalanıb. Ümumilikdə, 12 sənədə imza atılıb, onlardan üçü onlayn şəkildə qəbul olunub.

Belarusun Ticarət-Sənaye Palatasının sədri Mixail Myatlikovun sözlərinə görə, razılaşmaya əsasən, ölkəsinin nümayəndələri Azərbaycandan olan tərəfdaşları ilə iyunda keçiriləcək “Belagro” sərgisində görüşəcəklər. Belaruslular isə mayın 13-dən 16-dək “Caspian Agro” beynəlxalq sərgisində iştirak edəcəklər.

O qeyd edib ki, forum zamanı Belarus Universal Əmtəə Birjası ilə Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında memorandum, “Mostovdrev” və “Sosna” şirkətləri arasında məhsul tədarükünə dair üç müqavilə, “Kamvol” və “Smart Style" şirkətləri arasında məhsul tədarükünə dair müqavilə, "Spartak” və “AZNUR” şirkətləri arasında məhsul tədarükünə dair müqavilə, “Borkof-Aqro” MMC ilə “Stapri-Azərbaycan” MMC arasında rezin lövhələrin tədarükünə dair niyyət sazişi, “BelOMO” holdinqinin “LEMT” Elmi-Texniki Mərkəzi ilə “Azərbaycan Milli Aviasiya Akademiyası Hava Yolları” QSC arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Prezident İlham Əliyev çıxışlarının birində Azərbaycan – Belarus ikitərəfli münasibətlərinin perspektivləri barədə danışarkən deyib: “Bir çox məsələlər – ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür”.

Dövlətimizin başçısı sözlərinə əlavə edərək qeyd edib ki, qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasında, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına da şad olardıq.

# Asiya İnkişaf Bankının qitədə ərzaq təhlükəsizliyinə dəstəyi

## 2030-cu ilə qədər bu sahəyə 40 milyard dollar vəsait ayrılacaq




**Asiya İnkişaf Bankı (AİB) Asiya və Sakit Okean regionunda uzunmüddətli ərzaq və qida təhlükəsizliyinə dəstəyini 26 milyard dollar artırmağı planlaşdırır. Beləliklə, bankın 2022–2030-cu illər üçün ərzaq təhlükəsizliyi təşəbbüsləri üzrə nəzərdə tutduğu ümumi maliyyənin 40 milyard dollara yüksələcəyi gözlənilir.**

AİB-nin yaydığı məlumata əsasən, bu dəstək əkinçilik, emal, məhsulların paylanması və istehlak da daxil olmaqla ərzaq istehsalı prosesinin bütün mərhələlərini əhatə edən genişmiqyaslı bir proqramı maliyyələşdirəcək. Proqram hökumətlərə və şirkətlərə maliyyə və siyasət dəstəyi verməklə Asiya və Sakit Okean regionunda müxtəlif və qidalandırıcı ərzaqların istehsalını təşviq etmək, iş yerləri yaratmaq, ətraf mühitə mənfi təsirləri azaltmaq və kənd təsərrüfatı üçün dayanıqlı təchizat zəncirlərini inkişaf etdirmək məqsədi daşıyır.

AİB prezidenti Masato Kanda Milanda keçirilən AİB-in 58-ci İllik toplantısında bildirib ki, görünməmiş quraqlıqlar, daşqınlar, həddindən artıq istilər və deqradasiyaya uğramış təbii ehtiyatlar kənd təsərrüfatı istehsalına zərər vurur, eyni zamanda, ərzaq təhlükəsizliyi, eləcə də kənd yerlərində dolanışıq vasitələri üçün təhlükə yaradır.

M.Kandanın sözlərinə görə, bu artırılan dəstək ölkələrin aclığı azaltmasına kömək edəcək, qidalanmanı yaxşılaşdıracaq, ətraf mühiti qoruyacaq, eyni zamanda, fermerlər və aqrobizneslər üçün imkanlar yaradacaq. Bu, ərzaqların yetişdirilməsi, emal olunması, paylanması və istehlakı da daxil olmaqla bütövlükdə ərzaq üzrə dəyər zəncirinə dəyişiklik gətirəcək.

Yeni hədəf AİB-in 2022-ci ilin sentyabrında elan etdiyi ərzaq təhlükəsizliyini yaxşılaşdırmaq və regional ərzaq böhranını azaltmaq üçün 2025-ci ilə qədər 14 milyard dollar sərmayə qoymaq vədinə əsaslanıb. AİB 2024-cü ilin sonunadək bu istiqamət üzrə 11 milyard dollar, yəni nəzərdə tutulan ilkin məbləğin, təxminən, 80 faizi həcmində vəsait investisiya edib və 2025-ci ilin investisiya planına uyğun olaraq 3,3 milyard dollar həcmində əlavə vəsait ayırıb.

Məlumata əsasən, 2030-cu ilə qədər AİB ümumi həcmi 40 milyard dollar olan proqramda özəl sektor üzrə investisiyaların payının 27 faizdən çox olmasını hədəfləyir. Bu da ərzaq sistemlərinin transformasiyasında özəl sektorun həlledici rolunu vurğulayır. Dünyada kifayət qədər qidalanmayan insanların yarıdan çoxu Asiyada yerləşən inkişaf etməkdə olan ölkələrdə yaşayır. Biomüxtəlifliyin itirilməsi və normal qidalanmama ərzaq sistemləri üçün çətinlik yaradır. Qlobal su istifadəsinin 70 faizi, yararlı torpaqların 50 faizi və biomüxtəlifliyin itirilməsinin 80 faizi bu sistemlərin payına düşür. Həmçinin regionda əmək qüvvəsinin 40 faizi ərzaq sistemlərində çalışır.

Proqram ərzaq sistemlərinin transformasiyasını dəstəkləmək məqsədilə kənd təsərrüfatı üzrə dəyər zəncirlərinin müasirləşdirilməsini gerçəkləşdirəcək ki, bu da həssas əhali qrupları üçün sərfəli və sağlam qidaya çıxışın yaxşılaşdırılmasına xidmət edəcək. Proqram çərçivəsində, həmçinin torpaqların keyfiyyətinin yaxşılaşdırılması və biomüxtəlifliyin qorunması üçün investisiya ayrılacaq. Hər iki amil iqlim dəyişikliyi, çirklənmə, eləcə də torpaq və su ekosistemlərinin itirilməsinə görə artan təhdidlə üzləşən məhsuldar kənd təsərrüfatı üçün vacib rol oynayır. Proqram fermerlər, aqrobizneslər və siyasətçilər üçün qərar qəbul etmə prosesini yaxşılaşdırmaq məqsədilə rəqəmsal texnologiya və analitik həllərin inkişafına dəstək verəcək.

AİB 150 milyon dollar həcmində planlaşdırılan və qarışıq maliyyələşdirmə aləti olan Təbii Kapital Fondu yaradır. Bu fonda əsas dəstəyi Qlobal Ekoloji Fondu (GEF) göstərəcək, həmçinin Qlobal Kənd Təsərrüfatı və Ərzaq Təhlükəsizliyi Proqramı da daxil olmaqla digər tərəfdaşların da ona töhfə verməsi gözlənilir. Təbii Kapital Fondu, AİB-in inkişaf etməkdə olan üzv ölkələrində təbii kapitalı davamlı şəkildə qoruyan, bərpa edən və idarə edən fermerlər və yenilikçilər tərəfindən həyata keçirilən aqrar və ərzaq sisteminə dair layihələrə dəstək verəcək.

Məlumatın sonunda qeyd edilir ki, AİB Asiya və Sakit Okean regionunda dayanıqlı, inklüziv və davamlı inkişafı dəstəkləyən aparıcı çoxtərəfli inkişaf bankıdır. AİB üzv ölkələr və tərəfdaşları ilə birlikdə mürəkkəb çağırışları həll edərkən, insanların həyatlarını yaxşılaşdırmaq, keyfiyyətli infrastruktur qurmaq və planetimizi qorumaq üçün innovativ maliyyə alətlərindən istifadə edir və strateji əməkdaşlıqlardan yararlanır. AİB 1966-cı ildə yaradılıb, 50-si regiondan olmaqla bankın 69 üzvü onun səhmdarlarıdır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Kütləvi məzarlıqların lal harayı

## *Aşkara çıxmış qətllər erməni qatilləri ittiham edir*



**Azərbaycan həmişə beynəlxalq humanitar hüquq normalarına hörmətlə yanaşıb və üzərinə götürdüyü öhdəliklərə əməl edib. Amma bunu Ermənistan barədə demək mümkün deyil. Qarabağ və digər ətraf rayonların işğal dövründə ermənilər tərəfindən azərbaycanlılara qarşı vandalizm əməlləri törədilib, evlər talan edilərək sökülüb, yandırılıb, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılıb. Əsir və girovlara qarşı münasibətdə beynəlxalq hüquq normaları tapdanıb.**

"Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə konvensiyalarının həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək, insan ləyaqətinə toxunmaq kimi tələbləri kobud surətdə pozulub. Dinc əhali kütləvi şəkildə öldürülüb, əsirlikdə saxlanılmış həmvətənlərimiz dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalıb. Bundan başqa, amansız rəftar və ləyaqəti mütəmadi alçaltmaqla özünüöldürmə dərəcəsinə çatdırılıb, soyuqqanlılıqla qətlə yetirilib. Onların güllələnməsi və işgəncələr nəticəsində vəfat etməsi barədə kifayət qədər məlumat var.

Məsələn, Xocavənd rayonunun işğalı zamanı Qaradağlı kəndindən girov götürülən 117 nəfər kənd sakinindən 80-i güllələnib. Kəlbəcər rayonunun Başlıbel kəndinin 15 dinc sakini ermənilər tərəfindən yerindəcə qətlə yetirilib. 130 evdən ibarət Ağdaban kəndi isə erməni qüvvələri tərəfindən tamamilə yandırılıb, kəndin 779 nəfər sakininə işgəncələr verilib. 67 nəfər qətlə yetirilib, 8 nəfər 90–100 yaşlı qoca, 2 azyaşlı uşaq və 7 qadın diri-diri odda yandırılıb. Bundan başqa, 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib. Ermənilər tərəfindən tarix, memarlıq və mədəniyyət abidələri dağıdılıb, ziyarətgahlar və məzarlıqlar təhqir olunub və məhv edilib. Öldürülən əsirlər də az olmayıb. Ermənilər izi itirmək üçün onları müxtəlif yerlərdə basdırıblar. Bu gün çoxunun harada basdırıldığı məlum deyil.

Xatırladaq ki, Birinci Qarabağ müharibəsində 3990, İkinci Qarabağ müharibəsində isə 6 nəfər itkin düşüb. Onların bəzilərinin taleyinə Qarabağ və Şərqi Zəngəzur azad edildikdən sonra aydınlıq gətirilib. Rəsmi məlumatlara əsasən, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Azərbaycan torpaqlarında aparılmış axtarış-qazıntı işləri zamanı 400-ə yaxın vətəndaşımıza aid meyit qalıqları aşkar edilib. Bu ərazilərdəki kütləvi məzarlıqlarda tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində görülmüş işlər nəticəsində bu günədək bir çox soydaşımızın şəxsiyyəti müəyyən edilib. Bu proses hələ də davam edir. Kütləvi məzarlıqlar isə əksər hallarda təsadüfən, o cümlədən qazıntı, təbii fəlakət və s. nəticəsində üzə çıxır. Məsələn, "Euronews" telekanalı ötən ay Qarabağ bölgəsində – Şuşa və Xocalıda aşkar edilmiş kütləvi məzarlıqlar mövzusunu işıqlandırıb. Tapılan qalıqların Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş insanlara aid olduğu bildirilir. Qeyd olunub ki, ekspertlər onların üzərində işgəncə əlamətləri aşkar ediblər: "Ən azı yeddi şəxsə aid sümüklər və digər fraqmentlər aşkar edilib. Tapılan sübutlar göstərir ki, bu insanlar qətlə yetirilməzdən əvvəl, işgəncələrə məruz qalıblar. Mülki şəxslər təxminən 25 il əvvəl basdırılıb".

Mütəxəssislərin rəyinə görə, onlar qeyri-ənənəvi yolla dəfn olunublar. Yol tikintisi aparıldığı üçün qalıqlar oradan götürülüb.

Onu da qeyd edək ki, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Şuşa və Xocalıda aşkar olunmuş kütləvi məzarlıqlarla bağlı məlumat yayıb. Bildirilib ki, dəfələrlə müraciətlər edilsə də, Ermənistan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etmir, otuz ildən artıq müddətdir əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı məlumatları Azərbaycana təqdim etməkdən boyun qaçırır: "İşğaldan azad edilmiş Şuşa şəhərinin yaxınlığında və Əsgəran–Xocalı yolunun üzərində aprel ayında aparılmış qazıntılar zamanı iki kütləvi məzarlıq aşkarlanıb. Həmin məzarlıqlarda aşkar edilmiş insan qalıqlarının mülki şəxslərə aid olduğu ehtimal edilir. Aşkarlanmış qalıqlarda mülki şəxs qarşı zorakılıq izlərinin aşkar edilməsi Birinci Qarabağ müharibəsi dövründə Ermənistan tərəfindən azərbaycanlılara qarşı müharibə və insanlıq əleyhinə cinayətlərin törədildiyini bir daha təsdiqləyir.

... İşğaldan azad olunmuş ərazilərdəki kütləvi məzarlıqlarda tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində görülmüş işlər nəticəsində indiyədək 170-dək soydaşımızın kimliyi müəyyən olunub və bu proses hələ də davam etməkdədir... Ermənistan iştirakçısı olduğu beynəlxalq müqavilələrə əsasən üzərinə götürdüyü öhdəliklərə riayət etməli, qətlə yetirilmiş şəxslərin basdırıldığı yerlər barədə dəqiq məlumatları təqdim etməli, beynəlxalq ictimaiyyət həmin məlumatların ölkəmizə təqdim olunması istiqamətində Ermənistana ciddi təsir göstərməlidir".

Təəssüf ki, Azərbaycan tərəfindən dəfələrlə edilmiş müraciətlərə baxmayaraq, Ermənistan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyərək, otuz ildən artıq müddətdir əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı məlumatları təqdim etməkdən boyun qaçırır. Bu da onu göstərir ki, İrəvan törətdiyi cinayətin üzə çıxacağından narahatdır. Amma Ermənistan unutmamalıdır ki, əsir və girov götürülən və taleyi bəlli olmayan azərbaycanlılar ilə aşkar olunan kütləvi məzarlıqlar bir-birinə bağlı məsələlərdir. Hər iki cinayətdə birbaşa məsuliyyət Ermənistan dövlətinin üzərinə düşür. Çünki Birinci Qarabağ müharibəsi zamanı erməni silahlıları və Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini, o cümlədən "Döyüşən ordularda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Cenevrə Konvensiyasının 17-ci maddəsinin tələblərinin kobud surətdə pozub.

Ölkəmiz bu məlumatları almaqda israrlıdır. Qarşı tərəflə görüşlərdə bu məsələ dəfələrlə qaldırılıb. Bu il fevralın 7-də Azərbaycan – Ermənistan dövlət sərhədində Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Ermənistan Respublikası Əsir düşmüş, saxlanılmış və itkin (yeri məlum olmayan) şəxslər üzrə idarələrarası komissiyasının nümayəndələri arasında görüş keçirilib.

Görüşdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsinə dair fikir mübadiləsi aparılıb və komissiyalar arasında ikitərəfli əsasda müzakirələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

**Beynəlxalq Mətbuat İnstitutunun Azərbaycan Milli Komitəsinin rəhbəri Umud Mirzəyev** XQ-yə açıqlamasında dedi: "Ermənistan–Azərbaycan münaqişəsi hər iki tərəf üçün ağır nəticələr doğurdu, itkilərə səbəb oldu. Xüsusən, işğal nəticəsində doğma yurdlarından didərgin düşən yüz minlərlə azərbaycanlı 30 il boyunca böyük ağrılar və faciələr yaşadı. Bu müddət ərzində insan itkisi, dağılan ailələr və ən ağrılı məsələlərdən biri olan itkin və əsir düşmüş şəxslərin taleyi daim gündəmdə olub. Rəsmi məlumatlara görə, Birinci Qarabağ müharibəsində 3 min 203 nəfəri hərbçi, 787 mülki şəxs itkin düşüb. Mülki şəxslər arasında 75-i uşaq, 315-i isə yaşlı olub.



Bu sahədə ən ciddi faktlardan biri 1998 və 2001-ci illərdə BQXK-nin Dövlət Komissiyasına təqdim etdiyi 54 azərbaycanlı ilə bağlıdır. Həmin materiallara əsasən, intensiv hərbi əməliyyatların gedişində işğalçılar tərəfindən əsir-girov götürülərək, Ermənistanda və bu ölkə tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının Qarabağ ərazisində müxtəlif yerlərdə saxlanılan 54 soydaşımıza BQXK nümayəndələri baş çəkərək onları rəsmi qeydiyyata almışlar. Lakin sonradan həmin 54 nəfərdən 17 nəfərinin meyiti qaytarılıb, 4 nəfərin sonrakı taleyi barədə məlumat verilməyib, 33 nəfərin saxlanma yerində öldüyü bildirilsə də, meyitləri təhvil verilməyib. Bu son dərəcə ciddi və ağrılı statistikadır.

2021-ci ilin sentyabr ayında keçirilən BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxış edən Prezident İlham Əliyev bu məsələni diqqətə çatdırıb: "Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Ermənistan onların taleyi ilə bağlı bizə məlumat verməlidir. Bizdə olan etibarlı məlumatlara əsasən, onların, demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib və beynəlxalq humanitar hüquqa zidd olaraq Ermənistan ordusu tərəfindən kütləvi məzarlarda basdırılıb...Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən, Ermənistan dövlət səviyyəsində Azərbaycana qarşı hərbi təcavüz və digər ağır cinayətlərə görə məsuliyyət daşımalıdır".

Umud Mirzəyev daha sonra bildirdi: "Azərbaycan uzun illər öz torpaqlarını sülh yolu ilə geri qaytarmağa çalışsa da, çox təəssüf ki, bu təşəbbüs nəticəsiz qaldı və müharibə qaçılmaz oldu. Nəticədə, Azərbaycan tarixi ədalət bərpa etdi, lakin İkinci Qarabağ müharibəsində də şəhidlərimiz, yaralanan, həyatını itirən mülki şəxslərimiz, eləcə də əsir və itkin düşən (6 nəfər) vətəndaşlarımız oldu.

Bu gün biz görürük ki, ikitərəfli dialoq təkcə itkin düşmüş şəxslərin taleyinin araşdırılmasında deyil, bütövlükdə, sülh prosesinin inkişafında ən effektiv vasitədir. Hesab edirəm ki, bu cür müzakirələr və birbaşa əlaqələr iki ölkə arasında münasibətlərin normallaşmasını sürətləndirən əsas amillərdən biri olacaq. Unutmaq olmaz ki, hər iki tərəfdən hələ də yüzlərlə ailə öz doğmalarından xəbər almaq ümidi ilə yaşayır. Onların taleyinin aydınlaşdırılması və haqlarının bərpası isə humanitar baxımdan ən ümdə məsələlərdən biri olaraq qalmaqdadır".

Beləliklə, itkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması ciddi ictimai hadisə olmaqla yanaşı, həm də Azərbaycan dövlətinin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

**Qan yaddaşı**

# Güney Azərbaycan türklərinin soyqırımı

**(əvvəli 20, 22 aprel saylarımızda)**



Erməni-asurilərin törətdikləri "Cilovluq" faciəsi əsasən Urmiyada olmuşdur. Qərbi Azərbaycan ostandarlığının (vilayət) mərkəzi Urmiya şəhəri tarixən Qərb dünyası üçün böyük strateji əhəmiyyətə malik bir nöqtə olub. Məsələn, İran–ABŞ əlaqələri 1834-cü ildə Urmiyada başlamış, Vatikan bu şəhərdə ilk nümayəndəliyini açmışdı.

1909-cu ildən etibarən Cənubi Azərbaycan ruslar tərəfindən işğal edilmişdi, Urmiya da rusların nəzarətində idi. Faciələr elə buradan başlanmışdı. İran–Türkiyə sərhədində yerləşən bu bölgə həm tarixən, həm də bu gün rəsmi inzibati adı "Qərbi Azərbaycan" olaraq bilinir. Urmiya, Sulduz, Səlmas, Xoy, Qoşaçay, Maku, Tikantəpə, Soyuqbulaq şəhər və qəsəbələri bölgənin mühüm yaşayış məntəqələridir.

Urmiya geosiyasi əhəmiyyətinə görə 150 il terror təşkilatlarının lövbər saldığı məkan olub. Ermənilər buranı da qurmaq istədikləri erməni dövlətinin sərhədləri içərisində görürdülər. Birinci Dünya müharibəsinin başlanması və ondan sonra Qacar (İran) hökmranlığının bitərəfliyini elan etməsi ilə Rusiya və onun müttəfiqləri olan ermənilər üçün tarixi fürsət yarandı və müdafiəsiz Qərbi Azərbaycan Ermənistan üçün əlçatan oldu.

1915-ci ilin payızından etibarən Osmanlılara qarşı Cilovları da yanlarına ala bildilər. Asurilərin dini və siyasi lideri Marşimon Urmiyaya gələrkən Səlmasda rəsmi mərasimlə qarşılandı. Qərbi Azərbaycanda ermənilər və asurilər üçün baza yaradılması planı rəsmi olaraq başlandı. Yalnız 1917-ci ildə Van, Naxçıvan və İrəvandan olan 40 min asuri və 5 min erməni Urmiya və Səlmasda yerləşdirildi. 1917-ci ilin fevralında hakimiyyətə gələn Müvəqqəti Rusiya hökuməti mayın 9-da "Türkiyə Ermənistanı" haqqında Əsasnamə" adlı beş nəfərlik Qafqaz Xüsusi Komitəsi yaratdı. "Türkiyə Ermənistanı" üçün tələb olunan Osmanlı torpaqları Ərzurum, Ərzincan, Muş, Van, Bitlis vilayətləri, Qars və bu vilayətlərin yaratdığı xəttin şərq hissəsində Rusiya sərhədinə qədər uzanan bölgələr idi. Cənubi Azərbaycanın Qərb bölgələrin bir hissəsi də, yeni qurulacaq Ermənistan dövlətinin sərhədlərinə daxil edilmişdi. "Türk Ermənistanı" adlı türk torpaqlarına erməni bir valinin təyin edilməsi erməniləri daha da şitləndirmişdi.

Hakimiyyəti ələ alan bolşeviklər də bu ideyanı dəstəkləyirdilər. 1917-ci il Oktyabr İnqilabı nəticəsində Rusiyada yeni qurulan bolşevik hökumətinin ermənilərə münasibətdə yürütdüyü siyasət əvvəlkindən fərqli olsa da, erməni iddiaları və onların oynadıqları rol dəyişməmişdi. İranın Qərbi Azərbaycan bölgəsi bolşeviklərin "Türkiyə Ermənistanı" layihəsində yer almışdı.

Anadolunun şərqində Rusiyanın bir qolu rolunu oynayan minlərcə erməni və asuri burada əvvəlcədən məskunlaşdırılmışdı. Səlmas və Urmiya şəhərlərində "dəvət edilməmiş bu işğalçı qonaqlar" xalq arasında Cilov adlandırılırdı. "Cilo" qədim assuriyalıların bir tayfasının adıdır. Ciliv dağının ətəklərində yaşadıqlarına görə onlar belə adlandırılırdılar. Qərb mənbələri 1914-cü ildə onların sayının 150 min olduğunu yazır.

Əslində, Osmanlı İmperiyasının hüdudları daxilində böyük bir qrup kimi görünməyən asurilər digər qeyri-pravoslav qruplar kimi erməni millətinə daha yaxın görünürdülər. Başqa sözlə desək, onlar Osmanlı idarəsi tərəfindən fərqli millət hesab edilmirdi. Onların sayı az olduğuna görə İran tərəfindən millət kimi tanınmırdı. Onlar daha çox İraq dağlarında yaşamaqda idilər. Cilovların Qərbi Azərbaycan bölgəsinə gəlişi Birinci Dünya müharibəsinin başlanması ilə sürətlənmişdi. Ermənilər onlara bu bölgə ilə bağlı planlarını gerçəkləşdirmək üçün müttəfiq kimi baxırdılar. Urmiya qırğınlarında da onlar birgə hərəkət etmişdilər.

Urmiya Azərbaycan türklərinin ən qədim məskənlərindəndir. Lakin burada ermənilər və asurilər (cilov) kimi milli azlıqlar da yaşayırdılar. XVI-XVIII əsrlərdə kürdlər Urmiya vilayətinə köçürülərək, bu torpaqlarda məskunlaşdılar. Xüsusilə Rza xan hakimiyyətə gəldikdən sonra köçürmə siyasəti daha da sürətləndi. 1917-1918-ci illərdə Urmiya vilayətinin 300 min əhalisi var idi. Əhalinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Onlar şəhərdə və 699 kənddə yaşayırdılar.

XIX əsrin 30-cu illərində Cənubi Azərbaycana Amerika və Avropa missionerləri də gəlməyə başladılar. Onlar bu bölgəyə, guya, Urmiya və Səlmasda yaşayan xristian asurilər və ermənilər arasında öz məzhəblərini təbliğ etmək adı ilə girdilər. Əslində, bu gəliş missionerlik fəaliyyəti idi, müstəmləkəçilik məqsədi daşıyırdı. Birinci Dünya müharibəsində ermənilər və asurilər Osmanlı imperiyasına qarşı savaşda düşmənlərin yanında dayandılar. Onlar Güney Azərbaycanın qərb bölgəsində etnik təmizləmə siyasəti həyata keçirdilər.

1917-ci il rus inqilabı ilə rus ordusu bölgədən rəsmən geri çəkilsə də, müharibənin əvvəlindən cilovları yönləndirən rus konsulu Nikitin idi. 1917-ci il Rusiya inqilabından sonra Amerika, İngiltərə və Fransa dövlətləri təhsil və Qırmızı Xaç yardımı adı altında cilovlara maliyyə və silah dəstəyi verməkdə daha fəal rol almağa başladılar. Məlum olan rəsmi teleqramlarda və məktublarda bu siyasi nümayəndələrin ermənilərin Qərbi Azərbaycanda məskunlaşdırılması və silahlandırılmasında nələr etdikləri aydın görünür. Məşhur Fransız Qızıl Aypara Təşkilatı rəsmi olaraq cilovun silah ehtiyatlarının təchizat mərkəzi kimi fəaliyyət göstərmişdir. Onlar təpədən-dırnağadək silah və pulla təchiz olunduğu halda yerli əhalinin silahları zorla alınıb, evləri talan olunmuş, ticarət mərkəzləri, xüsusilə Urmiya və Səlmas bazarları yandırılaraq yox edilmişdi . Xüsusilə 1918-ci ilin fevralından etibarən cilovların arxa cəbhəsinin güclənməsi ilə on minlərlə Güney Azərbaycan türkü 6 ay boyunca küçələrdə, evlərdə, kəndlərdə vəhşicəsinə qətlə yetirildi.

Çərşənbə axşamı, ilaxır çərşənbə adlanan Novruz bayramı günündə isə Urmiya qan gölünə çevrildi. 19 mart 1918-ci il çərşənbə axşamından başlayaraq, 12 saat ərzində minlərlə urmulu öz torpaqlarında ən dəhşətli şəkildə qətlə yetirildi. Urmiya soyqırımı 159 gün davam etdi, 22 fevral 1918-ci il cümə günü başlayıb, 1 avqust 1918-ci il çərşənbə günü türk ordusunun şəhərə girməsi ilə sona çatdı. Erməni–asuri quldurları şəhəri tərk etməyə məcbur oldular.

Əlində, minlərlə yerli türkün qatili Marşimonun ölümündən sonra qaçan Cilov silahlıları yolda Səlmasın və onun yaxınlığındakı Köhnəşəhərin müdafiəsiz əhalisini qətlə yetirdilər.

Burada xristian bir dövlətin yaradılması ideyası sonrakı tarixlərdə də erməni planlarına daxil olmuşdur. Ermənilər İranın şimalını və Türkiyənin şərq sərhədlərini əhatə edən coğrafiyada muxtar Asuri – Ermənistan dövlətinin yaradılması planını həyata keçirməyə çalışıblar. Bölgəyə nəzarət edən İngiltərəyə müraciət edilib. Qırğınların başında dayanan erməni lider Ağa Petros 1923-cü ildə İngiltərəyə qurulması planlaşdırılan muxtar hökumət layihəsi təqdim edib. Asuri – Ermənistan dövlətinin sərhədlərini göstərən xəritə və dövlət atributları, o cümlədən bayraq layihəsi rəsmən təqdim edilib. 25 maddədən ibarət planı İngiltərə səlahiyyətlilərinin təsdiqinə göndərilib. Həmin layihənin ilk üç maddəsində bu dövlətin qurulmasının səbəbləri, altı alt başlıqdan ibarət dördüncü maddədə isə bunun ingilislər və bölgə ölkələri üçün üstünlükləri göstərilmişdir.

Türkiyə, İran və İraq arasında qurulması planlaşdırılan dövlət İraqın şimal sərhədində Türkiyənin İraqa müdaxiləsinin qarşısını almaqla yanaşı, şimalda yaşayan kürdlərlə güney kürdləri arasında əlaqənin kəsilməsinə də imkan verəcəkdi. Ermənilər bu işin gerçəkləşməsinə kürdlərin mane olacaqlarını düşünürdülər. Bundan əlavə, türk qüvvələrinin mümkün hərbi əməliyyata başlayaraq Mosula enməsi halında, İraq kralı Faysal hərbi gücünün mənbəyini asurilərdən ibarət hərbi birləşmələrdən təşkil edəcəkdi və beləliklə, ingilislər öz fəaliyyətləri üçün unikal hərbi gücə malik olacaqdılar. Təqdim olunan layihənin yekun bəyannamədə ermənilərin də bu "dövlət"in tərkibində milli azlıqlar da təmsil olunacaqdılar. Bölgənin əsas əhalisi Azərbaycan türkləri milli azlıq kimi təqdim edilirdi. Ağa Petros və başqa erməni-asuri liderlər düşünürdülər ki, bir qədər sonra Azərbaycan türklərinin buradan çıxarıb azlıq vəziyyətinə sala biləcəklər. Təbii ki, bu layihə kağız üzərində qaldı.

Sonda birmənalı şəkildə deyə bilərik ki, Güney Azərbaycanın qərbində silahlı erməni və asurilərin Azərbaycan türklərinə qarşı törətdikləri qanlı olaylar bütün parametrləri ilə soyqırımı aktı idi. Bu akt BMT-nin 1948-ci il Konvensiyasına görə soyqırımı sayılmalıdır. Onu planlaşdıran və törədənlərin rəsmi yazışmaları, qeydə alınmış ifadələri beynəlxalq soyqırımı anlayışını tam təsdiqləyir. Etnik və məzhəb zəminində müdafiəsiz xalqın öz torpaqlarında kütləvi qətli bəşəri cinayətdir.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Musiqimizin Zəfər təranələri

**Vətən müharibəsində Böyük Zəfərimizdən sonra bütün sahələrdə olduğu kimi, musiqi aləmində də aşkar bir vətənpərvərlik ruhu, qəhrəmanlarımızın tarixi hünərini tərənnüm edən nikbin notlar yarandı. İllərcə işğal altında qalmış musiqi beşiyimiz Qarabağın, Şuşanın azadlığına qovuşması bəstəkarlarımızı da hədsiz sevindirib ilhamlandırdı. Tanınmış musiqişünas – dirijor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Telman Qəniyevlə söhbətimiz də elə bu barədədir.**

– Artıq 5-ci ildir ki, Zəfər tariximizin sevinci qəlbimizdən qələmimizə, notlarımıza və ifalarımıza süzülür – deyə o bildirdi. – Elə bir musiqiçi, bəstəkar, müğənni yoxdur ki, bu fərəhi yaşamasın və böyük təblə ifadə etməyə çalışmasın. Qarabağda quruculuq və bərpa işləri, Şuşada Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun sədri Mehriban xanım Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən “Xarıbülbül”



və Üzeyir Hacıbəyli musiqi festivalları, digər layihələr qalib xalqımızın yüksək əhval-ruhiyyəsini aləmə car çəkib. Bütün bu layihələrdə Azərbaycan bəstəkarları və musiqişünasları fəal iştirak edirlər. Hələ döyüşlərin getdiyi 44 gün ərzində sənətçilərimiz mahnı və marşlarla əsgərlərimizi ruhlandırıb, qələbə əzmini artırmağa çalışıblar. Bu misilsiz zəfəri bizə bəxş edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, igid oğullarımıza, şəhidlərimizin ruhuna həsr olunmuş dəyərli əsərlər yaradılıb.

**Gözün aydın, ey ana Vətən,**
**Şəhidlərin batmadı qanı.**
**Zəfər çaldın bu savaşda sən**
**Qalib adın gəzdi cahanı! –**

Xalq şairi Sabir Rüstəmxanlının bu misralarla başlanan şeirinə yazılan, Alim Qasımov, Brilyant Dadaşova, Zamiq Hüseynov, Tünzalə Ağayeva, Samir Cəfərov və “Natiq” ritm qrupunun səslendirdiyi “Zəfər nəğməsi” kimi nümunələr çoxdur.

***– Telman müəllim, ümumiyyətlə, deyə bilərikmi ki, bəstəkarlarımızın əsərlərində mənəvi tərbiyə və vətənpərvərlik notları hər zaman aktual olub?***

– Əlbəttə. Bu amil respublikamızda bir çox tarixi, ədəbi-bədii, mədəni, və s. sahələrdə özünəməxsus yer tutur. Musiqi sahəsi də istisna deyil. Belə əsərlərin sırasına müxtəlif xarakterli parlaq nümunələr daxildir. Azərbaycanda vətənpərvərlik mövzusuna hər edilmiş mahnılar və ya musiqi əsərləri dedikdə, ilk növbədə, bu il 140 yaşı tamam olan Üzeyir Hacıbəyli yada düşür. O hələ 1930-cu illərin sonunda özünün məşhur “Koroğlu” operası ilə zəfər qanadlı ciddi əsərlərin təməlini qoyub. Opera 1938-ci ildə Moskvada Azərbaycan mədəniyyət və incəsənət ongünlüyündə göstərilib və 1941-ci ildə bu əsərə görə Üzeyir bəyə o zamanın ən ali dövlət təltiflərindən biri – Stalin mükafatı verilib. Beləcə, “Koroğlu” ilk dəfə tamaşaya qoyulandan bəri uğur bu opera ilə qoşa addımlayır.

Üzeyir bəyin ötən əsrə aid “Milli marş”, “Çırpınırdı Qara dəniz”, “Əsgər



marşı”, “Səni gözləyir”, “Çağırış”, “Ananın oğluna nəsihəti”, “Döyüşçülər marşı” və s. mahnıları bu gün də təravətini itirməyib. 40-cı illərdə İkinci Dünya müharibəsinin qurtarması ilə bağlı bəstəkarlardan Qara Qarayev və Cövdət Hacıyevin birlikdə yazdıqları “Vətən” operası iri həcmli səhnə əsəri kimi qələbənin tərənnümü üçün bir örnək idi.

Azərbaycanda 90-cı illərdən başlayaraq məşhur olan mahnılar da diqqət çəkir. İlk növbədə, bəstəkar Emin Sabitoğlunun Əhməd Cavadın sözlərinə yazdığı “Can Azərbaycan!” və Cavanşir Quliyevin “Əsgər marşı”nı misal göstərə bilərik. Ramiz Mirişlinin yazdığı mahnılardan “Əsgər andı”, “Azərbaycan, dünyam mənim”, “Sərhədçilər marşı”, “Əsgər haqqında ballada”, “Vətən harayı” və digərləri də “Gün o gün olsun ki, qurtarsın dava” arzusuna bələnmişdi.

**– Şübhəsiz ki, indi artıq Qarabağın işğalının sonu – tarixi Zəfər günləri də böyük ehtişamla qeyd olunur.**

– Başqa cür ola da bilməz. Fərhad Bədəlbəyli deməkən, vaxtilə Vasif Adıgözəlov “Laylay Şuşa”nı yazanda, hamımız ağlayırdıq, dərdləşirdik. Nəhayət, Zəfərdən sonra onun “Qarabağ oratoriyası” Cıdır düzündə Dövlət Simfonik Orkestri Dövlət Kopellası ilə ifa edildi. Bu isə düşmənə bir işarə idi ki, ağıllı olun, qurtarın separatçı oyunları. Bildiyim qədərincə, artıq Şuşada Bakı Musiqi Akademiyasının açılması barədə xoş söhbətlər də gedir.

Xatırlayıram ki, hələ 4 il əvvəl Zəfər Günü ərəfəsində Azərbaycan Bəstəkarlar İttifaqında böyük hazırlıqlar aparıldı. Şanlı qələbəmizə həsr olunmuş müxtəlif janrlı vətənpərvərlik əsərləri dinlənildi və təntənəli konsertdə səslendirilmək üçün 18 musiqi seçildi. Bunlar simfonik, eləcə də solistlər, xor və orkestr üçün nəzərdə tutulmuş vokal-instrumental əsərlər idi. Hamısı da bəstəkarların fəal vətəndaşlıq mövqeyini, dövlətimizin, xalqımızın həyatı ilə, mədəniyyəti ilə dərin tellərlə bağlılığını nümayiş etdirdi. Konsert zamanı marş, oda, uvertüra, mahnı, kantata və digər janrlarda bəstələnmiş əsərlər proqramda xüsusi bir ardıcıllıqla Qarabağ zəfərinə doğru aparan yolun mərhələlərini əks etdirirdi. İfaçıların səyi ilə bitkin bir vokal-simfonik kompozisiya tamaşaçılara təqdim olundu, emosional təsirli, dinamik cərəyan edən lirik və coşğun anlar gözümüz qarşısında canlandı.

***– Həmin əsərlərdən hansılar daha çox yadda qalıb?***

– İlk Zəfər konserti Cəlal Abbasovun “Şanlı Azərbaycan” – xor və simfonik orkestr üçün kompozisiyası ilə başlandı. Sonra səslənən gözəl əsərlərdən Azər Dadaşovun “Zəfər çələngi”, Mobil Babayevin əsgəri marşlar ruhunda “Şanlı Qələbə” simfonik əsəri, Ceyhun Allahverdiyevin “Qələbə uvertürası”, Vüqar Camalzadənin “Qarabağa gedən yol”, Qarabağ qazisi, gənc bəstəkar Vüqar Məmmədzadənin “Dəmir yumruq” mahnısı ordumuzun igidlik dastanı kimi yadda qaldı. Konsertin sonunda Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin “Zəfər marşı” (sözləri müəllifindir) qələbəmizin himni kimi səslənərək, konsertə yekun vurdu.

Düşünürəm ki, xalqımızın, xüsusən, 2-ci “Qarabağa azadlıq!” şüarlı 44 günlük Vətən müharibəsi və ya “Dəmir yumruq” əməliyyatı kimi qəbul ediyi bu mübarizə onun milli-mənəvi dəyərlərinin yüksəlişində əhəmiyyətli rol oynamış, xalqımızın yaddaşında silinməz izlər buraxmışdır. Sadaladığımız amillər gənclərimizin musiqili vətənpərvərlik tərbiyəsində ən ümdə cəhətləri özündə əks etdirir. Buna görədir ki, bəstələnən musiqi əsərləri də öz mövzusu baxımdan diqqət çəkir, yadda qalır.

Hər il belə möhtəşəm konsertlər olur. Zəfər yolçuluğumuza həsr edilən digər əsərlərdən səs və kamera orkestri üçün işlənmiş “Zəfər himni”, “Azərbaycanım”, “Ana torpaq”, “Qələbə üverturası”, “Bu gözəl Vətən bizimdir” və çoxlu sayda digər mahnılar sevilir və oxunur. Bunlardan əlavə, neçə-neçə müğənni də vətənpərvərlik mövzusuna dair mahnılar qoşub oxuyurlar.

İnanıram ki, zaman keçdikcə Zəfər ruhlu musiqi əsərlərinin sayı daha da artacaq, daha böyük musiqi pannoları yaranacaq. Qarabağ zəfəri daha tutarlı simfoniya, oratoriya və operalarda tərənnüm olunacaq.

***Söhbəti hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# ADPU heyəti Türkiyə universitetlərində



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərovun başçılıq etdiyi heyət Türkiyənin nüfuzlu ali təhsil müəssisələri olan Hacəttəpə və Çankaya universitetlərində işgüzar görüşlər keçirib.**

Səfərin məqsədi ADPU ilə Türkiyə universitetləri arasında elmi-pedaqoji əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası, habelə təhsil və tədqiqat sahəsində təcrübə mübadiləsi barədə müzakirələrin aparılmasıdır. Görüşlər zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, əməkdaşlığa dair bir sıra ilkin razılaşmalar əldə olunub.

Görüşlər zamanı ADPU heyəti Hacəttəpə və Çankaya universitetlərinin tədris prosesi ilə yaxından tanış olublar.

***Q.YUSİFOĞLU***
***XQ***

# ATU-da Tibb Festivalı




**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və Azərbaycan Tibb Universitetinin 95 illik yubileyinə həsr olunmuş Tibb Festivalında Türkiyə, Özbəkistan və Belarusdan gəlmiş alimlər də iştirak ediblər. Aktual elmi mövzular müzakirə edilib.**

Əvvəlcə qonaqlar Tibb Festivalının sərgi və startap guşəsinə baxıblar. Sonra açılış mərasimi olub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli az qala 1 əsr əvvəl bu ali məktəbin yaradılmasının ölkəmizdə səhiyyənin və tibb təhsilinin inkişafı tarixində önəmli bir dönüş nöqtəsi kimi qiymətləndirib. Rektor Ulu öndərin elmə, təhsilə, xüsusilə də tibb sahəsinin inkişafına böyük diqqət və qayğı ilə yanaşdığını, Azərbaycan Tibb Universitetinin inkişafını strateji əhəmiyyətli bir məsələ kimi dəyərləndirib. Heydər Əliyev ideyalarının sədaqətli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın 3 dəfə universitetin tələbə-gəncləri, professor-müəllim heyəti ilə görüşdükləri, eləcə də ATU-nun nəzdində yeni klinikaların təməlqoyma və açılış mərasimlərində iştirak etdikləri də minnətdarlıqla xatırlanıb.

Rektor qeyd edib ki, müasir dövrdə ATU-nun fəaliyyəti böyük nailiyyətlərlə müşayiət olunur. Burada 1500-dən çox əməkdaş çalışır, akademiklər, AMEA-nın müxbir üzvləri, Əməkdar elm xadimləri fəaliyyət göstərir. Universitetdə 7500 tələbə təhsil alır ki, onların 3000-ə yaxını 45 ölkədən olan əcnəbi tələbələrdir. Bu göstərici həm də Azərbaycan Tibb Universitetinin dünya akademik ailəsində artan nüfuzunun və beynəlxalq əlaqələrinin göstəricisidir. Bu gün ATU-nun məzunları dünyanın dörd bir yanında peşəkar fəaliyyət göstərir, ölkəmizi layiqincə təmsil edirlər. Hazırda universitet “EduRank” və “H-index Azerbaijan” kimi nüfuzlu beynəlxalq platformalarda yüksək mövqe tutmağa çalışır, 25-dən çox ölkə və 110-dan artıq universitet və elmi təşkilatla əməkdaşlıq edir. Son illər aparılan islahatlar tədrisin keyfiyyətinin artırılması və rəqəmsallaşmasına, beynəlxalq əməkdaşlığın genişlənməsinə, tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməsinə xidmət edib. ATU “Tədqiqat universiteti” statusunun əldə olunması, infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi, startap təşəbbüslərinin genişləndirilməsi istiqamətində işləri də intensivləşdirib.

Sonra ATU-nun tarixi inkişaf yolundan bəhs edən “95 ilin işığında” film, nümayiş olunub. Ardınca isə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev, Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, Türkiyənin Sağlamlıq Elmləri Universitetinin rektoru, professor Kəmaləddin Aydın, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru, professor Nazim Qasımov, Səmərqənd Dövlət Tibb Universitetinin rektoru, professor Cəsur Rzayev, Belarus Dövlət Tibb Universitetinin rektoru Sergey Rubnikoviç və Buxara Dövlət Tibb Universitetinin rektoru, professor Şöhrət Taşayev təbrik nitqi ilə çıxış edərək festivalın işinə uğurlar arzulayıblar.

ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə Səmərqənd Dövlət Tibb Universitetinin fəxri professoru diplomu təqdim edilib.

Tibb Festivalının açılışında musiqiyə də yer verilib. Xalq artisti, “Şöhrət” ordenli professor Mənsum İbrahimov bayrama daha şən ovqat qatıb. Onu tarda Xalq artisti Elçin Həşimov, kamançada Əməkdar artist Elnur Əhmədov müşayiət ediblər.

Növbəti günlərdə Tibb Festivalı öz işini paralel panel sessiyalarla davam etdirəcək. Festival çərçivəsində “ATUREK 13” konfransı və ATU Tələbə Elmi Cəmiyyətinin yekun konfransı da keçiriləcək.

***Qəzənfər QASIMOV***
***XQ***

# Baş Prokurorluqda media seminarı



**Baş Prokurorluqda media subyektləri və gənclərin iştirakı ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsində cinayət təqibi ilə media subyektlərinin qarşılıqlı əlaqələri” mövzusunda seminar təşkil edilib.**

Tədbirdə televiziya kanallarının, informasiya agentlikləri və xəbər saytlarının, müxtəlif qəzetlərin jurnalistləri, eləcə də hüquq fakültəsində təhsil alan tələbələr iştirak ediblər. Treninq media və prokurorluq orqanları arasında qarşılıqlı əlaqənin müxtəlif aspektlərini əhatə edib.

Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, istintaqa nəzarət idarəsinin böyük prokuroru Rəşad Qasımov prokurorluqda aşkarlıq, şəffaflıq, təqsirsizlik prezumpsiyasının media materiallarında qorunmasının əhəmiyyəti, bu prinsipin pozulmasının hüquqi və sosial fəsadları, eləcə də ictimaiyyətin obyektiv məlumatlandırılmasının vacibliyini vurğulayıblar. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Memarlıq və İnşaat Universitetinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Abdullayev sosial media üçün xidməti məlumatların hazırlanma və mediada yayılma qaydası, eləcə də sosial media savadlılığı mövzusunda seminar keçiblər.

Bildirilib ki, informasiya texnologiyalarının sürətli inkişafı insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində cinayət təqibi orqanlarının, media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrin qurulmasını və birgə layihələrin həyata keçirilməsini labüd edir. Bu səbəbdən media subyektləri və vətəndaş cəmiyyəti institutları ilə Baş Prokurorluq müntəzəm əlaqədədir, müasir çağırışlara cavab verən tədbirlər keçirilir.

Prokurorluq əməkdaşları və media nümayəndələri arasında effektiv informasiya mübadiləsinin hüquqi əsasları və etik çərçivəsi də geniş şəkildə müzakirə olunub. Tədbir çərçivəsində Baş Prokurorluq tərəfindən hazırlanmış “Jurnalistlər üçün hüquqi terminlər lüğəti” adlı nəşrin təqdimatı keçirilib. Sosial media və media savadlılığı mövzusunu əhatə edən sessiyalarda rəsmi məlumatların hazırlanması, yayım standartları və ictimai maraq doğuran məsələlərin dəqiqliklə çatdırılması ilə bağlı praktiki tövsiyələr verilib. Tədbirin sonunda iştirakçılar Baş Prokurorluğun inzibati binalar kompleksi ilə tanış olub.

***R.ABİŞOV***
***XQ***

# AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI QƏRAR

**№ 3-27/3-7-4/2025**

**Bakı şəhəri** **25 aprel 2025-ci il**

**"Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin bir sıra normativ hüquqi aktlarında dəyişiklik edilməsi barədə**

"Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 161s nömrəli Sərəncamının 5-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nda, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 21 yanvar tarixli KQ-2/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nda, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-12/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası"nda, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-13/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi Qaydası"nda, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-15/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılması Qaydası"nda və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-16/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatlarına hazırlıq Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2025-ci il 25 aprel tarixli 3-27/3-7-4/2025 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nda, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 21 yanvar tarixli KQ-2/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nda, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-12/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası"nda, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-13/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi Qaydası"nda, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-15/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılması Qaydası"nda və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-16/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatlarına hazırlıq Qaydası"nda edilmiş dəyişikliklər:**

1. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyasının 2021-ci il 26 yanvar tarixli KQ-1/21 nömrəli qərarı ilə təsdiq edilmiş "Mülki aviasiya sahəsində təhdidlərin qiymətləndirilməsi və risklərin idarəolunması Metodikası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.4-cü bənddə "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra - Aviasiya Agentliyi)" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsə (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

1.2. 5.5-ci və 11.1-ci bəndlərdə ismin müvafiq hallarında "Aviasiya Agentliyi" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 21 yanvar tarixli KQ-2/22 nömrəli qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVİD-19) pandemiyası dövründə aviadaşıyıcılar tərəfindən Azərbaycan Respublikasına uçuşların həyata keçirilməsinin müvəqqəti dayandırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.1-ci bənddə "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Dövlət Agentliyi)" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

2.2. 6.2-ci bəndin birinci cümləsində və 6.5-ci bənddə "Dövlət Agentliyinin direktoru və ya direktorun vəzifələrini" sözləri "Agentliyin İdarə Heyətinin sədri və ya sədrin səlahiyyətlərini" sözləri ilə əvəz edilsin;

2.3. 6.4-cü bəndin birinci və ikinci cümlələrində "Dövlət Agentliyinin direktoruna və ya direktorun vəzifələrini" sözləri "Agentliyin İdarə Heyətinin sədrinə və ya sədrin səlahiyyətlərini" sözləri ilə əvəz edilsin;

2.4. 6.8-ci və 7.1-ci bəndlərdə ismin müvafiq hallarında "Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-12/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi Qaydası"nın 4.2-ci bəndinin birinci cümləsində "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 22 iyul tarixli 3-27/3-7-13/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi Qaydası"nın 3.1-ci bəndində "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinə" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-15/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılması Qaydası"nın 2.2.4-cü yarımbəndində "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-16/2024 nömrəli qərarı ilə təsdiq edilmiş "Uçuş əməliyyatlarına hazırlıq Qaydası"nın 4.3-cü bəndində "Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sözləri "Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs" sözləri ilə əvəz edilsin.

# Trampın rekord büdcə tələbi

## ABŞ-da ordu güclənir, yardımlar isə azalır

**ABŞ Prezidenti Donald Trampın administrasiyası qarşıdan gələn maliyyə ili üçün büdcə layihəsini təqdim edib. Yeni büdcə layihəsində Ağ evin sahibi hərbi xərcləri rekord səviyyəyə qaldırmaq niyyətində olduğunu vurğulayıb. Konqres cənab Trampın tələbini təsdiq edərsə, hərbi xərclər Amerika tarixində ilk dəfə olaraq 1 trilyon dolları keçəcək. Eyni zamanda, mülki xərclər kəskin şəkildə azalacaq, ABŞ-dan maliyyə dəstəyi gözləyən xarici ölkələr də gözlədikləri vəsaiti ala bilməyəcəklər.**



Ağ ev Konqresə 2025-ci il oktyabrın 1-də başlayan və 30 sentyabr 2026-cı ildə başa çatacaq maliyyə ili üçün büdcə təklifi göndərib. Əslində, bu, tam hüquqlu qanun layihəsi deyil, Donald Tramp administrasiyasının istəkləridir. ABŞ mətbuatı yazır ki, qanunvericilər bəziləri ilə razılaşmaya bilər. Bununla belə, həm Senat, həm də Nümayəndələr Palatası respublikaçıların nəzarəti altındadır, ona görə də administrasiya ümid edir ki, dövlət başçısının fikirlərinin ümumi istiqaməti nəzərə alınacaq.

Donald Trampın dövlət xərclərini kəskin azaltmaq vədlərinə baxmayaraq, onun administrasiyası müəyyən sahələrdə xərcləri rekord səviyyəyə çatdırmaq qərarına gəlib. Ağ evin təkliflərinə əsasən, ABŞ-ın hazırkı prezidentinin əsas prioriteti milli təhlükəsizliyin maliyyələşdirilməsidir. Belə ki, gələn il üçün cənab Tramp Konqresdən müdafiə üçün 1,01 trilyon dollar istəyib və bu məbləğ Amerika tarixində ilk dəfə bu maddə üzrə 1 trilyon dolları ötüb. Cari maliyyə ili ilə (892,3 milyard dollar) müqayisədə Ağ evin rəhbəri hərbi ehtiyaclara 13 faiz çox vəsait xərcləməyi planlaşdırır. Pentaqonun özü 961 milyard dollar alacaq ki, bu da bu illə müqayisədə, təxminən, 113 milyard dollar və Co Bayden administrasiyasının 2026-cı il üçün ayırmağı planlaşdırdığından 84 milyard dollar çoxdur.

Bu cür istəklərə cavab olaraq müdafiə naziri Pit Heqset dərhal vəd edib ki, Pentaqon "hər bir vergi ödəyicisinin dollarını ağıllı şəkildə xərcləmək" niyyətindədir. Donald Tramp isə bildirib ki, Ağ ev "xərclərə diqqətlidir", lakin "ordu yaratmağa" məcburdur. ABŞ KİV-i yazır ki, büdcədə "Qızıl Qübbə" raketdən müdafiə sisteminin yaradılması, nüvə arsenalının modernləşdirilməsi və hərbçilərin maaşlarının 3,8 faiz artırılması nəzərdə tutulur. Bundan əlavə, Donald Tramp sərhədlərdəki vəziyyətə cavabdeh olan Daxili Təhlükəsizlik Departamentinin ehtiyacları üçün xərcləri 65 faiz artıraraq 175 milyard dollara çatdırmaq istəyir.

Bununla yanaşı, cənab Tramp və komandası daxili mülki xərclərin maliyyələşdirilməsini 2025-ci il büdcəsi ilə müqayisədə 22,6 faiz və ya 163 milyard dollar azaltmağı təklif edir. Ağ ev qərara gəlib ki, hökumət xərclərinin vəd edilən azaldılması bərpaolunan enerji, ətraf mühitin mühafizəsi, irqi bərabərsizliyin aradan qaldırılması, elm, təhsil, uşaqlara qulluq, səhiyyə, mənzil və şəhərsalma kimi sahələrə xərclərin radikal və ya tam azaldılması yolu ilə həyata keçirilə bilər. Administrasiya qeyd edib ki, bu, "2017-ci ildən bəri qeyri-müdafiə xərclərinin ən aşağı səviyyəsidir". Bundan əlavə, Vaşinqton xarici yardıma, o cümlədən beynəlxalq təşkilatlara ayrılan vəsaitləri də kəsməyi planlaşdırır. Qərb mediasının məlumatına görə, xarici siyasət layihələrinin ümumi maliyyələşdirilməsi, təxminən, 84 faiz azalaraq 9,6 milyard dollara çatacaq. Xüsusilə, Ağ ev BMT-nin sülhməramlı əməliyyatları üçün maliyyəni tamamilə kəsəcək. ABŞ prezident administrasiyası bu addımı onunla izah edir ki, Vaşinqton artıq beynəlxalq xərclərin "qeyri-mütənasib payını" daşımaq niyyətində deyil.

Ağ evin təklifləri demokratların tənqidinə səbəb olub. Respublikaçılar arasında da tənqidçilər var. Müşahidəçilərin sözlərinə görə, cənab Trampın təklifləri asan qəbul edilməyəcək. Doğrudur, Konqresin büdcə planlarını təsdiqləmək üçün hələ demək olar ki, beş ayı var. Bu müddət ərzində tərəflər arasında kompromislərin əldə olunacağı da istisma edilmir.

***S.ELAY***
***XQ***

**Sağlamlıq**

# Yaz xoş əhval fəslidir

## Amma öskürəyin artması insanlara əziyyət verir

**Qışdan sonra immunitetin zəiflədiyi, temperaturun dəyişdiyi və virusların yayılması üçün əlverişli şəraitin yarandığı fəsil başlayır. Yazın əvvəlindən etibarən uşaqlarda, həm də yaşlılarda öskürək müşahidə olunması bədənin viral infeksiyadan təsirləndiyinin göstəricisidir. Bu fikirləri ATU-nun ağciyər xəstəlikləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, ftiziopulmonoloq Pafiq Bayramov XQ-yə müsahibəsində bildirdi. O, öskürəyin niyə məhz yaz aylarında kəskinləşməsi və uzun müddət davam etməsi ilə bağlı sualımıza açıqlamasında dedi:**

– Yazda havaların tez-tez dəyişməsi ilə əlaqədar olaraq insanlar arasında müxtəlif nasazlıqların, o cümlədən öskürəklə müşahidə olunan bronx-ağciyər xəstəliklərinin artması müşahidə olunur. Ümumilikdə, bronx-ağciyər aparatının 800-ə yaxın xəstəliyi var ki, bunların da 200-ə qədəri ağciyərlərin səpələnmiş xəstəlikləridir. Bronx-ağciyər xəstəliklərinə tutulanların yarıdan çoxunda ilk 6 ayda heç bir əlamət olmur. Tənəffüs orqanlarının xəstəlikləri üçün xarakterik sayılan öskürək əlaməti isə xəstələrin bir qismində uzun müddət, ümumiyyətlə, müşahidə olunmur. Öskürək orqanizmin müdafiə refleksi olub, hava axınının ağciyərlərdən sürətlə xaric olması və bununla da tənəffüs yollarının yad hissəciklərdən təmizlənməsi prosesidir. Öskürək, əsasən, tənəffüs orqanlarının patologiyaları üçün xas olan əlamət sayılsa da, tənəffüs sistemində heç bir problem olmayan şəxslərdə də müşahidə oluna bilər. Çünki müxtəlif səbəblərdən yarana bilər.

**– Bu səbəblər hansılardır?**

– Tənəffüs sistemi orqanlarının patologiyaları zamanı (kəskin respirator virus infeksiyaları – KRVİ, bronx və ağciyər parenximasının zədələnməsi ilə gedən xəstəliklər – bronxial astma, ağciyərlərin xroniki obstruktiv xəstəliyi (AXOX), vərəm), LOR orqanların patologiyalarında (rinit, postnazal drip sindromu, sinusit, laringit), müxtəlif qıcıqlandırıcı maddələrlə nəfəsalma zamanı, ürək - damar sisteminin ürək çatışmazlığı ilə müşahidə olunan xəstəliklərində, mədə-bağırsaq xəstəlikləri zamanı (əsasən, qastroezofaqial refluks xəstəliyi – QERX), dərman preparatlarının arzuolunmaz effekti kimi – AÇF inhibitorları, amiodaron və bəzi toz formasında olan dərman preparatlarının istifadəsində, psixoemosional pozğunluqlarda (psixogen oskürək), metabolik pozğunluqlarda (podaqra, respirator alkaloz, Şeqren sindromu, hiperterioz) öskürəyin yaranması, bəzən də fəsadlaşması müşahidə olunur.

Öskürək quru və yaş (bəlğəmli) olur, davam etmə müddətinə görə isə kəskin (əgər 3 həftəyədək davam edərsə), yarımkəskin ( 3 həftədən – 3 ayadək davam edərsə) və xroniki (əgər 3 aydan çox davam edərsə) olmaqla 3 qrupa bölünür.

**– Bölgü öskürəyin kəskinliyinə, ya başqa əlamətə görə aparılır?**

– Quru öskürək yuxarı tənəffüs yollarının xəstəliklərinin başlanğıc mərhələsində, qastroezofaqial reflüks, bəzi dərman preparatlarının qəbulu, ağciyərlərin peşə-toz xəstəlikləri (pnevmokoniozlar), plevrit zamanı və s. hallarda daha çox müşahidə olunur. Bəlğəmli öskürəyə isə əsasən bronx-ağciyər aparatının iltihabi xəstəlikləri, o cümlədən ağciyər vərəmi zamanı rast gəlinir. Kəskin öskürək adətən yuxarı tənəffüs yollarının virus və bakterial infeksiyaları, pnevmoniya, yad cismin aspirasiyası, bronxial astma və AXOX-un kəskinləşməsi zamanı müşahidə olunur.

Yarım kəskin öskürək isə keçirilmiş kəskin tənəffüs infeksiyalarından sonra, LOR orqanların xəstəliklərində, ağciyərlərin interstisial patologiyalarında, vərəm, plevrit,



bronxial astma, AXOX, tənəffüs orqanlarının yeni törəmələri, tütünçəkmə və s. zamanı olur. ÜST-nın tövsiyələrində qeyd olunur ki, əgər xəstə 3 həftədən çox öskürərsə, onun mütləq ağciyər vərəminə görə müayinə olunması məsləhətdir.

Xroniki öskürək isə daha çox ürək – qan damar sistemi (ürək çatışmazlığı), mədə-bağırsaq sistemi patologiyaları (qastroezofaqial refluks), birləşdirici toxumanın diffuz xəstəlikləri, bəzi dərman preparatlarının qəbulu (AÇF inhibitorları), tütünçəkmə, vərəm və s. zamanı müşahidə olunur. Öskürəyin qarşısının alınması və müalicə olunması üçün onun hansı səbəbdən yaranmasının müəyyən edilməsi və həmin səbəbə qarşı müalicə və profilaktika tədbirlərinin aparılması tələb olunur.

**– Hansı infeksiyalar daha çox öskürəyə səbəb olur? Bəzən öskürək tez-tez xırıltı və nəfəs darlığı ilə müşayiət olunur.**

– Öskürəyə səbəb infeksiyalardan danışanda öncə deməliyik ki, qrip, xüsusilə, yazın əvvəlində ən çox yayılmış viral infeksiyalardan biri olaraq qalır, tez-tez quru və ağrılı olan şiddətli öskürəyə səbəb olur. Xəstəliyin digər əlamətlərinə yüksək hərarət, baş ağrısı, zəiflik, əzələ ağrısı və boğaz ağrısı daxildir.

Qriplə əlaqəli öskürək digər simptomlar aradan qalxdıqdan sonra da bir neçə həftə davam edə bilər. Qrip virusu pnevmoniya, bronxit və ya xroniki xəstəliklərin şiddətlənməsi (məsələn, astma) kimi ağırlaşmalara səbəb ola bilər. Vaxtında müalicə olunmadıqda, tənəffüs çatmazlığı da daxil olmaqla ciddi fəsadlar mümkündür.

Respirator sinsitial virusa (RSV) uşaqlarda daha çox rast gəlinir, lakin infeksiya böyüklərə də təsir edə bilər. Yazda bu virusun aktivliyi artır. Aşağı tənəffüs yollarının iltihabına səbəb olur, nəticədə öskürək, xırıltı və nəfəs çətinliyi yaranır. Qeyd etməliyik ki, öskürəyə səbəb infeksiyalardan biri RSV-dir. Virus bronxiolitə (kiçik bronxların iltihabı) və ya pnevmoniyaya səbəb ola bilər.

Rinovirus infeksiyası soyuqdəymələrin ən çox yayılmış səbəblərindəndir. Yazda onlar fəal şəkildə yayılaraq, burun axmasına, öskürək və boğaz ağrısına səbəb olur. Bu infeksiya ilə əlaqəli öskürəkdə adətən, bəlğəm əmələ gəlir. İnfeksiyanın əsas xüsusiyyəti odur ki, öskürək 10–14 günə qədər davam edə bilər. Soyuqdəymə vəziyyətində ağırlaşmalar nadir hallarda baş versə də, xroniki tənəffüs xəstəlikləri olan insanlarda rast gəlinir. İnfeksiya sinusit və ya otitə çevrilə bilər.

Koronavirus infeksiyası – COVID-19 və digər ştamları quru və uzunmüddətli öskürək yaradır. Yaz aylarında immun sistemi zəiflədikdə yoluxma riski artır. İnfeksiyanın xüsusiyyətlərindən danışanda qeyd etməliyik ki, COVID-19-a yoluxanda xəstəlik öskürək, iybilmənin itməsi, nəfəs darlığı və yorğunluqla müşayiət olunur. Yaşlılar və xroniki xəstəliyi olan insanlar, xüsusilə həssasdırlar.

Parainfluenza- paraqrip virusu olaraq tez-tez öskürək ilə müşayiət olunan laringit və bronxitə səbəb olur. Yazda aktivliyi artır. Paraqrip zamanı öskürək, xüsusilə, uşaqlarda uzun sürən ola bilər. Öskürək tez-tez səsin xırıltısı və tənəffüs çətinliyi ilə müşayiət olunur. İnfeksiya qripdən yüngül keçsə də, uşaqlar üçün təhlükəli ola bilər. Uşaqlarda paraqrip qırtlaqın şişməsinə səbəb ola bilər ki, bu da təcili tibbi yardım tələb edir. Bronxit və ya pnevmoniya kimi ağırlaşmalar mümkündür.

Öskürəyə səbəb olan yaz virus infeksiyaları nisbətən sağlamlığa ciddi təhlükə yarada bilər. Xəstəliyin əlamətlərini vaxtında tanımaq və fəsadların qarşısını almaq üçün tədbirlər görmək vacibdir. Əgər öskürək uzun müddət davam edirsə və ya ağır simptomlarla müşayiət olunursa, həkimə müraciət edilməlidir.

**– Doktor, ötən həftə Türkiyənin Antalya şəhərində keçirilən ağciyər xəstəlikləri üzrə beynəlxalq konqresdə siz də iştirak etmisiniz. Hansı yeni tibbi-elmi yanaşmalar oldu?**

– Türk Toraks Dərnəyinin təşkil etdiyi konqresdə 1200 nəfər iştirak edirdi. Avropa Respiratorlar Cəmiyyəti, Amerika Torokal Cəmiyyəti və s. beynəlxalq təşkilatların rəhbərlərinin də qatıldığı konqresdə hava çirklənməsi və tütünçəkmənin tənəffüs orqanlarına zərərli təsiri, bronxial astma, ağciyər vərəmi, interstisial ağciyər xəstəlikləri, ağciyərlərin xronik obstruktiv xəstəliyi və digər ağciyər patologiyalarının diaqnostika və müalicəsinə müasir yanaşmalara həsr olunmuş məruzələr dinlənildi və qarşılıqlı fikir mübadiləsi aparıldı.

Konqresin ağciyər vərəmi işçi qrupunun "Klinik təcrübədə vərəmin müalicəsi, müşahidəsi və yan təsirlər" toplantısında moderator və müzakirəçi kimi iştirak edərək, müxtəlif ölkələrdən olan mütəxəssislərlə fikir mübadiləsi apardıq. Məruzəçi qismində "Azərbaycanda vərəm: mövcud durum və hədəflər" mövzusunda məruzə edib iştirakçıların suallarını cavablandırdıq.

***Söhbəti qələmə aldı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Azərbaycan İdman Akademiyası

## *Aşağıdakı dekan, kafedra və departament müdiri vəzifələrinə*

## MÜSABİQƏ ELAN EDİR

*Fiziki tərbiyə fakültəsinin, məktəbinin dekanı* – 1 ştat.
*İdman fakültəsinin, məktəbinin dekanı* – 1 ştat.
*Sağlamlıq və menecment fakültəsinin, məktəbinin dekanı* – 1 ştat.
*Fiziki hazırlıq kafedrasının, departamentinin müdiri* – 1 ştat.
*Humanitar elmlər kafedrasının, departamentinin müdiri* – 1 ştat.
*Komanda idman növləri kafedrasının, departamentinin müdiri* – 1 ştat.
*Fərdi idman növləri kafedrasının, departamentinin müdiri* – 1 ştat.
*Sağlamlaşdırıcı idman və reabilitasiya kafedrasının, departamentinin müdiri* – 1 ştat.
*Menecment və ümumi fənlər kafedrasının, departamentinin müdiri* - 1 ştat.

**Fakültə və məktəb dekanı vəzifəsinə qoyulan tələblər**

| ÜMUMİ MEYARLAR | | MİNİMUM TƏLƏB |
|---|---|---|
| İxtisası üzrə təcrübə | | 5 il |
| Ali təhsil müəssisəsində təcrübə | | 3 il |
| Ali təhsil müəssisəsində pedaqoji təcrübə | | 3 il |
| Elmi ad və ya dərəcə | | Dosent və ya fəlsəfə doktoru |
| Dil bilikləri | ingilis | C1 |
| | rus | Əla |
| Kompüter bilikləri | | Əla |
| Ofis proqram bilikləri | | Əla |

| **DİGƏR BACARIQLAR (yumşaq və sərt)** |
|---|
| Liderlik |
| İdarəetmə bacarığı |
| Müvafiq sahə üzrə peşə bilikləri |
| Müvafiq sahə üzrə hüquqi biliklər |
| Strateji baxış və qərarvermə |
| Yaradıcı və analitik düşünmə |
| Planlaşdırma və proqnozlaşdırma |
| Problem həll etmə və riskləri idarəetmə |
| Akademik heyətin peşəkar inkişafına töhfə |
| Tədqiqatyönümlü fəaliyyətlərin təşkili və idarə olunması |
| Beynəlxalq təhsil sisteminə uyğunlaşma, xarici ATM-lərlə əməkdaşlıq və mübadilə proqramlarının təşkili |
| Büdcə planlaması və maliyyə idarəetməsi, daxili və xarici maliyyə mənbələrinin cəlbi |
| E-təhsilə keçidin təmin olunması |
| Beynəlxalq layihələrdə, reytinqlərdə iştirak və qrantlar əldə etmək |
| Keyfiyyətə nəzarət |
| Sahə üzrə innovativ yanaşma |
| Sənədlərlə iş və hesabatlılıq |
| Kommunikasiya bacarıqları |

**Kafedra və departament müdiri vəzifəsinə qoyulan tələblər**

| **ÜMUMİ MEYARLAR** | | **MİNİMUM TƏLƏB** |
|---|---|---|
| İxtisası üzrə təcrübə | | 3 il |
| Ali təhsil müəssisəsində təcrübə | | 2 il |
| Ali təhsil müəssisəsində pedaqoj təcrübə | | 2 il |
| Elmi ad və ya dərəcə | | Dosent və ya fəlsəfə doktoru |
| Dil bilikləri | ingilis | B2 |
| | rus | Əla |
| Kompüter bilikləri | | Əla |
| Ofis proqram bilikləri | | Əla |

| **DİGƏR BACARIQLAR (yumşaq və sərt)** |
|---|
| Liderlik |
| İdarəetmə bacarığı |
| Müvafiq sahə üzrə peşə bilikləri |
| Müvafiq sahə üzrə hüquqi biliklər |
| Strateji baxış və qərarvermə |
| Yaradıcı və analitik düşünmə |
| Planlaşdırma və proqnozlaşdırma |
| Tələbəmərkəzli mühitin formalaşdırılması |
| Akademik heyətin peşəkar inkişafına dəstək |
| Tədqiqatyönümlü fəaliyyətlərin həyata keçirilməsi |
| Beynəlxalq təhsil sisteminə uyğunlaşma, xarici ATM-lərlə əməkdaşlıq və akademik mübadilə proqramlarında iştirak |
| Mövcud təhsil proqramlarının təkmilləşdirilməsi, yeni proqramların hazırlanması və beynəlxalq səviyyəyə uyğunlaşdırılması |
| Təhsil proqramlarının keyfiyyət yoxlanılmasının həyata keçirilməsi |
| Keyfiyyətə nəzarət |
| Sahə üzrə innovativ yanaşma |
| Sənədlərlə iş və hesabatlılıq |
| Kommunikasiya bacarıqları |

Sənədlər müsabiqə elan edildiyi gündən bir ay ərzində təqdim edilə bilər. Əlaqə telefonu (012)-564-47-31, (012)-564-47-31, Email: info@sport.edu.az

***REKTORLUQ***

## “Azərelektrikşəbəkətikinti” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında balans hesabatı

| **AKTİVLƏR** | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar (əsas vəsaitlə) | 400,135.12 | 439,540.04 |
| İnvestisiyalar | | |
| | **400,135.12** | **439,540.04** |
| Ehtiyatlar | 101,728.63 | 101,728.63 |
| Qısamüddətli debitor borcları | 28,917.74 | 27,627.40 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 433,749.54 | 417,255.73 |
| Sair qısamüddətli aktivlər | 921,979.11 | 921,979.11 |
| | **1,486,375.02** | **1,468,590.87** |
| **CƏMİ AKTİVLƏR** | **1,886,510.14** | **1,908,130.91** |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 172,600.00 | 172,600.00 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1,196,467.45 | 1,222,440.00 |
| **CƏMİ KAPİTAL** | **1,369,067.45** | **1,395,040.00** |
| **ÖHDƏLİKLƏR** | | |
| Qısamüddətli kreditor borcları | 502,018.47 | 497,666.69 |
| Sair qısamüddətli öhdəliklər | 15,424.22 | 15,424.22 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **517,442.69** | **513,090.91** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **517,442.69** | **513,090.91** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1,886,510.14** | **1,908,130.91** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 86,101.79 | 112,542.40 |
| **Ümumi mənfəət (zərər)** | 86101.79 | 112542.4 |
| Kommersiya xərcləri | **-120.00** | **0.00** |
| İnzibati xərclər | (211564,54) | (383409,45) |
| **Əməliyyat mənfəəti (zərəri)** | -125,582.75 | -270,867.05 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **-125,582.75** | **-270,867.05** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **-125,582.75** | **-270,867.05** |

## “Gənclik” ASC səhmdarlarının nəzərinə!

2025-ci il iyunun 20-də saat 12.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı “Zoom” proqramı vasitəsilə onlayn rejimdə keçiriləcəkdir. Bununla əlaqədar ümumi yığıncaqda iştirak etmək üçün sizi “Ganjlik” onlayn qrupa daxil etmək məqsədilə 2025-ci il iyunun 19-u saat 22.00-dək adınızı, soyadınızı və atanızın adını 050-398-03-13 mobil telefon nömrəsinə “Whatsapp” vasitəsilə göndərməyiniz tələb olunur.

Gündəlikdəki məsələlər :

1. 2024-cü ilin yekunu üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə müfəttişin hesabatı.

2. Sair məsələlər.

Hörmətli səhmdarlar, 2025-ci il iyunun 20-də ümumi yığıncaqda iştirakınızı təsdiq etmək üçün saat 11.00-dək şəxsiyyətinizi təsdiqləyən sənədin surətini 050-398-03-13 nömrəli mobil telefon nömrəsinə “Whatsapp” vasitəsilə göndərməyiniz xahiş olunur və saat 11.30-dək (yəni iclasın başlanmasına 30 dəqiqə qalmış) “Zoom “ proqramı ilə keçirilən ümumi yığıncağa qoşulmaq və yığıncağın müzakirəsində iştirak etmək üçün “Whatsapp” vasitəsilə “Ganjlik” onlayn qrupa daxil olmaq və qrupun təşkilatçısı kimi “Ümumi yığıncağ”ın adından paylaşdığımız linkə daxil olmalısınız.

Ümumi yığıncağın gündəliyinin materialları ilə tanış olmaq üçün 2025-ci il iyunun 5-dən sonra cəmiyyətin direktoruna müraciət edə bilərsiniz. Bütün səhmdarların iştirakı vacibdir.

Telefon – (012) 465-84-90.

***DİREKTOR***

## “Dərnəgülsənayetikinti” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00-da “Dərnəgülsənayetikinti” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir .

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin idarə heyətinin 2024-cü ilin yekunları ilə bağlı təsərrüfat fəaliyyətinin hesabatı və hesabatın təsdiqi.

2. Sair məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştiraki vacibdir.

Əlaqə telefonu-(012)514-34-37.

Ünvan – Bakı şəhəri, Z.Bünyadov prospekti, məhəllə 20/61 E-118.

***İdarə heyəti***

# Bakıda beynəlxalq fotomüsabiqə

**Dünən Bakıda “Gilavar Foto Klubu” ictimai birliyinin təşəbbüsü ilə 8-ci “Azərbaycan Foto Salon 2025” adlı beynəlxalq fotomüsabiqə başlanıb. Bu barədə XQ-yə İB-nin idarə heyətinin sədri Rəşad Mehdiyev məlumat verib.**




Bildirib ki, Beynəlxalq Foto Sənəti Federasiyası və Beynəlxalq Bədii Fotoqraflar Assosiasiyasının dəstəyi ilə keçirilən tədbirin məqsədi istedadlı fotoqrafları üzə çıxarmaqla bərabər, onların beynəlxalq fotomüsabiqələrdə iştirak etmələri üçün şərait yaratmaqdır.

Sərbəst rəngli, sərbəst ağ-qara, insanlar və mənzərə mövzuları üzrə təqdim olunan fotolar Serbiya, Türkiyə və Kiprdən olan 3 nəfərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndiriləcək. Qiymətləndirmə beynəlxalq fotoqrafiya təşkilatlarının qaydaları və şərtləri çərçivəsində aparılacaq.

www.salon.gilavar.net saytı vasitəsi ilə də dünyanın müxtəlif ölkələrindən peşəkar və həvəskar fotoqraflar müsabiqədə iştirak edə bilərlər. Qaliblərin fotolarından ibarət elektron kataloq hazırlanacaq. Müsabiqə iyulun sonuna qədər davam edəcək. Nəticələr isə avqust ayının sonuna qədər açıqlanacaq.

Qeyd edək ki, son illərdə “Gilavar Foto Klubu” 20-dən artıq fotomüsabiqə keçirib.

***Fidan SALMANOVA***
***XQ***

## “Gəncə-Ekspress”ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00-da “Gəncə-Ekspress”ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. “Gəncə-Ekspress” ASC-nin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Telefon-/022/255-78-45.

Ünvan-Gəncə şəhəri, Ələkbər bəy Rəfibəyli küçəsi14.

## “Bakı Dəmir-Beton-7” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

“Bakı Dəmir-Beton-7” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 iyun 2025-ci il saat 11.00-da Bakı, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2a nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. “Bakı Dəmir-Beton-7” ASC-nin 2024-cü il üzrə illik fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Əlaqə telefonu – 050-545-92-41.

***İdarə heyəti***

## “Səyyarmextikinti” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da “Səyyarmextikinti” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2024-cü il üçün illik fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Əlaqə telefonu – (050) 545-92-41.

***İdarə heyəti***

## “Şərab-Nəqliyyat” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 12.00-da Bakı şəhəri, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda “Şərab-Nəqliyyat” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə yığıncaqda iştirakı vacibdir.

Telefon – (012)566-26-86.

***“Şərab-Nəqliyyat” ASC-nin sədri***

## “Bakı Şərab-1” ATSC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da Bakı şəhəri, Heydər Əliyev prospekti 104 nömrəli ünvanda “Bakı Şərab-1” ATSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarlardan xahiş olunur ki, şəxsiyyəti təsdiqləyən sənədlə yığıncaqda iştirak etsinlər.

İllik hesabatla cəmiyyətin saytının elanlar bölməsində tanış olmaq mümkündür. web: bakuserab.az

Telefon – (012)566-26-86.

***“Bakı Şərab-1” ATSC-nin müşahidə şurası***

## “Goranboy Şərab” ASC səhmdarlarının nəzərinə!

20 iyun 2025-ci il saat 10.00-da “Goranboy Şərab” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC sədrinin seçilməsi.

2. Müşahidə şurası üzvlərinin seçilməsi.

3. Təftiş komissiyası üzvlərinin seçilməsi.

Əlaqə nömrəsi – 050-387-65-04.

Ünvan – Goranboy şəhəri, Cəfər Cabbarlı küçəsi 6.

## Ləğvetmə prosesində olan “İmişli Mehmanxana” ASC səhmdarlarının nəzərinə!

“İmişli Mehmanxana” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 24 iyun 2025-ci il saat 14.00-da keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.

2. Cəmiyyətin qalıq əmlakının və pul vəsaitinin səhmdarlar arasında bölünməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.

3. Cəmiyyətə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.

4. Sair məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə ediləcək sənədlərlə hər həftənin iş günləri, saat 10.00-dan 17.00-dək 050-255-40-80 nömrəli telefonla əlaqə saxlayaraq tanış ola bilərlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

Ünvan – Bakı şəhəri, Səbail rayonu, Tərlan Əliyarbəyov küçəsi 22.

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 92 (30786) 7 may 2025-ci il, çərşənbə

## Bakıda idman festivalı



**Mayın 6-da Bakı şəhəri Səbail rayonu Məmməd Rahim adına 7 saylı tam orta məktəbin təşkilatçılığı ilə "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" (OCEP) çərçivəsində ümummilli lider Heydər Əliyevin 102-ci ildönümünə həsr edilmiş idman festivalı keçirilib.**

Festival məktəbin hazırladığı stendlərə baxışla başlayıb. Azərbaycan Respublikasının himni səsləndirildikdən sonra rəsmi qonaqlar tədbirin proqramını izləyiblər.

Mərasimdə çıxış edən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndəsi Nərminə Hüseynova ulu öndər Heydər Əliyevin idmana qayğısından danışıb. Bildirib ki, ümummilli liderin rəhbərliyi dövründə Azərbaycanda idmanın inkişafı üçün mühüm addımlar atılıb, gənclərin sağlam ruhda böyüməsi daim diqqət mərkəzində olub. Dövlətimizin idman sahəsindəki bu siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün də uğurla davam etdirilir.

Azərbaycanın milli rəqsləri və musiqi sədaları altında müxtəlif kompozisiyalar nümayiş etdirildikdən sonra Olimpiya məşəli meydana gətirilib.

Məktəb şagirdlərinin yarışı, gimnastika məktəbi və 7 saylı məktəbin şagirdlərinin çıxışları tədbirə rəng qatıb. Məktəbin şagirdi Musa Muradın musiqili ifası da tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

## Azərbaycan cüdosu ilk "5-lik"də



**Azərbaycan Dünya Cüdo Turunun ümumi sıralamasında beşinci yerə yüksəlib.**

Seriyaya reytinq yarışları, "Böyük Dəbilqə" və Qran-Pri turnirləri daxildir. Düşənbədəki "Böyük Dəbilqə"də qazandığı iki qızıl və iki gümüş medal sayəsində cüdo komandamız ilk 5-liyə yüksəlib. İlin əvvəlindən cüdoçularımız 4 qızıl, 4 gümüş və 5 bürünc medal qazanıblar. Yalnız bürünc medalların sayının az olmasına görə dördüncü yerdəki Gürcüstandan geri qalırıq.

Yaponiya ümumi siyahıda liderdir (20-15-18), 2-ci yerdə Fransa (9-8-19), 3-cü yerdə isə IJF bayrağı altında çıxış edən idmançılar (9-8-11) qərarlaşıblar.

*L.QURBANOVA*
*XQ*

*Uzaq ölkə – yaxın dost*

# Ciyərləri ilə sevənlər ölkəsi – Mərakeş

**Elə xalqlar, toplumlar var ki, hər dəfə onların tarixi, mədəniyyəti, həyat tərzi barədə oxuyub-dinləməkdən yorulmursan, daha çox öyrənmək istəyirsən. Sanki, bu bilgilərlə həmin məmləkətlər bizə məsafəcə də yaxınlaşırlar. Belə sirli-soraqlı, cazibədar ölkələrdən biri də Şimali Afrikanın qərbində – ərəblərin dediyi kimi, məğribdə yerləşən Mərakeşdir.**





Bura əsl müsəlman ölkəsidir. Onu Avropadan bir neçə kilometrlik okean suları ayırsa da, burada insanların tərzi tamam başqadır. Yəqin ki, yaşlı nəsil yaxşı xatırlayır – Mərakeş sovet zamanında ölkəmizdə dadlı naringisi ilə tanınırdı. Lakin bu ölkə çoxəsrlik ənənələrin, arxitektura şedevrlərinin və qeyri-adi təbiət mənzərələrinin də məskənidir.

Bəli, bu dəfə Mərakeşə səyahət edəcəyik. Bu, ərazicə kifayət qədər böyük ölkənin paytaxtı Rabat, ən iri şəhəri isə Kasablankadır. Ərəb və bərbər dilləri rəsmi dil hesab olunur. "Darija" adlanan ərəb dili ilə klassik ərəb dilləri arasında xeyli fərq var. Belə ki, "darija" gündəlik həyatda, klassik ərəb dili isə əsasən dini, siyasi, inzibati, hüquqi və mədəni sahələrdə, eləcə də mətbuatda geniş işlədilir.

Mərakeşli xanımlar özəl geyim mədəniyyəti ilə fərqlənirlər. Onlar istər kənd yerlərində, istər böyük şəhərlərdə elə geyinirlər ki, bədənlərinin heç bir nahiyəsi hiss olunmur. Bu geyim üslubu "ağayana geyim" adlanır. Mərakeşi ziyarət edən əcnəbi qızlar və xanımlara isə baş örtüklərindən istifadə etmələri tövsiyə olunur.

Mərakeşlilər çox nəzakətli insanlardır və onlar sizinlə, ailənizlə maraqlanmağı özlərinə borc bilirlər. Bu davranış, ilk baxışda, yorucu görünsə də, sadəcə, səbrli olmaq lazımdır. Axı yerli sakinlər sizinlə adicə söhbət edəndə belə çox mehribanlıq göstərir, bu zaman qonağa həvəslə məsləhətlər də verirlər.

Elə bilirsiniz ki, Mərakeşdə qar olmur?! Olur! Qışda bu Afrika ölkəsində xizək sürmək, hətta qardan "adam" düzəltmək də mümkündür. Paytaxtdan cəmi 75 kilometr aralıda olan Atlas dağlarında komfortlu xizək kurortu – Ukaymeden yerləşir. Burada dekabrdan aprelin əvvəlinə qədər qar yağır, ətraf dümağ örpəyə bürünür.

Yeri gəlmişkən, Atlas dağlarının ətəyində qırmızı-qəhvəyi rəngdə nadir "marokko" ağacı bitir. Bu bahalı ağacdan "Rolls-Royce", "Mercedes", BMW kimi avtomobillərin salonlarının tərtibatında istifadə edirlər. Mərakeş dünya kinematoqrafçılarının ən sevimli məkanlarındandır. 1960-cı illərdən başlayaraq, burada hər il yüzlərlə film çəkilib. 1983-cü ildə isə Mərakeşdə dünyanın ən böyük kinostudiyalarından olan "Atlas" yaradılıb. "Qladiator", "İsgəndər", "007: Spektr" serialları və digər populyar ekran əsərləri məhz buradakı pavilyonlarda ərsəyə gəlib.

Mərakeş gəncləri sevdiyi qızlara "Mən sənə ürəyimi verərəm" demirlər. Onlarda sevgi rəmzi bizim öyrəşdiyimiz kimi ürək yox, qaraciyər sayılır. Ehtimal edilir ki, sağlam qaraciyər insan sağlamlığı üçün mühüm rol oynayır. "Siz mənim qaraciyərimi fəth etdiniz" ifadəsi sevgi etirafı sayılır.

Mərakeşlilər mavi rəngi çox sevirlər. Ölkədə hətta tam mavi rəngə boyanmış bir şəhər də var. Adı Çefçauendir. Şəhərin qapı-pəncərələri, pilləkənləri, divarları, hətta yeri belə mavidir. Bu yaşayış məntəqəsini orta əsrlərdə Avropada inkvizisiyadan canlarını qurtarıb qaçan yəhudilər salıblar. Hazırda Musa peyğəmbərin dinindən olanların sayı şəhərdə xeyli azalsa da, burada mavi rəngin üstünlüyü davam edir.

Mərakeş turistlərin sevə-sevə ziyarət etdikləri məmləkətlərdəndir. Son illər burada bir-birindən yaraşıqlı, gözoxşayan məscidlər ucaldılıb. Məsələn, Kasablankadakı II Həsən Məscidi gözəl bir memarlıq nümunəsi olaraq, bütün dünyada məşhurdur. XVI əsrə aid olan məscid "İslam muzeyi" də adlanır. Məbəd hər zaman ziyarətçilərin üzünə açıqdır.



Sonda qeyd edək ki, Azərbaycan və Mərakeş bir-birilə dost ölkələrdir. Dövlətlərimiz arasında səfirliklər səviyyəsində diplomatik əlaqələr qurulub. Azərbaycanla Mərakeş arasında bütün səviyyələrdə əlaqələr genişlənir. Mərakeşlilər də xalqımızın tarixinə, mədəniyyətinə dərin maraq göstərirlər. Nə yaxşı ki, heç bir məmləkətə bənzəməyən Mərakeş bizə dost olan dövlətdir.

*Məsaim ABDULLAYEV,*
*Fidan SALMANOVA*
*XQ*

# Özbəkistan ali məktəbləri Bakı sərgisində



**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Özbəkistanın 15-ə yaxın nüfuzlu ali təhsil müəssisəsini əhatə edən sərgi təşkil olunub. Qardaş ölkənin nümayəndələri ziyarətçilərə öz universitetlərinin fəaliyyəti, tədris imkanları, tələbə mübadiləsi proqramları və elmi əməkdaşlıq perspektivləri barədə ətraflı məlumat veriblər.**

Daşkənd, Səmərqənd və Buxarada fəaliyyət göstərən aparıcı ali təhsil ocaqlarının yer aldığı sərginin açılış mərasimində AMEA-nın prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatları iştirak ediblər. Çıxışlarda Azərbaycan və Özbəkistan arasında dostluq və qardaşlıq münasibətlərinin təhsil, elm və mədəniyyət sahələrində də inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Sonra "İnqla School Baku"nun təşkilatçılığı, Özbəkistan Ali Təhsil Nazirliyi, bu ölkənin Azərbaycandakı səfirliyi və Crossmedia.az analitik informasiya portalının tərəfdaşlığı ilə keçirilən sərgi ilə tanışlıq olub.

Xaricdə təhsil məsələləri üzrə ekspert Murad Ələkbərzadə "Xalq qəzeti"nə müsahibəsində deyib ki, əməkdaşlığın davamlı inkişafı istiqamətində atılan bu addım, Azərbaycan və Özbəkistan arasında təhsil sahəsində qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edir. Ekspert Özbəkistan təhsilinin səviyyəsindən və bu universitetlərin yerli və beynəlxalq şirkətlərlə əməkdaşlığından söz açaraq bildirib ki, sərgidə təmsil olunan universitetlər dünya əmək bazarının tələblərinə uyğun kadr hazırlığı həyata keçirir.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

**HAVA**

# Abşeronda yağmursuz, bölgələrdə yağış, külək və duman...

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə bəzi yerlərdə az çiskinli olacağı, gündüz isə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Cənub-qərb küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 14-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gündüzdən əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-18°, gündüz 23-28°, dağlarda gecə 3-8°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



**Sağlamlıq**

# Limonun toxumu da özü qədər xeyirlidir

**Limonun özü kimi toxumları da faydalıdır. Onun tərkibindəki güclü antioksidantlar bədəni xəstəliklərdən qoruyur.**

C vitamini ilə zəngin olan bu kiçik toxumlar immunitet sistemini gücləndirməyə kömək edir. Xüsusilə, qış aylarında qrip, soyuqdəymə kimi xəstəliklərə qarşı orqanizmin müqavimətini artırır.

Bağırsaqlardakı zərərli bakteriyaların təmizlənməsində də təsirlidir, həzmi asanlaşdırır. Limon toxumundan hazırlanan çay həzmi yaxşılaşdırır və şişkinliyi aradan qaldırır.

Eyni zamanda, limon toxumlarının tərkibindəki təbii komponentlər iltihab əleyhinə təsirlidir, oynaq ağrıları, revmatik xəstəliklər və əzələ ağrılarından əziyyət çəkənlər üçün şəfa mənbəyidir.



Limon toxumundan çay hazırlamaq üçün 5–6 limon toxumunu yüngülcə əzmək, sonra 1 stəkan suya əlavə edib qaynatmaq, 10 dəqiqədən sonra süzüb içmək lazımdır.

Acılığı aradan qaldırmaq üçün dəmləməyə 1 çay qaşığı bal və ya bir neçə damcı limon suyu əlavə etmək olar.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3438
SİFARİŞ 930
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00